# FAZİL QƏZƏNFƏROĞLU

# BİR TÜRKÜN MANİFESTİ

Bu kitabda Azərbaycanın tanınmış ictimai-siyasi xadimi Fazil Qəzənfəroğlunun Türklük davası, Türk dili və Türk liderləri ilə bağlı məruzə və məqalələri dərc olunmuşdur.

## FAZİL QƏZƏNFƏROĞLU (MUSTAFAYEV)

1965-ci ildə Naxçıvan şəhərində doğulmuşdur. 1991-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakultəsini bitirmişdir.

1981-ci ildən Naxçıvanda fəaliyyət göstərən gizli siyasi qrupda Sovet rejimi əleyhinə mübarizəyə başlamış, sonralar rejim əleyhinə mübarizə aparan «Çənlibel» birliyinin büro üzvü, «Yurd» birliyinin və Şimali Azərbaycan Tələbə İttifaqının yaradıcılarından olmuşdur. 1991-1992-ci illərdə AXC Sədrinin köməkçisi, müşaviri, AXC İcraiyyə Komitəsinin üzvü və Analitik Mərkəzin rəhbəri olmuşdur. AXC Sədri Ə.Elçibəyin prezidentliyi dövründə (1992-1993) Prezident Aparatı Dövlət-Hüquq şöbəsinin müdiri vəzifəsində işləmiş, eyni zamanda Bakı Dövlət Universiteti Beynəlxalq Münasibətlər Fakultəsində «Politologiya» fənnini tədris etmişdir. 4 iyun 1993-cü il qiyamından sonra Kələkidə sürgündə olan prezident Ə.Elçibəyin Aparatının rəhbəri (1994-1995), sonra isə Ə.Elçibəyin Türkiyə Özəl Təmsilçisi (1995-1998) vəzifələrində çalışmışdır. Qısa müddətlərdə bir neçə dəfə qanunsuz olaraq həbs olunmuş, dəlil çatışmamazlığına görə sərbəst buraxılmışdır. 1998-ci ildən Azərbaycan Xalq Cəbhəsi Partiyası Sədrinin siyasi məsələlər üzrə müavini olmuşdur. 2001-2003-cü illərdə siyasətdən uzaqlaşdırılmaq məqsədilə qanunsuz olaraq cəbhə bölgəsinə ikinci dəfə hərbi xidmətə göndərilmişdir. 2003-cü ildə müddəti tamamlandıqdan sonra baş leytenant rütbəsində ordudan təxris olunmuşdur. 2003-cü ilin iyun ayında Böyük Quruluş Partiyasının yaradılması təşəbbüsü ilə çıxış etmiş və həmin partiyanın Təşkilat Komitəsinin Sədri seçilmişdir. «Azərbaycan Türklərinin dini-fəlsəfi dünyagörüşü: fəlsəfi aspekt» mövzusunda namizədlik dissertasiyasının müdafiəsinə H.Əliyev rejimi tərəfindən imkan verilməmişdir. Azərbaycanda və Türkiyədə 7 kitabı, yüzlərlə elmi və publisistik məqalələri dərc olunmuşdur.

## Kitabın İçindəkilər

**Bir türkün manifesti**

**Türklük bayramı - dünya türklərinin birlik və bütövlük bayramıdır!**

**Azərbaycan dövlətçiliyi və milli azlıqların problemləri**

**Türklük nostalgiyası**

**Vaxtdır, başlamalıyıq!**

**Gecikmişik, başlamalıyıq!**

**İslam dövləti arzulayanlara bəzi faydalı öyüdlər**

**İdealımız və hədəfimiz haqqında**

**XXI yüz il - üçüncü alma**

**Separatçıların açıq məktubuna alnıaçıq cavab**

**Millət haqqında qısa mülahizə**

**Yaşanmış tarix və yaşanacaq gələcək**

**Milli dava**

**Əbülfəz Elçibəy fenomeni**

**Haqqın Elçibəyi haqqında**

**İslam ibadəti və ana dili**

**Ortaq gələcək haqqında bir neçə söz**

**İstiqlalçılıqla qalmaqalçılığın fərqi**

**Milli birlik və bilik**

# BİR TÜRKÜN MANİFESTİ

Azərbaycanda neçə illərdir davam edən hakimiyyət davasının kökündə əsl həqiqətdə bir milli dava durur. 1993-cü ildə H.Əliyevin başçılıq etdiyi qüvvələr Azərbaycan türklərinin hakimiyyətini devirdikdən sonra ilk öncə naxçıvanlı və ermənistanlı elektorata söykəndiyi görüntüsü verən hakimiyyət sütunları qısa bir müddət içində qeyri-türk ünsürlərlə dolduruldu. Hətta adı çəkilən bölgələrdən də xüsusi olaraq seçilmiş qeyri-türklər əhəmiyyətli dövlət vəzifələrini tutmağa başladılar. Eyni siyasət az sonra digər Azərbaycan bölgələri içindən də seçilmiş adamlar vasitəsilə həyata keçirilməyə başlandı. Bu Sovet idarəçilik sistemindən əxz olunmuş sabit bir idarəetmə anlayışının nəticəsi idi. Misal olaraq Sovet İttifaqı Qəhrəmanları siyahısına, sovet ordu generalları siyahısına diqqət yetirsəniz görəcəksiniz ki, hələ o dövrdən çox az sayda türkə bu adlar və rütbələr almaq nəsib olmuşdur. Sovet dövründə isə bir nəfər də olsun türkün DTK sistemində general rütbəsinə yüksələ bilmədiyi də ciddi bir faktdır. Çünki heç zaman imperiya sahibləri inanmayıblar bizə. Əvəzində üzərimizdə bir sıra xırda xalqların təmsilçilərini nəzarətçi qoymuşlar. İndi də təqribən eyni vəziyyəti yaşamaqdayıq. H.Əliyev hakimiyyəti dövründə ən yüksək vəzifə tutan adamların nəsil-kökünü dəqiq cəmiyyətə təqdim etsələr, hansı acınacaqlı vəziyyətdə qaldığımızı və bizi milləti məlum olmayan bir talançı dəstəsi idarə etdiyini görərik.

Bir hakimiyyət dəyişiklikliyinin nəticələrinə diqqət yetirin: Türk dili adı dəyişdirilərək Azərbaycan dili qoyuldu. Türklərin qədimdən yaşadığı Qarabağ torpağında ermənilərin dövlət qurması üçün münbit şərait yaradıldı. Hakimiyyət əksər erməni və başqa millətlərlə qarışıq məmurların inhisarına verildi. İqtisadi postlardan türk iş adamları sıxışdırılıb çıxarıldı. Türkiyədən Türk iş adamı adı ilə əsas etibariylə Öcalan təəssübkeşi olan şəxslərə və firmalara şərait yaradıldı. Eyni zamanda Türk etnosuna o qədər də rəğbətlə yanaşmayan dini təriqətlərin təmsilçiləri də Azərbaycanda geniş şəbəkə yarada bildilər. Təsadüfi deyil ki, bu gün müdafiə nazirliyinin yuxarı eşalonu və əksər idarə rəhbərləri, Prezident Aparatı, Daxili İşlər

Nazirliyi, Respublika prokurorluğu, məhkəmə sistemi, Milli Təhlükəsizlik Nazirliyi və başqa orqanlarda çox az sayda qanı, məfkurəsi Türk olan şəxslər çalışır. Söhbət hansısa Azərbaycan vətəndaşının diskriminasiyasından getmir. Sadəcə çoxluğu təşkil edən millətin öz yaratdığı dövlətdə necə acınacaqlı vəziyyətdə yaşamağından söz açırıq. Yanacaq sahələri, iqtisadi strukturlar əsas etibarilə qeyri-türklərin əlindədir. Hətta məscidlərdə mollarların düzülüşünə də diqqət yetirsəniz, yenə də azlıq təşkil etdiyimizi müşahidə edə bilərsiniz. Bütün bu vahiməli durumun içində həm də geniş səviyyədə bizə qarşı bir ideoloji mübarizə gedir. Türkiyə əleyhinə, Türklük və Türklər əleyhinə islamçı, YAPçı, kommunist, şeyxçi, xomeyniçi, sosdem, sadvalçı, mütəllibovçu, putinçi, köçəryançı qüvvələr birləşərək təbliğatlarını aparırlar. Son vaxtlar «Millətin səsi» qəzetində davam etdirilən bu kursun da özəlliyi məhz onların Elçibəydən hədyan yazmağa başlamasıdır. Hər halda qəzet sahibləri də başa düşməmiş deyildir ki, dünyasını dəyişmiş və kifayət qədər nüfuzu olan bir Türk liderinə qarşı saygısız münasibətə görə onun tərəfdarlarının ən sərt münasibətilə qarşılaşacaqlar. Normal qəzetçi məntiqi ilə bu cür addım atılmamalıydı. Ancaq məhz Elçibəyə, onun dünyagörüşünə, davasına qarşı yönələn bu hücumların içində Türkə düşmənçilik, Türkə nifrət sistemli şəkildə dilə gətirilməkdədir. Demək hədəf Elçibəy şəxsiyyəti deyil, bütövlükdə Türklük dünyagörüşü, Türklük davası seçilmişdir. Düşüncəmizə görə, bütün bunlara kampaniya xarakterli cavablar verilməsi də məqsədəuyğun deyil. Bir tarixi epizodu xatırlayıram. Universitetdə böyük türk mütəfəkkiri Xudu Məmmədovla görüşdə mərhum akademik bir hadisəni danışdı. Dedi ki, balıqçılar böyük balıq tuturlar. İki-üç gün gəminin göyərtəsində qalmalarına baxmayaraq sahilə bu balıqlar diri gəlib çıxır. Susuz balıqların necə yaşamasını müşahidə edən bir şəxs görür ki, həmin iri balıqların yanına dənizçilər xırda bir pişik balası ötürürlər. Bu pişik balası böyük balıqları yeyə bilmədiyindən onları yol boyu qıdıqlamaqla məşğul olur. Bu təhlükəsiz cırmaqlar əslində balıqların yaşamasına təminat verir. İndi bu hadisə konteksindən çıxış edərək hər dəfə bir pişik balasının biz türkləri qıdıqlamasının nə qədər yararlı olduğunu

söyləmək yerində olardı. Buna görə də özümüz, öz gələcəyimiz, öz dirilişimiz haqqında düşüncələri müzakirəyə çıxarmamız vacibdir.

Biz türklər heç zaman ədalətsiz olmamışıq. İşğal etdiyimiz ərazilərdə bəlkə də başqa xalqlara özümüzdən daha gözəl şərait yaratmışıq. Bunun üçün sadəcə Osmanlı imperiyasında ermənilərin, yunanların və başqa xalqların türklərdən daha yaxşı şərtlər altında yaşadığını müqayisəli şəkildə göstərmək mümkündür. Azərbaycanda da türklər bütün millətlərə tolerantlı yanaşmış, başqa millətlər məhz türklərin xoşgörüsü nəticəsində Azərbaycana doğma məmləkət kimi baxmışlar. Ləzgiləri, talışları, tatları özümüzdən ayrmamışıq, dərin qohumluq əlaqələri mövcuddur. Ermənilər, ruslar Azərbaycanda tapdıqları rahat həyatı heç bir yerdə tapa bilməmişlir. Bəs birdən-birə hamının bizdən istədiyi, tələbi nədir? İran 30 milyondan artıq qardaşımızı əsarətində rahatca saxlaya bilir. Ermənilər bizi öz torpağımızdan qovub çıxarıblar. Separatçılar hər an hərəkətə keçməyə hazır vəziyyətə gətirilmişlər. Bəsit bir səbəb var: Azərbaycan türkləri təşkilatlana bilmirlər. Bu işə cəhd göstəriləndə də təşkilatlanmanın ən bəsit və zərərli forması seçilir: Regionçuluq. Həqiqətən dəhşətə gəlinməlidir ki, bir siyasi partiya rəhbəri naxçıvan və ermənistanlıları yeni azərbaycanlılar, qalanlarını yerli azərbaycanlılar kimi təsnifləşdirir. Təkcə səviyyəsizlikdirmi? Deyil! Bu bir türk nifrətinin dəyişik formasıdır. Bu bir pişik balasının Türkü qıdıqlamasıdır. Ancaq bunlara cavab vermək mərhələsi arxada qalmış. Artıq bunlardan cavab tələb etmək lazımdır.

Biz vətən torpağını ona görə itirmişik ki, Şuşa, Laçın, Qubadlı, Kəlbəcər, Ağdam rayonununun sakinləri kimi baxmışıq böyük savaşa. Bütöv bir Türk müqaviməti yarada bilməmişik. Bu gün önə çıxan beş-on titullu ziyalımız ya ən böyük ermənistanlı, ya ən böyük naxçıvanlı, ən böyük qarabağlı, ən böyk şirvanlı sayılmaq mübarizəsinə başlarını qatmışlar. Ən böyük Türk kişisi olmaq davasının altına girməyi eyni ehtirasla bacarmırlar. Göyçə, Ağrıdağ, Zəngəzur, Əlincə, Girdman, Quruçay adlanan cəmiyyətlərinin bünyəsində cılız məhəllə davasında başımızı qatmağımızın nəticəsidir ki, hamımızı bir yerdə söyürlər. Arada bir fürsət tapıb bizə ürək-dirək verən Türk təyyarələrini də məsxərəyə qoymağa cəsarət

edirlər. Yalını yedikləri İranın, Rusiyanın təyyarələrini gözlədikləri bir zamanda bizim Türkiyənin təyyarələrinin gəlişi gözlərini qamaşdırmış hamısının.

Elçibəyin sağlığında ona qarşı hücumların səbəbini bildiyim üçün usanmadan hər hansı bir saldırını cavabsız qoymağı düşünmürdüm. Elçibəy mənim üçün ən birinci və ən birinci böyük türk milliyyətçisi olması ilə önəmliydi. Çünki millətimin haqqını illərlə hayqıran bir səsdi Elçibəy. Elçibəyə hücumlar idarəçilik metodu və ya şəxsiyyəti ilə bağlı tənqid və təhqirlər üzərində qurulsa da, ən sonda ortaya çıxan niyyətin Türklüyə qarşı nifrətedici münasibət olduğu sezilirdi. Anlamaq lazım ki, nə ölümündən əvvəl, nə də sonra biz Elçibəydən büt yaratmaq fikrində olmamışıq. Tək Tanrıya iman edənlər üçün bütpərəstlik deyilən bir din yoxdur. Ancaq böyük Türklük davamızın simvolu kimi sağlığında da, ölümündən sonra da ona qarşı saldırıları susdurmağı bir milli borc hesab edirik. İndi həm də eyhamla bizə irad tuturlar ki, Elçibəyi filankəslər söymuş, təhqir etmiş, indiyə qədər nə etmisiniz ki ?! Bu ritorik qabaqdangəlmişlik bəlkə də haqlı görünə bilər. Həqiqətən bizə heç nə olmayıbmış kimi bütün Türk düşmənlərinə xoşgörülü davranmışıq. Yenə də xatırlatmaq istəyirəm ki, artıq biz cavab verməyəcəyik. Çünki böyüklər kiçiklərin suallarına başa salmaq üçün bir dəfə cavab verirlər, ardınca onlardan hərəkətlərinə və sözlərinə görə cavab tələb edirlər. İndiki hakimiyyətdə oturanlar elə düşünməsinlər ki, Türklərə və Elçibəyə qarşı etdiklərinin üstündən xəbərsiz-ətərsiz keçiləcək. Qarabağın göbəyində oturmuş ermənilərdən də cavab tələb etməyə zamanımız olacaq. Eyni zamanda bütün separatçı və Türk düşməni qüvvələr də cavab kürsüsündə yerlərini alacaqlar. Biz Türklər Azərbaycanda hakimiyyət sahibi olanda bu məmləkəti hamının sevdiyi, hamının mutlu yaşadığı və hamının birlikdə qorunmasına cavabdehlik daşıdığı bir məmləkətə çevirəcəyik.

Biz böyük bir Türk milliyətçisinin məktəbində yetişmişik. Öz millətimizi sevdiyimiz kimi, başqa millətlərə də sevgi ilə yanaşmağı öyrənmişik. Biz anlamışıq ki, bu dövlətdə çoxluğu təşkil edən millət hakimiyyətdə söz sahibi olmalıdır ki, azlığı təşkil edənlərin də haqlarının qorunması mümkün olsun. Demokratiyanın da təməl

qanunu budur. Təsəvvür edin, tutaq ki, Gürcüstan dövləti Borçalı türklərinin bütün haqlarının qorumasına təminat verdi. Ancaq bütövlükdə gürcülər bizimlə düşmənçilik kursunu millət olaraq davam etdirdilər. O zaman hansı vəziyyət yaranar? Deməк dövlət təminatından öncə çoxluğu təşkil edən millətin bu kursu qəbul etməsi lazımdır. İndiyə qədər əslində aramızda elə bir problem yaranmayıb, ümid edirik ki, bundan sonra da xoşagəlməz hallar yaşanmayacaq. Bunun üçün çəkilib bir köşədə xımır-xımır türk düşmənçiliyi aparmaq yerinə, hər şeyi səmimi şəkildə öz adı ilə söyləməyi bacamaq lazımdır. Sizin qatı Türk milliyətçisi kimi tanıdığınız Elçibəy talış, tat, udin, kürd dilində dərsliklər buraxdırdı, bütün azsaylı xalqlara və etnik qruplara öz milli mədəniyyətlərini inkişaf etdirmək üçün geniş hüquqlar verən fərman imzaladı, televiziyada və radioda həmin xalqların dilində verilişlər verilməsinə imkan tanıdı, onların dilində çıxan qəzetlərə dövlət yardımı ayırdı. Bu bütün bədxahlar üçün əslində bir jest idi. Yəni Elçibəy demək istədi ki, mən bir Türk milliyətçisiyəm, eyni zamanda bütün insanlığa sevgim və hörmətim var, başqa xalqların da hüquqlarını qorumağın məsuliyyətini daşıyıram. Kosmopolit bir rejimdə səkkiz ildir bu haqlardan daha böyüyünü ala bildinizmi? Bizim Elçibəy məktəbində öyrəndiyimiz bu dürüstlük və bu dəyərlərdir. Bəs nədən belə vicdansızcasına rahatlıqla Elçibəyi söyürsünüz? Çünki siz buna Türkü söymənin ən uyğun forması kimi baxırsınız. Elçibəyi söyənlər arxada Rəsulzadəni də, Mirzə Cəlili də, Üzeyir bəyi də söyürlər. Elçibəyə «qaçdı», «fərarilik etdi» deyənlər eyni zamanda pıçıltı ilə Rəsulzadəyə də eyni sözü deyirlər. Ancaq Rəsulzadənin də, Elçibəyin də qurduğu dövlət sizlərin satqınçılığı nəticəsində türk düşmənlərinin əlinə keçdi. Beləsə, hakimiyyətdə də sizin kimi düşünənlərdirsə, nədən narazısınız? «Tanrı türkü qorusun» deyəndə niyə bizə cırmaq atırsınız, zavallı pişik balaları! Bəlkə indi də dualarımıza qarışasınız. Siz də kimi dədəniz, babanız sayırsınız, onun qorunmasını tanrınızdan rica edin. Dədənizdən, babanızdan, soyunuzdan və boyunuzdan utanırsınızsa, heç olmazsa dilinizi gödək edin.

Cənab Türk professor, müəllim, məmur, iş adamı, arxalı, yetim, cəbhəçi, YAPçı! Cənab özünü qarabağlı, bakılı, naxçıvanlı,

ermənistanlı, gəncəli, lənkəranlı, şirvanlı kimi tanımaqdan bezikməmiş Türk qardaşım-bacım! Eyninizə deyilmi bu söyüşlər? Demirəm cavab verin. Sadəcə ağlınızı, pulunuzu, imkanlarınızı Türkün təşkilatlanmasına yönəldin. Bu millətin tək bir çıxış yolu Türklük davasının uğurundadır. Qarabağın azad olunması üçün də hamının eyni yanğı ilə qarabağlı olması üçün də bir birləşdirici vasitə var. O da Türklükdür. Azərbaycanın şiəlik, sünnülük, təbrizlilik, bakılılıq bölgüsündən qurtularaq bütövləşməsi üçün də bir vasitə var-Türklük. Və öz davanızın adını da başqa yabançı kəlimələrlə pərdələməyin. Bir-birinizə azacıq inansanız, görəcəksiniz ki, çoxsunuz, böyüksünüz, yenilməzsiniz! Ən başlıcası da tək deyilsiniz! Güney Azərbaycan, Anadolu, Orta Asiya var! Və sizli də-sizsiz də bu böyük davanı aparan tanıdığınız, tanımadığınız milyonlar var!

Türk Türkü qorusa, Tanrı Türkü qoruyacaq! Tanrı hər kəsin millətini qorusun!

## TÜRKLÜK BAYRAMI - DÜNYA TÜRKLƏRININ BIRLIK VƏ BÜTÖVLÜK BAYRAMIDIR

Türklük Bayramı - Azərbaycan türklərinin öz milli və siyasi haqları uğrunda mübarizəsinin yaddaş günüdür. Bu bayram ilk dəfə olaraq Azərbaycanda, həm də Azərbaycan türkləri üçün əziz bir gündə qeyd olunur. 24 iyun Azərbaycan türklərinin milli azadlıq hərəkatının öndəri, Azərbaycanda Türklük davasının lideri Əbülfəz Elçibəyin doğum günüdür. Məhz bu gündə belə bir bayramın qeyd olunması Azərbaycan türklərinin öz milli liderlərinə bir vəfa borcunu yerinə yetirməyi ilə  yanaşı, həm də Elçibəyin ideya-siyasi irsinin yaşatmaq niyyətinin ciddi bir göstəricisidir. Elçibəyin ömrünün sonuna qədər rəhbərlik etdiyi AXCP bu gün də Türklük davasının, dünya Türklərinin birlik və bütövlüyü uğrunda mübarizənin öncül təşkilatlarından biridir və bu təşəbbüsün məhz AXCP tərəfindən irəli sürülməsi Elçibəyin yadigarı olan bu təşkilatın öz ideya xəttinə sadiqliyini bir daha təsdiq edir. Yaxın gələcəkdə Azərbaycan türklərinin milli hakimiyyətinin qurulması ilə bu bayramın rəsmi dövlət bayramı statusu alacağı və ardınca bütün dünya türklərinin ən dəyərli birlik və bütövlük gününə çevriləcəyi bizlərdə qətiyyən şübhə doğurmur.

Bu məruzədə Türklük Bayramının mahiyyəti, onun qeyd olunma zərurəti, bu bayramın böyük öndər Əbülfəz Elçibəyin doğum günü ilə əlaqələndirilməsinin səbəbləri və Türklük davasının yaxın və uzaq hədəfləri haqqında fikirlər öz əksini tapacaqdır. Türklük Bayramının mahiyyətini araşdırarkən aşağıdakı məsələlər üzərində dayanılması məqsədəuyğun sayılmalıdır:

-Türklük dünyagörüşünün tarixi inkişafı və Siyasi Türklük hərəkatının meydana çıxması;

-Türklük ideologiyasının çağdaş Türk dövlətlərinin təşəkkülündə rolu;

-Müasir Azərbaycan cəmiyyətində Türklüyün ideoloji əsaslarının yaradılmasında Ə.Elçibəyin rolu;

-Türklük Bayramının mənası və əhəmiyyəti.

Uzun əsrlərdir ki, Türk adı ilə tanınan böyük bir millət tarix səhnəsində enişli-yüksəlişli bir cizgi ortaya qoymaqdadır. Müxtəlif coğrafi məkanlar, antropoloji quruluşlar, siyasi sistemlər, dini-fəlsəfi baxışlar və bir-birindən fərqli adlar altında bir soydan gələn, bir milli kimliyi ifadə edən Türk ulusunun  varlığı tarix boyu geniş müzakirə mövzusu olmuşdur. Bu qövm bir ad altında vahid siyasi sistem yarada bilməsə də, Türk dili vasitəsi ilə mənəvi bağları qoruya bilmiş, bununla da ortaq Türk mədəniyyətinin formalaşması mümkün olmuşdur. Tarixin bütün dövrlərində Türklər öz qəhrəmanlığı, dövlətçilik təfəkkürü, sağlam iman anlayışı ilə seçilməklə birgə, milli kimliklərinə və törələrinə bağlılıqları ilə də tanınmışlar. Siyasi mənada Türklüyün fikir sistemi XİX əsrin sonlarında sürətlə formalaşmağa başlamış, qısa bir müddətdə ciddi bir hərəkata çevrilmişdir. Əslində XİX əsrin sonlarında meydana çıxan Türklük və ya Pan-Türkizm adlanan hərəkatın məqsədi Türk topluluqlarına etnik  kimliklərini tanıtma, aralarında birlik və həmrəyliyə yönələn müştərək ruh və anlayış yaratmaq idi. Sonrakı dövrdə, xüsusilə Rusiyanın müstəmləkəsi altında yaşayan Türklərin müstəqil dövlətlər qurmaq uğrunda mübarizəyə başlaması bu hədəfi daha da genişləndirmişdir. Qeyd etmək lazımdır ki, Türklük idologiyasından uzaqlaşmış olan Osmanlı İmperiyasında Türklük hərəkatının başlanmasına da Rusiyada yaşayan türklərin fəaliyyətinin böyük təsiri olmuşdur.

Tarix boyu Türklər özlərinin yaratdıqları qaydalar üzrə yaşamış və onlara təzyiq göstərənlərə qarşı həm fiziki, həm də mənəvi müqavimət göstərə bilmişlər. Avropanın dirçəlişinə qədər Türklər ən güclü siyasi mərkəzlər yaratmış, sonra da Avropanın müəyyənləşdirdiyi qaydaların içində əvvəlki qüdrətini itirərək dünyanın Rusiya, Çin və İran kimi üç böyük imperiyasının əsarəti altında qalmağa məhkum olmuşlar. Ancaq bir cəhət sevindiricidir ki, ötən əsrin təlatümlərindən Türklər qədər çox sayda və geniş coğrafiyada dövlətlər yaradan ikinci bir millətə rast gəlinmir. Bu Avropanın müəyyənləşdirdiyi qaydalar çərçivəsində Türklərin yenidən dirçəlişinin bir göstəricisi də sayıla bilər. Böyük Türk həmrəyliyinə nail olunması üçün bütün Türk dövlət və topluluqlarında Türklük fikrininin inkişafı, ciddi bir mədəni və siyasi

aksiyaya çevrilməsi zərurəti məhz ortaya çıxan bu tablodan irəli gəlməkdədir.

Tarix şüurumuzla müasir düşüncəmiz arasında əlaqə qurulması üçün hər şeydən öncə soy kökümüz haqqında müştərək qənaətlərə sahib olmalıyıq. Alman filosofu Fixte alman millətinə 5-ci nitqində belə deyirdi: «Danışan şəxslər bir insanda bir tamı təşkil edərlər ki, təbiət bu tamı əvvəlcə gizli və qırılmaz bağlarla birləşdirmişdir. Belə bir tam öz sinəsində digər bir mənşədən, digər bir dillə danışan bir qövmü nə qəbul edər, nə də belə bir qövmlə qarışmağı arzu edər.» Bu ortaq qənaətlərdə bir-biri ilə uzlaşan nöqtə cəmiyyət üzvlərinin ortaq ideallarının formalaşmasını asanlaşdırmaqdır. İngiltərəli sosioloq A. Smitin də qeyd etdiyi kimi, soy kökü olmadan etnilərin həyatda qalması çox çətindir. «Paylaşılan tarixi anlar» deyilən anlayış da mif şəklində təqdim olunur. Azərbaycan türklərinin də bu soy anlayışı bütün türklərin istinad etdiyi mənbə olmalıdır. Bu həm də gələcəyimizin müəyyən olunması üçün də enerji mənbəyi rolunu oynayır. Sadəcə soy kökünü anlamaq, kim olduğumuz mövzusunda düşünmək deyil, o kimlikdən günümüzə nələrin daşınmasının zəruri olduğunu düşünməymiz deməkdir.

Bu idealın nə olduğunu anlamaq üçün tarixdə bir neçə epizoda diqqət yetirmək kifayətdir. M.Qaşqarlının dünyanın kürə şəkilli xəritəsini tərtib etməsinin (1070) və dünyanın mərkəzinin Məkkədən Qaşqara köçürməsinin və ya Kutadqu Biliğin başdan sona qədər Türk dövlət idealını əks etdirməsinin mahiyyətinə ciddi diqqət yetirmək gərəkdir. Yaxud Teymurla Bayazidin məktublaşmasında onların bir-birinə qarşı sərt üslublarını bir tərəfə qoyub, hər ikisinin «kafirlərə qarşı savaş düşüncəsində ortaq olduqları» cəhəti üzərində düşünməliyik. Əslində biri o birinin «kəlbi-əqur» sözünü deyil, mövcud olan ümumtürk idealından sapmasını bağışlaya bilmədiyini görməli və anlamalıyıq.

Türk tarixçisi Osman Turan haqlı olaraq «Türklərin, Allahın cahan hakimiyyətini onlara əmanət etdiyinə inandığını və bu əmanətə saygı göstərdikləri üçün də bir xanədan, bir sinif və zümrənin və ya sadəcə bir millətin deyil, tabeçilikləri altında olan bütün qövm və dinlərin himayəçisi olduqlarını düşündüklərini» qeyd etmişdir. Bu

səbəblə də Türk imperiyalarında millət, din və sinif təzad və mübarizələrinə rast gəlinməmiş, onların hakimiyyəti hüdutlarında ədalət və ahəng hökm sürmüşdür.

Türklük düşüncəsi Türk superetnosunun mövcud olduğu bütün dövrlərdə Türk öndərlərinin və toplumlarının həyatında aparıcı mövqedə olmuşdur. Çin imperiyasına qarşı mübarizə aparan Mete ilə bağlı əhvalatlarda, Roma imperiyasını diz çökdürən Attillanın siyasət anlayışında, müstəqil Türk dövləti yaratmaq uğrunda ardıcıl mübarizə aparan Göytürklərdə, onların siyasi liderləri olan Bilgə xaqanın və vəzir Tonyuqukun xalqa müraciətlərində, Karamanoğlu Məhəmmədin türk dilinin ali statusu uğrunda mübarizəsində, Teymurun kafirlərə qarşı savaşında, Əlişir Nəvainin türk birliyi ilə bağlı mesajlarında, Osmanlı Sultanlarının Vyana qapılarına qədər genişlənən qəhrəmanlıq savaşlarında Türklük düşüncəsinin əsas stimulverici güc olduğunu görmək mümkündür.

XVII əsrdən Avropada sənaye inqilabının başlaması və yeni dünya düzəninin yaranması ilə tədricən Türk superetnosu əldə etdiyi aparıcı mövqeləri itirməyə başladı. Türklərin Avropaya doğru irəliləyişinin tədricən qarşısı alındı. Asiyada yaşayan türklər isə tədricən Rusiya İran və Çin imperiyalarının əsarəti altına düşərək öz müstəqilliklərini bu və ya digər dərəcədə itirməyə məhkum oldular. Artıq XIX əsrin 30-cu illərində Osmanlı imperiyasınnın xristian dünyası qarşısında məğlubiyyətini ifadə edən Tənzimat siyasətinin həyata keçirilməsi ilə dünyada Türk hegemonluğunun yekun prosesi başladı. Bu əsr müddətində Azərbaycan türklərinin yaşadığı ərazi Rusiya və İran arasında bölüşdürüldü, Türküstan Rusiyanın müstəmləkəsinə çevrildi. Osmanlı İmperiyası isə Asiya, Afrika və Avropadakı ərazilərini bir-birinin ardınca itirməyə başladı. Məhz belə bir tarixi şəraitdə Qərb dünyasının gətirdiyi yeni birgəyaşayış prinsipləri çərçivəsində Türklük hərəkatının yeni forma və məzmunda meydana çıxması zərurətini yaratdı. Ancaq bu hərəkata ən güclü siyasi dəstək verə biləcək tək bir ölkə yenə də Osmanlı imperiyası olduğu halda, onun da imperiya təbiətinə uyğun olaraq Türklük siyasəti yeritmək imkanları və niyyəti demək olar ki, imkansız sayılırdı. Uzun illər müxtəlif dindən və etnosdan olan

əhalini bir dövlətin tabeliyində saxlamaq üçün tətbiq olunan Osmanlıçılıq və İslamçılıq siyasəti XIX əsrdə ərəblərin və bir çox xristian ünsürlərin ingilislərlə və Ruslarla birləşərək Osmanlı hakimiyyətinə qarşı mübarizəyə qalxması ilə siyasi türklük hərəkatının meydana çıxmasına münbit şərait yaradırdı. Həmin dövrlərdə yuxarıdan bu islahatların həyata keçirilməsinin gecikməsi nəticəsində, əsasən Türklük düşüncəsinin Rusiya əsarətində yaşayan Türklər arasında daha sistemli şəkildə yayılması mümkün oldu. Sonralar da göründüyü kimi Osmanlı imperiyasına da siyasi türklük hərəkatı məhz Rusiyadan gələn türklər tərəfindən transfer edildi.

1838-ci ildə Osmanlı imperiyasında Avropaya yaxınlaşmaq üçün həyata keçirilən Tənzimat adlanan islahatlar da Türklük hərəkatının inkişafına çox ciddi təsir göstərməmişdir. İstər Tənzimatçılar, istər Yeni Osmanlıçılar Osmanlıçılıq siyasətinin ardıcıl təbliğatçıları olmuş, zümrənin adı «Gənc Türklər» olduğu halda Türkcə özlərinə «Yeni Osmanlılar» adını vermələri də bununla bağlı olmuşdur. Maraqlıdır ki, Tənzimat dövrəsində Türk, Türklük, Türk miləti, Türk milliyəti kimi ifadələrə də rast gəlinmir. Yalnız Türklüyə qarşı Panislavist cərəyanların açıq hücumları gücləndiyi və hərbi və diplomatik sahədə bir-birinin ardınca gələn məğlubiyyətlərdən sonra bu problem ciddi şəkildə türk aydınlarını düşündürməyə başlamışdır.

Türk tarixçisi İ.H.Danışməndin təsnifatı üzrə götürsək Türklüyün dil, irq və mədəniyyət bölgüsü ilə müəyyən olunan üç dairəsində XİX əsrdə müxtəlif siyasi sistemlərin mövcudluğuna baxmayaraq Türklük hərəkatı əvvəlcə elmi və ədəbi xarakterdə olmuş, yalnız XX əsrin başlarında siyasi xarakter almağa başlamışdır. Türk tədqiqatçısı N.Nəsibzadənin də qeyd etdiyi kimi; uzun dövr ərzində Türklük: milli tarixin araşdırılması və bu biliklərin yayılması; milli şuurun yüksəldilməsi; milli mədəniyətin inkişafı; təhsil sisteminin milliləşdirilməsi; «türk dili» və «türk milləti» adlarının rəsmiləşdirilməsi; milli dilin təmizlənməsi və inkişafı; milli dilin dövlət dili səviyyəsinə yüksəldilməsi və onun funksional dairəsinin müvafiq şəkildə genişləndirilməsi; türk dövləti və xalqları arasında sıx əlaqələrin yaranması; türk xalqlarının vahid əlifbasının qəbulu; ümumtürk ədəbi dilinin yaranması və s. uğrunda hərəkat olmuşdur.

Elmi və ədəbi sferada Türklüyün inkişaf prosesinə Rusiya və Osmanlı siyasi sistemləri çərçivəsində xronoloji yanaşsaq nə qədər böyük məsafə qət edildiyini bir daha təsdiqləmək mümkündür. Böyük türkoloq Mirzə Kazım bəy Azərbaycan türk ləhcəsini əsas götürərək müqayisəli Türk dili qramatikası hazırlamışdı. «Ümumi Türk-Tatar Qramatikası» adlanan bu əsər elmi türklüyün əsas istinad mənbələrindən birinə çevrilmişdir.

İlk dəfə Əhməd Vəfiq Paşa türkcəni osmanlıcadan ayırmışdır. Əli Suavi isə öz məqalələrində türklüyü və türkcə yazmağı ardıcıl müdafiə etmişdir.

1869-da Mustafa Cəlaləddin Paşa (polyak zadəganı Konstantin Borzetski Türk ordusunun zabiti kimi bu adla tanınırdı) «Qədim və yeni Türklər» əsərini fransızca çap etdirərək burada Türklük tarixindən fransız, alman, rus və poyak qaynaqlarına dayanaraq bəhs etmiş və türklərin ümumi tarixdə xüsusi əhəmiyyətləri, insanlığın mədəni yüksəlişində çox böyük təsirləri olduğu sübuta yetirməyə çalışmışdır. Müəllif türklərin «Turko-Ariyen» adını verdiyi irqə aid olduğunu, bununla da  avropalılarla eyni kökə bağlandıqlarını iddia edərək onları yaxınlaşdırmağı hədəf götürmüşdü. Bu Türklük problemi ilə bağlı Osmanlı türkləri arasında yazılan ilk elmi əsər olmuşdur. Bu əsərdə ilk dəfə türk irqinin güc və genişliyinə, türklərin insanlıq tarixində oynadığı  böyük rola, Türk dilinin digər dillərdən yardıma möhtac olmayacaq dərəcədə zənginliyinə, Türk dilinin başqa dillər üzərində təsirlərinə, Asiya və Avropada geniş bir sahəyə yayılmış olan Türklərin münasibətlərinə, Osmanlı dövləti daxilində Türklük fikrinə dəyər verilməsindən yaranan problemlərə, müsəlman olmayan Osmanlı təbəəsinin irq və dil bağlarıyla Türklərə bağlanması zəruriliyinə dair görüşlərinə rast gəlinir. Yəni Türklük; dil, tarix və siyasət baxımından kompleks şəkildə bu kitabda araşdırılmışdır.

Komediyalarını Azərbaycan türkcəsində yazan M.F. Axundov da dildə Türklüyü inkişaf etdirmişdir.

Osmanlı Türkləri arasında Türklük fəaliyyətinin 1865-1870-ci illərə təsadüf edən ilk dövründə Şinasi «Atalar Sözü» kitabını tərtib edərək Türk dilini yad kəlimələrdən təmizləməyə çalışmışdı.

Türklük fəaliyyətlərinin ikinci dövrəsi hesab olunan 1876-1880 illərdə Süleyman Paşa «İlmihal və Tarix-i Aləm» dərs kitabı ilə dil və təhsil sahəsində Türklük fikrini təbliğ etmişdir. Buxaralı Şeyx Süleyman əfəndi «Luğat-i Cağatay və Türki-i Osmanı» adıyla çıxan kitabına yazdığı ön sözdə Türk dilinin böyüklüyündən bəhs etmişdir. Əhməd Midhəd Əfəndi məqalələrində pedaqogika, dil, tarix, ilahiyyat və siyasət sahələrində türklük fikrini təbliğ etmişdir. Əhməd Cövdət Paşa Osmanlı imperiyası içində çoxluğu təşkil edən türklərin ayrı bir millət kimi təşkilatlanmalarını həyata keçirmək və tamamlamaq ehtiyacının hansı iqtisadi, sosial və siyasi şərtlərin diqtəsi nəticəsində meydana gəlməsini əsaslandırmağa çalışmışdır.

1875-də H.Zərdabi tərəfindən nəşr olunan Rusiyada ilk türkcə qəzet olan «Əkinçi»nin 1977-ci ildə 14-cü nömrəsində Türk dillərinin birləşdirilməsini nəzərdə tutan bir məqalə yazılmışdı. Bunun ardınca Krım türklərindən İ.Qaspiralının 1883-cü ildə nəşr etdiyi «Tərcüman» qəzeti ilə Türklük ideologiyası tarixində ən mühüm bir mərhələnin başlanğıcı qoymuşdur. Qaspiralı «Rusiya müsəlmanlığı» məqalələr toplusunda yazırdı: «Asiya və Avropanın bir qismində yerləşən böyük bir millət, Türk-Tatar milləti var. Bu millət parça-parça, dağınıq, zəif; bu millət digər millətlərlə müqayisədə elm və mərifətcə, sərvət və mədəniyyətcə çox geridə qalmış; belə davam edərsə həyat qaydalarının təbii qanunlarına uyğun olaraq məhv olacaq.» Maraqlıdır ki, eyni fikri Zərdabi bir neçə il öncə; türklərin bu gedişlə «başqa millətlərə yem olacağı» şəklində xəbərdarlıqla ifadə etmişdi. «Türk-Tatar millətini məhvdən qurtarmaq üçün nə etməli?» sualına cavab axtaranlar Türk Birliyi ideyasını ilk dəfə sistemli şəkildə irəli sürən Qaspiralı «Dildə, fikirdə, işdə birlik» şüarı ilə siyasi Türklüyün dəyişməz formulunu kəşf etmiş oldu.

Qazan Türklərindən Şahabəddin Mərcani «Kitab-i Müstəfadül-ahbar, fi Ahval-i Qazan» adlı əsərində Qazan tarixini Qazan türkcəsi ilə yazmışdır.Burada Mərcani ritorik sual qoyurdu: «Bəziləri Tatar

olmağı ayıb sayıb, o addan nifrət edib, biz Tatar deyil, müsəlmanıq deyə çəkişir və mübarizə aparırlar. Ey miskin! Deyək ki, sənin müsəlmandan başqa adını dininin və millətinin düşmənləri bilməsəydi, əlbəttə səni müsəlman deyə ayırardı. Tatar olmazsan; o zaman ərəb və tacik deyil, çin və rus, və ya firəng və prus, alman deyilsən, indi kimsən?»

Bunun ardınca bütün islam aləminin yaşaya bilməsinin əsas şərtini müsəlman millətlərinin milli şüura sahib olmalarında görən böyük mütəfəkkir Şeyx Cəmaləddin Əfqani, bununla türklərin yaşadığı arealda milliyət fikrini inkişaf etdirmişdir. O müsəlman qövmlərinə-fars, ərəb və ya türk olsun, irqə, milliyətə önəm vermələrini tövsiyyə etmişdir. Onun «Makalat-ı Cəmaliyyə» əsərinə daxil olan Vəhdət-i Cinsiyyə fəlsəfəsi və İttihad-ı Lisanın Mahiyyət-i Hakiki-yəsi» adlı məqaləsinin ana tezisi budur: «Cinsiyət- yəni Milliyət xaricində səadət yoxdur; dilsiz cəmiyyət ola bilməz, bütün sosial təbəqələr və siniflərin ifadə və istifadəsini təmin etməyincə də bir dil meydana gəlməz». İnsanları bir-birinə bağlayan iki əsas bağ var. Dil və ya irq birliyi və Din birliyi. İrq birliyi din birliyindən daha davamlıdır. Çünki qısa bir zamanda dəyişməz. Millətdər əsrlər boyu iki-üç dəfə din dəyişdərsələr də dil dəyişdirmirlər.»

Türklüyün üçüncü fəal dövründə (1897-1900) Şəmsəddin Sami bəyin «Kamus-ı Türki», Nəcib Asim Bəyin Leon Kahunun «Asiya tarixinə giriş» əsərini tərcümə etməsi, Məhməd Əmin Yurdaqulun:

«Ən gözəl üz bizə çirkin, biz sevəriz: Türk yüzü.
Ən iti öz bizə fəna, biz istəriz: Türk özü.
Millətimiz alqışlarız, anıldıqca «Türk» sözü.

Biz Türkləriz, biz bu kanla, biz bu adla yaşarız!» məzmunlu şerləri bu dövrün ən parlaq nümunələrindən sayıla bilər.

Məhz bu elmi-ədəbi Türklük hərəkatının ardınca labüd olaraq siyasi hərəkatın nəzəri təməlləri qoyulmalıydı. Bu işin öncüllüyünü isə Qazan türklərindən Yusif Akçura gerçəkləşdirmiş oldu. Y.Akçura kökü tarixin dərinliklərinə qədər uzanan Türklük fikrinə ilk dəfə siyasi mahiyyət qazandıran fikir adamı hesab olunur. Onun 1904-cü ildə Qahirədə nəşr olunan «Türk» qəzetində çıxan «Üç Tarzı-

Siyasət» məqaləsində ilk dəfə Osmanlı hökumətinin apardığı siyasətin Osmanlıçılıq, İslamçılıq və Türklük ola biləcəyi açıq şəkildə ifadə olunmuşdur. Burada Türklük siyasəti haqqında deyilirdi ki; irqə əsaslanan bir Türklük siyasəti meydana gətirmək yeni addımdır. Nə indiyə qədər Osmanlıda, nə də digər Türk dövlətlərinin heç birində bu fikir mövcud olmamışdır. Həm Osmanlı, həm də İslam birliyi siyasəti uğursuzluqla nəticələnmişdir. Osmanlı imperiyasının XX əsrə qədər həyata keçirdiyi Osmanlıçılıq və İslamçılıq siyasətinin həyati əhəmiyyətini itirdiyini görən Akçura, Türklük siyasətinin sırf islamçılıq siyasəti kimi olduğunu vurğulayaraq, Osmanlı hüdutlarından kənarda yaşayan türklərlə maraqlanmanın sabit siyasətə çevrilməsini təlqin etmişdir. Yer üzündə din və milliyət fikirlərinin ən ciddi təsiredici gücə malik olduğu nəzərə alınarsa, XIX əsrdə dünya mədəniyyət tarixində ən çox təsir göstərən amilin milliyyət fikri olduğunu vurğulayan Akçura, Türklüyün uğur qazanması üçün maddi bir təməl üzərində möhkəmlənməsini əsas şərtlərdən biri hesab edərək insanlığın həyatında maddi ehtiyacın böyük önəm daşıdığını, milliyətin arzuya bağlı deyil, təbii durum olduğunu, qandan və nəsildən gəldiyini bildirirdi: «Bu bir həqiqətdir ki, XİX əsrdə Avropa tarix və coğrafiyasını alt-yst edən milliyyət fikri irq ilə təfsir olunan milliyətdir.» Bununla belə Türklüyün çağdaş dünya düzənində yalnız demokratik fikir hərəkatı kimi uğur qazana biləcəyini də xüsusi olaraq vurğulamışdır: «Mən daim demokratik Türklüyü müdafiə etdim. Biz demokratik Türklük davaçıları tam xalqçı, insani və işğal düşüncəsindən uzaq fikirlərimizi anlatmağa çalışmalıyıq.» deyən Akçura, dövrümüzdə milliyyət fikrinin əsas mahiyyətinin bir millət meydana gətirmiş insan topluluqlarının müstəqil bir dövlət şəklində təşkilatlanaraq yaşamaq haqqına sahib olmaları düşüncəsinə xüsusi diqqət yetirmişdir. Akçura; təşkilatlanma və quruluş halında olan hər millətə mövcud şərtlərə və hədəf alınan məqsədə görə tərif verilməsinin zəruriliyini vurğulayaraq almanların və slavyanların irq və dili, yəni tarixi məcburiyyəti, fransızların arzu və iradəni, yəni fərdi azadlığı, italyanların ərazi və dili, yəni coğrafi və tarixi məcburiyyəti millət olaraq meydana gəlmələrinin əsas şərti olduğunu

göstərərək, Türklərin də irq və dil amilinə görə bir milləti təşkil edə biləcəklərini qeyd etmişdir.

Maraqlı cəhət burasındadır ki, Osmanlıçılıq siyasəti ilə qeyri-Türklər və qeyri müsəlmanlar İslamçılıq siyasəti ilə də qeyri türk müsəlmanlar imperiyaya bağlandığından ilk və ikinci dövrə Tükçülər də bu siyasətdən əl çəkə bilməmişdilər. Onlar Osmanlıçılıq və İslamçılığa xüsusi əhəmiyyət verməkdəydilər. Bu dövrlərdə siyasi Türklük Osmanlıçılıq və İslamçılıqla qarışmış durumda olmuşdur.

Siyasi Türklük hərəkatının öncüllərindən biri də Qazan Türklərindən olan Orenburq Ruhani kurulu Qazısı Abdurrəşid İbrahimov olmuşdur. 1904-cü ilə Rusiyadan çıxarılıb, sonradan geri dönən bu imkanlı şəxs Türk birliyi idealının dönməz təbliğatçısı olmuşdur. Bu hərəkata maddi dəstək verən Kazan türklərindən Əhməd bəy Hüsinov, Başqırd Türklərindən Tevkelev və Sırtlanov, Krımda Davidoviç, Trayskdə sənayeçi Vəli bəy Vavişev və Abdulla Rəhmanqulov, Orenburqda vəkil Seyyid Giray Alkın, Bakıda Əli Mərdan Topçubaşı, Hacı Zeynalabdin Tağıyev Rusiya türklərindəki milli oyanış hərəkatının öncüllərindən olmuşlar. XX əsrin əvvəllərində neft sənayesinin inkişaf etdiyi Bakı türklük və müsəlman ideologiyasının siyasi fikir mərkəzinə çevrilmişdi. M. Nağıyev, H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Muxtarov və digər neft milyonçularının meydana çıxması milli hərəkatın sosial-iqtisadi bazasının möhkəmləndirilməsində əhəmiyətli hadisə oldu. Ə. Topçubaşı, Ə.Ağayev və Ə.Hüseynzadənin Bakıdakı fəaliyyətləri Azərbaycanda və Rusiya miqyasında türklük məfkurəsinin formalaşmasında mühüm rol oynadı. Türk millətçiliyinin dönməz xarakter alması da məhz bu insanların böyük fədakarlıqlarının nəticəsi idi. Ə.Hüseynzadə Azərbaycanda dil və ədəbiyyat sahəsində deyil, hətta siyasətin nəzəri problemlərində də mərkəz Osmanlı dövləti olmaq üzrə Türklük, hətta Panturançı fikir cərəyanlarına ilk açıqlıq gətirən şəxsiyyətdir. «Türk» qəzetində «Üç tarzı- siyasət»ə cavab yazan Ə.Hüseynzadə «Məktub-i Məxsusə» adlı məqaləsi ilə Türklük tarixində xüsusi bir yerə sahibdir. «Türklər kimdir və Kimlərdən ibarətdir» adlı məqaləsində isə bu cümlələr yer alırdı: « Tariximizdə və keçmişimizdə millətimiz haqqında həqiqəti meydana

çıxarmaq üçün əvvəl özümüzü tanımalıyıq. Yəni Türklərin kim olduqlarını və kimlərdən ibarət olduqlarını, haradan gəldiklərini, neçə şöbəyə ayrıldıqlarını, bu gün harada yerləşdiklərini və hansı adlar altında yaşadıqlarını bilməliyik. İçimizdə özbəklərin, qırğızların, başqurdların türk olduqlarını bilməyənlər vardır. Türklüklə iftixar etdikləri halda Türkün kim və kimlərdən ibarət olduğunu birməyən nə qədər mühərrirlərimiz var.» Bunun ardınca ilk dəfə «Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq» siyasi şüarı da Ə.Hüseynzadə tərəfindən irəli sürülmüşdür. Bu şüarı 1911-1918-ci illərdə Ziya Gökalp «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» şəklində inkişaf etdirmişdir.

Türklük məfkurəsinin digər böyük simalarından olan Əhməd Bəy Ağayev isə 1905-ci ildə «Kaspi» qəzetində yazırdı: «Bütün bu toplum, yalnız dini bir toplum olmayıb eyni zamanda etnik bir varlıqdır. Çünki bütün Rusiya müsəlmanları çox az bir istisna ilə böyük Türk-Tatar irqinə mənsubdurlar, bir tək ümumi dillə danışırlar və eyni dini inancları daşıyırlar.» Məhz bu kimi fikirlərin təlqin olunmasına görə Türklük fikrinin ideoloqları arasında Əli bəy və Əhməd bəyin adları xüsusi mövqe qazanmışdır.

1906-1907-ci illərdən demək olar ki, Quzey türklərinin ümumi durumunda Azəri, Tatar, Başqurd, Qazax, Özbək kimi qəbiləvi fərqlər azalaraq milli birlik fikrinə dayanan ciddi bir milli şüur meydana gəlməyə başlamışdır. 1905-1907ci illər hərəkatları görünüşdə Rusiya müsəlmanları adı altında həyata keçirilmişdisə də, əsl həqiqətdə bir milli hərəkat olmuşdur.

Türklük fikrinin müdafiəsində və təbliğində üç partiya xüsusi rol oynamışdır. Bunlar Ə.Ağayevin təşəbbüsü ilə yaranan «Difai» (1905), «Rusiya Müsəlmanları İttifaqı» (1906) və «Türk Adəmi mərkəziyyət Müsavat» partiyaları (1911) olmuşdur. Türklüyün təşkilatlanmış formada təqdimatında 12 mart 1912-ci ildə təsis olunan «Türk Ocağı»nın və «Türk Yurdu» məcmuəsinin də müstəsna yeri olmuşdur.

Azərbaycanda siyasi türklüyün təbliğində əsas ağırlığı M.Ə.Rəsulzadənin nəşr etdiyi «Açıq söz» qəzeti öz üzərinə

götürmüşdü. Rəsulzadə İstanbuldan dönüşdən sonra Türklük fikrini Müsavat partiyasının ideologiyasına çevirmiş, 1915-ci ildə çıxan «Açıq söz» qəzetində yazdığı məqalələrdə bu xətti açıqca ortaya qoymuşdur.

«Müsavat»ın 1917-ci ildə toplanan I konqresində Türklük-Milliyətçilik ülküsü belə izah olunurdu: « Yalnız din birliyi, müasir məna ilə bir millət təşkil etməz. Milliyəti tanıdan müştərək əlamətlərdən başlıcası dil, adət və ədəbiyyatdır. Bu nöqteyi-nəzərdən bütün türklər bir millətdir.» Sonralar bu fikri daha da inkişaf etdirən M.Ə.Rəsulzadə yazırdı ki, millətçilik fikrinə inananların ilk vəzifəsi Milli Birliyi mühafizə etməkdir. Bu, millətçilik fikrinin əsası və təməlidir.

Böyük Türk milliyətçisi M. Rəsulzadə Moskvada Rusiya türklərinin qurultayında çıxış edərkən açıq tekstlə bu sözləri bütün türklərin diqqətinə çatdırırdı: «Biz Türkük və Türklərin oğullarıyıq. Belə olduğumuz üçün qürur duymalıyıq. Biz Türkün mənliyindən bir türk mədəniyyəti yaratmaq istəyirik. Rusiyadakı 30 milyon müsəlmandan 29 milyonun Türk olduğunu unutmamalıyıq. Rusiyadakı Türk xalqı yüz illərdən bəri bölünmüşdür. Ancaq indi sadə bir birləşmək istəyində deyil, eyni zamanda öz milli mövcudiyyətini qəbul etdirmək istəyində olan niyyətini hayqırmaqdadırlar.» Bu fikirlərin ardınca isə Türklüyün hədəflərini proqram xarakterli bir sistemə salmağa çalışırdı: «Bütün türklər öz aralarında böyük dünya federasiyasına görmək üzrə bir federasiya qurmalıdırlar. Yəni Turan, mədəni birlik üzərində təsis edilib, ancaq gələcək Türk hökumətləri federasiyası şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan silsiləsinin mühüm bir halqasıdır.»

Bu dövrdə Türklük fikri yalnız siyasi və elmi xarakter daşıyan yazılarda və çıxışlarda deyil, həm də hərbdə də geniş təbliğat imkanları qazanmışdı. I Dünya savaşında Türk ordusunun oxuduğu marş Türklüyün hədəflərinin aydınladılması baxımından ən gözəl nümunələrdən sayıla bilər:

«Türküz edərik daim iftixar,
Hilkatlə başlar tariximiz var.

Qəlbdərdə türklük eşq ilə çarpar,
Yox bizə başqa yar...
Öndə sancaq, əldə süngü, qəlbdə Tanrı biz,
Dünyaya hakim olmaq istəriz,
Məbədimiz Türk ocağı, qəlbimiz də uca, parlaq Turandır,
Həp ancaq...»

Azərbaycanda bu illərdə C.Cabbarlının, Ü.Hacıbəylinin, Ə.Cavadın əsərləri də Türklük məfkurəsinin təbliğində mühüm rol oynamışdır.

Ziya Gökalpın 1923-cü ildə «Türkçülüyün əsasları» əsərinin meydana çıxması ilə Türklük dünyagörüşünün elmi-nəzəri əsasları haqqında təsəvvürlər daha da genişlənməyə başladı. Bu siyasi Türklüyün proqram xarakterli ilk kitabı da sayıla bilər. Bu əsər M.K.Atatürkün Türklüklə bağlı siyasətinə ciddi şəkildə öz təsirini göstərdi. Təkcə bu əsərlə deyil, şerlərində də Z.Gökalp Türk Birliyi ideyasını ardıcıl təbliğ edirdi. Onun «Bir ordu» şerində bu fikirlər yer alırdı:

«Demə bana Oğuz, Kayı, Osmanlı,
Türküm, bu ad hər ünvandan üstündür.
Yoxdur özbək, noqay, qırğız, qazanlı,
Türk milləti bir bölünməz bütündür.»

Yuxarıda qeyd olunduğu kimi, 1917-ci ildə Rusiyada başlayan hakimiyyət boşluğundan Türklər ciddi şəkildə yararlanmağa başlamış və bir-birinin ardınca müstəqil cumhuriyyətlər qurmuşdular. 1917-ci ildə qurulan Krım-Tatar dövlətinin ilk baş naziri Noman Çələbi Sihan yorulmaz bir Türk milliyyətçisi olmuş və bu yolda şəhid edilmişdir. 1917-ci ildə elan olunmuş Mustafa Tokayın başqanlığındakı Türküstan Özərk Cumhuriyyətinin də əsas qayəsi Türküstanın müstəqilliyini təmin etmək olmuşdur. Eyni ilin sonlarında elan olunan Alaş-Orda Sumhuriyyəti də Qazıx və Qırğız Türklərinin azadlıq uğrunda mücadiləsinin məntiqi yekunu idi. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cumhuriyyətinin aparıcı simaları olan M.Rəsulzadə, N.Yusifbəyli, Ə.Topçubaşi, F.Xoyski, H.Ağayev Türklük dünyagörüşünü mənimsəmiş və bunu müstəqil dövlət

idealına çevirmək üçün illərcə mübarizə aparan insanlar idi. 1917-ci ildə qurulan İdil-Ural dövlətinin ilk cumhurbaşqanı Sədri Maqsudi Arsal Türk tarixinin böyük tədqiqatçısı, 1919-cu ildə qurulan Başqırdıstan Cumhuriyyətinin lideri Zəki Vəlidi Toğan da Türklüyük böyük ideoloqlrından biri kimi ün qazanmışdı. 1920-ci ildə Güney Azərbaycanda qurulan Azadistan dövlətinin banisi Ş.M.Xiyabani də Türklərin əsarətdən qurtarması üçün canını fəda edən şəxsiyyətlərdən biri idi. Bütün bu Türk cumhuriyyətləri Rusiyanın və fars şovinistlərinin işğalı nəticəsində öz varlığını sürdürə bilməmişdir. Bu dövr Türk dünyası və türklük idealı üçün təsəlliverici böyük bir tarixi prosesin başladığını da qeyd etmək lazımdır. Böyük türk öndəri M.K.Atatürkün liderliyində Anadolu Türkləri minlərlə şəhid qanı hesabına dünya Türklərinin göz bəbəyi olan Türkiyə Cumhuriyyətini qurdu və bu günümüzə qədər onu qoruyub saxlamaq mümkün oldu. Bu cümhuriyyətin də nəzəri əsaslarını yaradan Türklük ideyasının ən aparacı simaları idi və Atatürk məhz onların tövsiyyələrini əsas götürərək bu cumhuriyyəti möhkəmləndirə bildi. Bu şəxsiyyətlər içərisində Z.Gökalp, Ə.Hüseynzadə, Ə.Ağayev, M.F.Köprülü kimi nəhənglərin adlarını qeyd etmək lazımdır.

Türk elləri Sovet, Çin və İran imperiyaları arasında bölündükdən sonra da bu ərazilərdə Türklük davası davam etmiş, bu davanın öndərləri qısa müddətə də olsa müəyyən uğurlar qazanmışlar. Xüsusilə də Türküstanda uzun illər davam edən «Basmaçı» hərəkatı Türklərin azadlıq uğrunda nə qədər şərəfli bir yol keçdiyinin ən ciddi sübutudur. Xüsusilə də milli mücadiləni aparan qüvvələrin başında duran Madamin Bəy, Şir Məhəmməd, Yusif Pəhləvan Korbaşı, Nurməhəmməd Bəy və onlarca Türk qəhrəmanı ən çətin şərtlərdə rus işğalçılarına qarşı dəyanətli müqavimət göstərə bilmişdilər. Azərbaycan Türklərinin rus-erməni işğalından qurtarmasında müstəsna rolu olan Ənvər Paşa, Nuru Paşa kimi qəhrəmanların adı da bu mübarizə tarixində müstəsna yer tutur. Xüsusilə də Türküstanın azadlığı uğrunda böyük qəhrəmanlıq göstərən və canını fəda etmiş Ənvər Paşanın Türklük tarixində əvəzsiz xidməti olmuşdur.

Bolşevik Rusiyasında ən ciddi repressiyalara məruz qalan millət də məhz Türklər olmuşdur. Azərbaycanda, Türküstanda,

Tatarıstanda, Başqurtstanda ciddi müqavimətlə rastlaşan bolşevik quldurlar, böyük qanlar bahasına bu ərazilərdə öz hakimiyyətlərini yerləşdirə bilmişlər. Bu prosesdə yüz minlərlə türk övladı qətlə yetirilmiş, Türküstan Özbək, Türkmən Qazax, Qırğız adları ilə müxtəlif siyasi-inzibati vahidlərə çevrilmişlər. Burada bolşeviklərin əsas məqsədi vahid Türk dövləti, Türk siyasi birliyini pozmaq, unutdurmaq olmuşdur.

1945-ci ildə Güney Azərbaycanda S.C.Pişəvərinin liderliyində milli azadlıq hərəkatının qalib gəlməsi, 1947-ci ildə Doğu Türküstanın istiqlaliyyət əldə etməsi qısa bir müddətə də olsa Türklük fikrinin geniş yayılmasına kömək etmişdir. 1974-cü ildə Quzey Kipr Türk Cumhuriyyətinin istiqlaliyyətini elan etməsi, soyuq müharibə dönəmində Türk millətinin ən böyük uğurlarından sayılmalıdır. Nəhayət ki, 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan kimi türk dövlətlərinin yaranması XX əsrdə Türklərin itirdiklərini tədricən geri qaytarmalarına ümid bəsləməyə imkan yaratdı. Bütün bu Türk dövlətlərinin öncüllüyünü üzərinə götürmüş Türkiyə də təklənmiş türk dövləti kimi qalmaq təhlükəsindən uzaqlaşmış oldu. Yaxın perspektivdə Rusiyanın əsarətində olan Tatarıstan, Başqırdıstan və Çuvaşiyada genişlənən milli oyanış hərəkətləri də yeni Türk dövlətlərinin yaranması ilə nəticələnə bilər. Bu eyni zamanda bütün Türklərin bir-birinə dəstək verdiyi bir şəraitdə xəyal kimi görünməyəcəkdir. Bu gün müstəqil türk dövlətləri arasında münasibətlər arzulanan səviyyədə olmasa da, hər halda formal da olsa gələcəkdə məhz Türklük şürunun, milli özünüdərkin, ortaq soykökə bağlılığın nəticələri mütləq öz bəhrəsini verəcəkdir. Bu gün milli lider Elçibəyin öndərliyində qurulan Azərbaycan dövləti də Azərbaycan Türklərinin arzuladığı, milli dünyagörüşün aparıcı mövqedə olduğu, Türk idealına uyğun bir dövlət deyil. Türklər dövlətin idarəçiliyində yetərincə təmsil olunmamış, parlamentdə, orduda, hüquq-mühafizə orqanlarında, dövlət strukturlarında çox az sayda təmsil olunmuşlar. Buna baxmayaraq Azərbaycan əhalisinin 95 faizinitəşkil edən türklərin özlərində iradə taparaq qanları bahasına qurduqları dövlətimizin milli xarakterini özünə qaytaracağı gün uzaqda deyildir.

XX əsrin ikinci yarısından sonrakı dövrdə Siyasi Türklüyün inkişafında xidmətləri olmuş N.Atsız, A.Türkeş, İ.Y.Alptəkin, M.Cəmiloğlu, R.Denktaş, Baymirzə Hayıt, M.Saleh, Ə.Elçibəy, Əhməd Sadiq, M.Çöhrəqanlı və başqalarının yorulmaz mücadiləsini türk milləti heç zaman unutmamışdır. Bu böyük mücahidlər içində Azərbaycan Türklərinin milli davasının öndəri Ə.Elçibəyin adını xüsusi ilə qeyd etmək vacibdir. Ə.Elçibəyin 1960-ci ildən sonrakı dövrdə siyasi fəaliyyətə başlaması ilə Azərbaycanda Türklük davası yeni məzmun və mahiyyət qazanmışdır. İlk öncə Türk dilinin qorunması və Türk tarixinin təbliği istiqamətində maarifçilik fəaliyyətinə üstünlük verən Elçibəy və silahdaşları, 60-ci illərin sonlarında artıq siyasi türklüyün yeni dalğasının əsasını qoymuşdular. 70-ci illərdən başlayaraq Azərbaycan Dövlət Universiteti hudutlarında yayılmağa başlayan Azərbaycanın azadlığı və Türklük dünyagörüşünün təbliği istiqamətində fəaliyyətlər, qısa müddətdə bütün Azərbaycan ərazisində bu davanın çox sayda ardıcıllarının yetişməsinə şərait yaratmışdı. Elçibəyin o dövrdə apardığı təbliğatın əsas nüvəsini Azərbaycanda Türklük şüurunun inkişafı, dünya türklərinin həmrəyliyi mövzusu təşkil etmişdir. Bunun ən dəqiq sübutu olaraq onun Sovet DTK-sı tərəfindən həbs olunmadan öncə DTK-ya ayrı-ayrı tələbələri tərəfindən yazılmış iki izahatdakı fraqmentlərə göz gəzdirmək yetərli olar:

DTK arxivində olan 72 No- li cinayət işində ADU-nun tarix fakultəsi tələbəsi R.F. tərəfindən yazılan 28 fevral 1973-cü il tarixli ərizədə bu sözlər yer alırdı: «Öz mühazirələri zamanı Ə.Əliyev dəfələrlə Qərbi Sibir Türklərinin keçmiş torpaqlarından və əzəmətindən, Azərbaycanlıların guya Türk kökənli olmasından, Türk tayfalarının başqalarından üstün olmasından danışmış, bununla da özünün Türklərə sevgisini bildirmiş, tələbələrə Türklərlə eyni kökdən olduqları üçün qürur duymağı aşılamışdır.»

ADU-nun tarix fakultəsinin tələbəsi A.H. tərəfindən DTK-ya yazılan 16 fevral 1973-cü il tarixli ərizədə bu fikirlər yer alırdı: «Ə.Əliyev Türk millətinin az qala yüz yerə bölünməsi barədə mübahisəyə qərar verdi. O tələbələri inandırmağı çalışırdı ki, guya onların damarlarında Türk qanı axır, onlar isə bunu heç cür başa

düşmək istəmirlər. O tək bir Azərbaycan xalqının deyil, bütün Türk millətinin bəxtinə düşən uğursuz taledən, parça-parça olmasından danışmışdı. Ən axırda əsəbləşərək tələbələrə qeyri-Türk adlar qoyulmasına etirazını bildirmişdi.»

Məhz millətçilik və Türkçülük fəaliyyətinə görə həbs olunan Ə.Elçibəy böyük əziyyətlərdən sonra yenə də sovet rejiminə qarşı bu davanı ardıcıl davam etdirmiş, onun təsiri ilə yaranan bütün siyasi qrup və dərnəklərin aparcı ideya-siyasi xəttini Azərbaycanın istiqlaliyyəti və bütövlüyü, dünya Türklərinin həmrəyliyi ideyası təşkil etmişdir. 1989-cu ildə Elçibəyin liderliyində keçmiş Sovet imperiyasına meydan oxuyan Azərbaycan Xalq Cəbhəsi də yarandığı gündən Türklük dünyagörüşünün, türklük ideyalarının təşkilatlanmış bir gücünə çevrilmiş, onun ideoloji xarakterli bütün sənədlərində bu təşkilatın birici növbədə Türklük ideologiyasına bağlılığı xüsusi yer almışdır. Azərbaycan türklərinin əsas vəzifələrini müəyyən edərkən Ə.Elçibəyin: « Azərbaycan Türkü birinci növbədə öz milli varlığını dərk etməli, özünü, öz xalqını, öz dilini, tarixini, mədəniyyətini, vətənini vs. dərindən öyrənib bilməli, sevməli, qorumalı, yüksəltməli və onlara sahib çıxmağı bacarmalıdır.» şəklində açıqladığı fikirlərini bu gün AXCP üzvləri və bütövlükdə Türk milliyətçiləri özləri üçün referans götürürlər.

Günümüzdə Türk superetnosu  başda Türkiyə olmaq üzrə İran, Əfqanıstan Türküstan, Altay, Yenisey və Anqara hövzələri, Şərqi Sibir, Ural, Qazan, Krım, Qafqaz və Azərbaycanda; türk, türkmən, azərbaycanlı, özbək, qazax, qırğız, xakas, saka, uyğur, altaylı başqurd, tatar, çuvaş və başqa adlar altında parçalanmış vəziyyətdə yaşayırlar. Bu gün İranda yaşayan Azərbaycan Türkləri, qaşqay, qaragözlü, türkmən, qarayı, xamsə türkləri, qaraqalpaqlar, əfşarlar, bayat və qaraçorlu, şahsevənlər, qaradağlı, xorasanlı və boğaçı, kəngərli, eynallı, nəfər türkləri, baralı türkləri kimi adlar altında parçalanmış durumda yaşamaqdadır. Bunlar diqqətə alınarsa, Elçibəyin də üzərində israrla durduğu Türklük dünyagörüşünün geniş bir arealda yayılması Türk Birliyinin yaranmasının ən ciddi hərəkətverici qüvvəsi ola bilər.

Filosoflar millətləri yaradan amil olaraq vətənsevərliyə və ya bir qrup insanın ortaq keçmişə baxmasını şərt kimi qəbul etmirlər. «Biz Türkük, möhtəşəm tariximiz var, babalarımız qəhrəmandır» ədəbiyyatını bir an yaddaşın arxa qatlarında saxlayaraq gələcək üzərində düşünməliyik. Babalarımız bunu etdi, ardınca nəvələrimiz də bunu etməlidirlər proqramını ortaya qoyaraq milli bir ideologiyanın təkmilləşdirilməsi üçün keçmişimizlə gələcəyimizin üzvi əlaqəsini qurmalıyıq. İspan filosofu Orteqa u Qasset Mərkəzi və Güney Amerika xalqlarıyla İspaniyanın müştərək bir keçmişi, müştərək dili, müştərək irqləri olmasına baxmayaraq onlarla bir millət yarada bilməməsinin səbəbini müştərək bir gələcək anlayışına sahib olmamaları ilə əlaqələndirir. İspaniya bu biologi qohum qrupları özünə çəkə bilmək uğrunda gələcək üçün maraq doğuracaq kollektiv bir proqram hazırlaya bilmədiyindən belə bir durumla üzləşmişdir. Məsələni mahiyyətinə görə qiymətləndirsək, o zaman görərik ki, Anadolu, Azərbaycan, Orta Asiya, Rusiya hüdutlarındakı türk şöbələri və başqa türk cəmiyyətləri özlərini eyni gələcəyi arzulayan bir topluluq olaraq görmürlərsə, o zaman türklərin də ortaq gələcəyi təhlükə altına düşə bilər.

Məhz bu gələcək türk birliyinin proqramının hazırlanması baxımından Türklük Bayramının böyük əhəmiyyəti vardır. Bu türklərin ortaq gələcəyə baxış üzərində həmrəyliyinə təkan verəcək ciddi bir tarixi hadisədir. Sadəcə daha gərgin və əməli işlərlə bu bayramın bütün Türkelində qeyd olunmasına çalışmalıyıq.

Türklük Bayramının Elçibəyin doğum günündə qeyd olunmasının səbəbi XX əsrin ortalarından başlayaraq Azərbaycanda Türklüyün bir siyasi fikir hərəkatı kimi yenidən meydana çıxmasında və dünya türkləri arasında inteqrasiyanın güclənməsində Elçibəy şəxsiyyətinin misilsiz xidmətlərinin olması ilə əlaqədardır. Azərbaycan Türkləri üçün Elçibəy Türklük məfkurəsinin simvolu kimi öz adını əbədiləşdirmişdir.

Bilindiyi kimi, uzun illərdən bəri Türk dili adı bolşeviklərin siyasi qadağaları ilə qarşılaşmış, süni surətdə yaradılmış Azərbaycan dili məfhumu gündəliyə gətirilmişdir. Türklük Bayramının Elçibəyin doğum günündə keçirilməyinin əsas səbəblərindən biri də məhz onun

prezident olduğu dövrdə yenidən Azərbaycan dilininin Türk dili adı ilə əvəzləməsi prosesi başlamışdır. Elçibəyin öndərlik etdiyi Azərbaycan Türklərinin hakimiyyəti devrildikdən sonra hakimiyyəti mənimsəmiş Stalinin varisləri yenidən bu məsələyə qayıdaraq milli dilimizin əsl adını dəyişdirmiş, Konstitusiyada Türk dilinin yerini Azərbaycan dili almışdır. Türklük Bayramı eyni zamanda Türk dilinin yenidən öz haqqı olduğu mövqeyə qaytarılması üçün bizə yaddaşımızı yeniləmək imkanı verir.

Azərbaycanda Sovet İmperiyası dövründən xüsusi olaraq stimullaşdırılan regionçuluq siyasəti müasir Azərbaycan cəmiyyətində millətin təşkilatlanmasının əsas maneələrindən biridir. Azərbaycan əhalisinin çoxluğunu təşkil edən türklər milli kimlik duyğusu ətrafında birləşməklə həm öz dövlətlərinə sahib çıxa biləcəklər, həm də lokal regionçu düşüncə tərzindən Türk dünyagörüşünə doğru zəruri məsafə qət edəcəklər. Bu baxımdan Türklük Bayramı cəmiyyətin milli kimlik duyğularının oyanışına və ayrı-ayrı bölgələrdən olan Azərbaycan Türklərinin sabit həmrəyliyinə şərait yaradacaqdır.

Azərbaycanda mövcud din anlayışı fars məzhəbçilik təfəkküründən uzağa getməyərək, fars dini-fəlsəfi sistemlərinin təqlidçiliyindən başqa Azərbaycan türklərinə bir şey bəxş etmədiyini nəzərə alaraq millətimizin təşkilatlanmasına pozitiv yöndən təsir göstərməmiş, əksinə Azərbaycan türklərinin uzun illər fars imperiyasının əsarətində saxlanmasına şərait yaratmışdır. Türklük Bayramı millətin dini kimlik anlayışından daha çox milli özünüdərkinə stimul yaradacaq mahiyyətdədir və bu ənənəni inkişaf etdirməklə daha arınmış və türk dünyagörüşünə yaxın olan gerçək islam anlayışına qovuşmamız mümkün olacaqdır.

Azərbaycanın bütövlüyü ideyasının gerçəkləşməsi Türk Birliyi ideyasının başlıca amili kimi qəbul edən Azərbaycan Türkləri üçün Türklük Bayramı həm də Güney və Quzey Azərbaycan Türkləri arasında birlik və bərabərlik duyğusunun armasına təkan verəcəkdir. Bir vaxtlar məhz bu amilləri nəzərə alan Alman coğrafiyaçısı Virth haqlı olaraq yazırdı ki; «Azərbaycan türkləri bu gün ümumi Türklük irfanının ən böyük sütunu olduqları kimi Türklük uğrunda daha

böyük qurucular və bu ülkünü irəli aparan insanlar yetişdirmişlər. İstiqlaliyyətinə nail olduğunda bu ölkənin böyük əhəmiyyəti görünəcəkdir.»

Türklərin milli mədəniyyətin, o cümlədən dil və ədəbiyyatın, tarixin, fəlsəfənin, sosiologiyanın, kino sənətinin, musiqinin, idmanın, humanitar və dəqiq elmlərin işkişafında xüsusi çalışqanlıq və fədakarlıq göstərmələrinə daha böyük maraq yaradacaq.

Türklük Bayramı Türklərin bu dövlətin əsil sahibi olduqları düşüncəsini sabitləşdirəcək, dövlətin idarə olunmasında, vətənin qorunmasında, daha böyük cavabdehlik hissi ilə çıxış edəcəklərinə imkan verəcək. Erməni-Rus hərbi birləşmələri tərəfindən işğal olunmuş vətən torpaqlarını başında Türk sərkərdəsinin duracağı türk ordusu, Türk mehmetciyi azad edəcəkdir.

Və nəhayət yekunda bir tarixi sənədə müraciət etmək yerində olar. 1733-cü ildə «Peterburskiye vedemosti» qəzetinin 1-ci nömrəsində dərc olunan məqalələrin birində «Türklər Rusiya üçün artıq qorxulacaq deyildir» cümləsi yer alırdı. Düşünürük ki, çağdaş Türklük davası bu nöqtədən başlayacaqdır. Tarixi bu sözləri geri götürməyə məcbur edə biləcəyimiz zamana doğru böyük dəyişikliklərə başlamalıyıq. Bu gün Türkün gücünü nəinki Rusiyaya, bütün dünyaya sübut etmək, qəbul etdirmək kimi bir milli cavabdehlik duyğusunu hamılıqla daşımalıyıq. Bunu düşünərək «Tanrı Türkü qorusun!» şüarını başqa bir deyimlə ifadə etmək istəyirik: «Türk Türkü qorusa, Tanrı da Türkü qoruyacaq!»

Bir də unutmayaq ki, Böyük Türk lideri Elçibəyin doğum günü Türklük davasında hər birimizin hesabat günüdür.

Türklük Bayramınız kutlu olsun!

## AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ VƏ MİLLİ AZLIQLARIN PROBLEMLƏRİ

Qərbdən alınan elmi nəzəriyyələrə əsaslanaraq Qövmiyyət, Milliyyət və Millət kimi tərcümə olunan Natsion-Natsionalitet məfhumlarını türklük üçün, xüsusilə də Azərbaycan türklüyü üçün tətbiq etməli olsaq, Fransada və ya Almaniyada anlaşılan mənaya yaxınlaşa biləcəyimizi düşünmək çətindir. Çünki Avropadakı Dövlət -Millət sintezinin hələ özünün sabit dövlət modelini tamamlamamış Azərbaycan kimi dövlətlərə və bu ərazidə yaşayan milli elementlərə tətbiq etməkdə obyektiv problemlər olduğu inkar edilə bilməz. Bilindiyi kimi, Azərbaycan Türkləri sözün tam mənasıyla 40 milyona yaxın sayı olan bir millətdir. Avropada formalaşan elmi-nəzəri görüşlərdə millət məfhumunun ən önəmli atributlarından biri kimi müstəqil dövlətə malik olması vurğulanırsa, o zaman Azərbaycan türklərinin yalnız 1/3 hissəsinin belə bir dövlətə sahib olması faktı istər-istəməz bizləri çətin sual qarşısında qoyur. Məlumdur ki, Azərbaycan Respublikası kimi tanınan dövlətimizin əhalisinin böyük əksəriyyətini Azərbaycan Türkləri təşkil edir. Ancaq bu dövlətin vətəndaşlıq sistemi içində Türklərdən başqa ləzgi, talış, kürd, ingiloy, udin, xınalıq, rutul, tat və başqa etnik qruplar və ya azsaylı xalqlar da yaşamaqdadır. Digər yandan Azərbaycan Respublikası ərazisinin 20 faizindən artığı Ermənistan tərəfinən işğal olunmuş və ermənilərin Dağlıq Qarabağda yaşayan 60 minə yaxın əhalisi də Azərbaycan vətəndaşı hesab olunur. Yəni artıq özlüyündən milli zəmində separatçılıq faktı ilə gənc Azərbaycan dövləti ciddi şəkildə qarşılaşmışdır. Azərbaycan coğrafyasının güney hissəsi İran dövlətinin əsarəti altında olduğundan orada müstəqil dövlət qurma imkanını isə Azərbaycan Türkləri əldə edə bilməmişlər. Bu vəziyyətdə İranda 30 milyona yaxın sayı olmasına baxmayaraq Azərbaycan türkləri ən adi mədəni haqlara belə sahib deyildirlər. Belə bir vəziyyətdə Azərbaycan Türkləri və Azərbaycan coğrafiyası prizmasında Millət-Dövlət-Vətən üçbucağının necə təsəvvür olunacağı üzərində ciddi elmi-nəzəri müzakirələrə ehtiyac duyulmaqdadır. Bu çərçivənin içərisində aparıcı kəmiyyət mövqeyini

özündə saxlayan türklərdən başqa digər etnik ünsürlərin hüquqi durumunu ən real və ədalətli variantlarda tənzimləmək dövlətin və cəmiyyətin ən mühüm problemlərindən sayılmalıdır. Ümumiyyətlə milli azlıqların problemlərinin həllinin ən optimal variantları hansılardır. Bu məsələdə bir nöqtəyə varmaq üçün ilk öncə bizə təqdim olunan xalq, millət, etnik qrup, dövlət, vətən, vətəndaşlıq kimi məfhumların necə anlaşılması lazım gəldiyinə diqqət yetirməliyik. Çünki bu mövzuda köhnə Sovet terminalogiyası ilə Qərbdən alınan etnik kimliklə bağlı terminalogiya arasında fərqliliklər mövzuya münasibət bildirməkdə çətinliklər yaradır.

Müasir Azərbaycan türklərinin özünə məxsus Türk dili, təyin edilməsi çox da çətin olmayan tarixi coğrafyası, tarix şüuru, ortaq ədəbiyyatı və bir dövlət çərçivəsində birləşmək kimi ortaq idealı olduğu görünməkdədir. Bu isə Azərbaycan türklərinin Türk qövmünə mənsub bir millət olduğunu göstərir. Bu gün bütün Azərbaycan türklərini bir araya gətirən vahid dövlət şəklinin gerçəkləşməməsi bəzi elm adamlarını, aydınları, siyasətçiləri yeni bir kəşfə sövq etmişdir. Bəzilərinə görə Azərbaycan türkləri bu günkü vəziyyəti ilə nə millət, nə də xalqdır və yalnızca bir dövlət mərhələsini keçdikdən sonra millət səviyyəsinə çata biləcəkdir. Ancaq formal da olsa 1/3 hissəsinin öz dövlətini qurmağa nail olması faktı hər halda konkret Azərbaycan türklərindən bir millət kimi bəhs etməyə imkan verir. Bunu Məmmədəmin Rəsulzadə də ilk dəfə olaraq 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti qurulduqdan sonra dilə gətirmişdir.

Əslində Azərbaycanda azsaylı xalqdarın, etnik qrupların, milli azlıqların ayrıca problemlərindən öncə Azərbaycan dövlətçiliyi problemindən danışmaq lazımdır. Bu günün müasir demokratik dövlətlərində olduğu kimi tam şəkliylə vətəndaşlıq institutunun bərqərar olduğu güclü Azərbaycan dövlətindən danışmağımız erkəndir. Qeyd etdiyimiz kimi əhalinin böyük əksəriyyətini Türklər təşkil etdiyindən, bu dövlətin onurğa sütununu amorf şəkildə təqdim olunan vətəndaşlar deyil, məhz aparıcı çoxluğa sahib etnos təşkil etməlidir. Milli azlıqların, etnik qrupların və azsaylı xalqların hüquqlarına isə bilavəsitə çoxluğu təşkil edən etnos və ya etnik element xüsusi cavabdehlik daşımalıdır. Vəziyyət isə göz

qabağındadır. Azərbaycan Türkləri Azərbaycan siyasi coğrafyasının quzey hissəsində qurulan dövlətin homogen ünsürü kimi qəbul olunsalar da, öz siyasi və ideoloji dünyagörüşlərini bu dövlətin aparıcı mövqeyinə çıxartmaq imkanından məhrum qalmışlar. Yəni dövlət hakimiyyəti seçkili əsaslarla deyil, sadəcə bir müasir feodal klan hakimiyyəti şəklində öz varlığını sürdürdüyünə görə Azərbaycan türklərindən hər hansı bir məsuliyyət tələb etmək özü absurd görünür. Bəlkə də uzun illər sonra milli dövlət anlayışı real məzmun qazandığı təqdirdə tədricən vətəndaşlıq institutunun inkişafı, artıq cəmiyyətdə milli və ya etnik problemlərin bu çərçəvədə həllinə real imkan yarada bilər. Ancaq indiki şəraitdə mütləq aparıcı etnik çoxluğun iradəsinə dayanmaqla güclü dövlətin qurulmasının mümkünlüyü  inkaredilməz bir gerçəkdir. Belə vəziyyətdə 7 milyon Türk sayı yüz mindən bir az yuxarı və ya aşağı olan digər etnik elementlərin mədəni haqlarının qorumasına daha real təminat vermək imkanına malikdir. Bunun üçün birinci növbədə ölkədə demokratik təsisatlar yaradılmalı, azad və ədəlaətli seçkilər yolu ilə dövlət hakimiyyətinin bütün qanadları formalaşmalıdır. Çoxları milli zəmində baş verən problemlərin həllində dövlətin qətiyyətli və ya qətiyyətsiz davranışlarını müzakirə etməyə üstünlük verirlər. Ancaq bir həqiqət var ki, çox vaxt dövlət tərəfindən irəli atılan addımlar cəmiyyət miqyasında dəstəklənməyəndə, daha təhlükəli durumlarla qarşılaşmaq qaçınılmaz olur. Türklərin milli azlıqların hüquqlarına təminat verməsi haqqında tezisi önə çəkərkən, məhz məsələyə bu kontekstdən yanaşdığımızı göstəririk. Çünki bu gün Azərbaycanda olduğu kimi, dövlət hakimiyyətini həyata keçirən qruplar cəmiyyət çoxluğunun ən azı milli psixologiyasını əks etdirməyə bilər və belə vəziyyətdə bu hakimiyyətin irəli sürdüyü proqramlar və planlar da aşağıda özünə dəstək qazanmaya bilər.

Azərbaycanda ilk dəfə müstəqillik elan olunduğu 1991-ci ildən əvvəl və sonra etnik separatizmin ən təhlükəli nümunəsi ilə gənc müstəqil dövlət üz-üzə qaldı. Ermənistanla başlayan müharibənin beynəlxalq məzmun kəsb etməsinə baxmayaraq mahiyyətcə milli problemin həlli istiqamətində tarixi yanlışların diqqət mərkəzinə gətirildiyi faktı etiraf olunmalıdır. Sovet rejiminin caynağından yenicə qurtulmuş gənc dövlətin bu məsələ ilə bağlı hər hansı optimal

reseptinin olmaması çox geniş miqyasda ərazi işğalına səbəb olmuşdur. 1992-ci ildə Əbülfəz Elçibəyin demokratik yolla prezident seçilməsi ölkədə bu yöndə ciddi islahatların aparılmasına təkan vermişdir. Məhz bu dövrdə siyasi, sosial-iqtisadi xarakterdli islahatlarla yanaşı həm də milli azlıq, azsaylı xalqlar və etnik qrupları mədəni haqlarının qorunması istiqamətində real addımlar atılmışdır. Burada prezident Elçibəyin Azərbaycan Respubliyasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarınnın qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında 16 sentyabr 1992-ci il tarixli fərmanı xüsusi olaraq qeyd etmək lazımdır. Bu fərmanda milli azlıq, azsaylı xalq və etnik qrupların mədəni, dil və dini özgürlüyünü qoruyub saxlamaq və inkişaf etdirmək, milli ənənə və adətlərə əməl olunması, dini mərasim və ayinlərin tam azad icra edilməsi, ibadət yerlərinin qorunub saxlanılması və onlardan istifadə olunması, milli sənətkarlığın, peşəkarlıq və özfəaliyyət yaradıcılığı və xalq sənətlərinin sərbəst inkişaf etdirilməsi, bütün millətlərin tarix və mədəniyyət abidələrinin qorunması, əhali üçün əhəmiyyətli olan yerlər, qoruqlar, parklar və digər təbiət obyektlərinin mühafizə olunub saxlanılması kimi mühüm məsələlər öz əksini tapmışdır. Bu fərmanla eyni zamanda bir ay müddətinə Azərbaycanda yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquqları haqqında qanun layihəsini hazırlamaq da xüsusi olaraq Ədliyyə Nazirliyinə tapşırılmışdır. Fərmanda ən kiçik detallar belə öz əksini tapmış, milli azlıqların hüquqlarına dair əksər məsələlərə toxunulmuşdur. Dövlət Televiziya və Radio verilişləri Şirkətinə Azərbaycanda yaşayan azsaylı xalqların və etnik qrupların ədəbiyyatını, folklorunu, əmək və həyatını işıqlandıran teleradio proqramları təşkil etməyi, eyni zamanda ləzgi, talış və kürd dillərində «Respublika yenilikləri», yerli radioqovşaqlar ilə azsaylı xalqların dillərində gündəlik verilişlərin yayımlanması haqqında birbaşa göstəriş də yer almışdır. Onların mətbuat orqanının yaradılmasına, mədəniyyət mərkəzlərinin fəaliyyət göstərməsinə dövlət dəstəyi verilməsi də nəzərdə tutulmuşdur. Həmin fərmanın bəndlərinin birində Bakı, Sumqayıt, Lənkəran, Qusar, Zaqatala, Qəbələ icra hakimiyyəti başçılarına bir ay müddətində slavyan, yəhudi, talış, ləzgi, avar, udin və başqa azsaylı

xalqların və etnik qrupların milli mədəniyyət mərkəzlərini bina, yaxud xidməti iş otağı ilə təmin etmək də tapşırılmışdır. Bütün bunlar məhz demokratik hakimiyyətin insan haqlarına münasibətinin nəticəsi kimi qəbul olunmalıdır. 1993-cü ilin iyun qiyamından sonra demokratik hakimiyyətin devrilməsi ilə əslində bu fərman açıqca unuduldu və burada nəzərdə tutulan müvafiq qanun indiyə qədər də qəbul olunmadı. Əksinə məhz demokratik hakimiyyətin süqutundan sonra bu istiqamətdə separatçılıq hərəkətlərinin genişlənməsinə imkan yaradıldı. Xüsusilə də Dağıstanda Rusiya tərəfindən dəstəklənən «Sadval» təşkilatının separatçılıq hərəkətləri daha da geniş miqyas aldı. Lənkəranda isə 1993-cü ildə Ə.Hümbətovun başçılığı ilə Talış-Muğan Respublikasının yaradılması problemin necə aktual olduğunu bir daha diqqət mərkəzinə gətirdi. Əslində mədəni haqları bəhanə edərək açıq-aşkar separatçı fəaliyyətlərə üstnlük verən bu kimi qüvvələr, əhalinin sosial narazılığını milli zəmində narazılıq kimi təqdim etməyə çalışdılar.

Milli problemlərin başlıca elementi olaraq dil məsələsi daha çox önə çəkilir. Bu istəqamətdə də demokratik hakimiyyət dövründə sırf elmi-praktiki mülahizələrə dayanaraq addımlar atılmışdır. Xüsusilə də Türk dilinin dövlət dili olaraq tanınması, Azərbaycanlı yerinə hər bir milli subyektin mənsub olduğu millətin adı ilə tanınmaq hüququnun bərpa olunması bunun konkret nümunələri sayıla bilər. Sovet elmi doktrinasının qondarma şəkildə tətbiq etdiyi «azərbaycanlı» termininin totalitr rejimin süqutu ilə elmi dayanağının olmadığı aşkar olsa da, Elçibəy hakimiyyəti devrildikdən sonra köhnə təfəkkürün daşıyıcılarının yenidən bu terminalogiyaya müraciət etməsi tarixə yanlış yanaşmanın son nümunələrini ortaya qoydu. Guya H.Əliyev Türk adının tez-tez işlədilməsi ilə ölkədə separatçılığa rəvac verildiyini cəmiyyətə işarə edərək öz məkrli siyasətini həyata keçirməyə başladı. Türk dili məsələsi gündəlikdən çıxarılaraq dövlət səviyyəsində Azərbaycan dili və ya azərbaycanlı kimi terminlər işlədilməyə başlandı. Bu isə problemin həlli deyil, sadəcə onun dondurulması və ya konservləşdirilməsi kimi qiymətləndirilə bilər. Hər xalqa öz adı ilə tanınma imkanı verilmədiyi müddətcə insanların milli zəmində daha böyük qəbuletməzlik sindromuna tutulacağı qaçınılmazdır.

Azərbaycan kimi yenicə müstəqillik qazanmış və demokratiyanın hələ bərqərar olmadığı ölkələrdə mütləq hər şeyi əvvəlcədən öz adı ilə çağırmağa ehtiyac var. Bu bölgədə türklərin ideologiya və milli-tarixi dəyərlərinə əsaslanan demokratik dövlət qurulmalı, hər bir etnik qrupun, milli azlığın və azsaylı xalqın mədəni hüquqları sözün tam mənasıyla tanınmalı, ancaq bütün bu ərazidə yaşayan insanlar vahid Azərbaycan vətəndaşlığı modeli ilə mərkəzləşmiş dövlət bayrağı altında birləşməlidirlər. Əslində bu formada dövlətçilik ənənəsinin inkişafı Azərbaycanı nəinki milli azlığın, eyni zamanda bütün vətəndaşların hüquqlarının qorunduğu nümunəvi ölkəyə çevirə bilər.

# TÜRKLÜK NOSTALGİYASI

Hərdən bu işlərə baş qoşmaq lazımdır. Yoxsa məmləkətdə hərə öz istədiyi havanı oynamağa başlayacaq və ara qarışacaq, məzhəb itəcək. Bizləri çilədən çıxartmaq bir az çətin işdir. Əgər illərdir millətimizin anasını ağladan bir zümrənin törətdiklərini soyuqqanlı şəkildə içimizə sindirə biliriksə, bu o deməkdir ki, gönümüz və ya qabırğamız kifayət qədər möhkəmdir. Bir az biədəb olmasın, yəni qalındır. Ancaq bunca zülmlərə dözənlərdən biri olaraq bəndəniz neçə gündür havalı gəzir. Son vaxtlar dövlətimizi və millətimizi sürənlər arasında başlayan «razborka», yəni haqq-hesab çürütmə təptəzə bir qeybət mövzusu ortaya qoydu ki, yenə də danışa-danışa başladıq itirdiyimiz vətən torpağının pərişanlığını unutmağa. Heydər Əliyevin bəlkə də ən sevilən cəhəti budur. Millətin nə istədiyini anında bilir və vaxt itirmədən onların ac mədəsinə ifraz üçün maraqlı qeybət mövzuları tullayır. Mənim bu kimi tayfadaxili «razborkalar»la işim yox. Əslində məmləkətdə çoxumuzun bu məsələyə dəxlimiz olsa belə boylanıb baxma imkanlarımız Məşədi İbadın Rüstəm bəyin hasarını aşa bilməsi qədər zor bir işdir. Qohum-əqrabadı, dost-tanışdı, cinayətkar həmkarlardır- hamısı dövlətimizin hakimiyyətini işğal edib oturublar və öz problemlərini çözməklə məşğuldurlar. Ermənilərə dözdüyümüzün bir azını da onlara dözsək nə olar. Amma birdən-birə bu «razborka»da mənə də toxunan bir epizod oldu ki, nəticədə başımdan tüstüyə bənzər bir şey qalxdı. Ötən günlərdə bir polis polkovnikini tayfadaxili çəkişmələrin nəticəsində həbs etmişlər. Hansısa təşkilatın hansısa adamları yığılıb bir tərəfin müdafiəsi üçün bəyanat qəbul edirlər ki, bəs filankəsin həbs olunması türklərə qarşı təzyiqdir. Yəni H.Əliyevin represiya maşınının yuxarı pilləsində duran bir polis polkovnikinin tutulması türklərə qarşı yürüdülən ən güclü represiyadır. Mənim bu adamların şəxsiyyəti ilə heç bir işim yox. Onları müdafiə edənlərin də hisslərini və mənafelərini anlayıram. Bütün iqtidar işverənlərinin Xalq Cəbhəsinə qarşı etdikləri zülmlərin indilik «razborka»sını da aparmaq fikrindən uzağam. Amma bizim milli deyilən və toxunulmaz sayılan duyğularımızla oynanılmasını heç cür içimə

sindirə bilmirəm. İşdir günü sabah M.Ələsgərov və ya oğlu F.Ələsgərov və ya başqa həmməsləkləri işdən azad olunarsa və ya həbs edilərsə, bəs onlarla bağlı nə bəyanat veriləcək? Bəlkə onları da Türklük hərəkatının yorulmaz mübarizləri kimi təqdim edəcəklər. İnandırıram ki, belə olarsa, bu birbaşa məhz Azərbaycanda Türklük davasına görə həbsxanalarda çürüdülən Xalq Cəbhəsi mücahidlərinə qarşı saxta məhkəmə hökmlərindən də dəhşətli cəza sayılacaqdır.

Qəribədir, indi dara düşəndə Türklüyü siyasi kart kimi ortaya atanlar qulluq etdiyi rejimin başçısı Türk dili adını dəyişərkən niyə cınqırını çıxarmadılar. Məgər Türklük hissi vəzifədə qalıb-qalmamaqla müəyyən olunur. PKK rəğbətçilərinin hələ bu günə qədər də Azərbaycanda at oynatmasına və Azərbaycan Türklərini at kimi minməsinə yardımçı olanlar indi də bizim şüarlara girişiblər. Vəzifədən qovulanlar hakimiyyətdə Türklərin sıxışdırılması faktını gözümüzə soxmağa çalışırlar. Türklüyün təəssübünü çəkmək iddiasında olanlar vəzifədən qovulmağı gözləyirlər. Onlar əslində bu anlayışla Türklük davasını aparan insanlara sataşırlar. 1993-cü ildə Azərbaycanda Türklərin hakimiyyətini devirənlərin, qiyamçılara səsli və səssiz dəstək verənlərin altı ildən sonra Türklük nostalgiyası oyanmış. Buna bəlkə də sevinmək olar. Yəni bizim söylədiklərimiz gec də olsa cücərir. Nəhayət ki, imana gəlirlər. Ancaq açıq söyləmək lazım ki, tarix indiki hakim zümrənin dövründə Azərbaycan Türklərinə zülm etmək işində ən az payı olmuş şəxslərin bəraətini qəbul etməyəcəkdir. Bəlkə bu gün və ya sabah Azərbaycan televiziyasında bu millətin dirilişinin qarşısını almaq üçün hər cür murdar təbliğatı üst-üstə altı ildir başımıza taqqıldadan Babək Hüseynoğlu və ya Nizami Xudiyev və bu kimi başqa zatlar Türklük haqqında məclislərdə tost deyib coşacaqlar, ancaq sizlər öz işinizdə olun və nəbadə üzüyumşaqlıq etməyin. Sadəcə bilin ki, Azərbaycan Türkünün içində yatan düşməni tanımaq və tanıtmaq hər birimizin vətənsevərlik borcu sayılmalıdır.

Yaxınlarda vəfat etmiş bir universitet müəllimi, tanınmış professor haqqında fikrimi soruşdular. Dedim, mənə elə gəlir ki, onun bir idealı vardı, o da ən böyük ermənistanlı olmaq idi. Bu gün cəmiyyətimiz bu ruhda yetişmiş insanlarla ağzınadək doludur. Ən

böyük şirvanlı, naxçıvanlı, lənkəranlı, qarabağlı, tovuzlu olmaq istəyənlərin, öz tayfasının böyük adamı olmaq arzusunu yaşadanların yanında ən vətənsevər və imanlı Azərbaycan vətəndaşı olmaq istəyənlərin sırası çox-çox seyrəkdir. Türklük haqqında həyəcanlı bəyanatlar vermək əvəzinə hamınıza ən vətənsevər və imanlı Azərbaycan vətəndaşı, ləyaqətli Türk kişisi və ya qadını olmağı arzu edərdim. Günümüzün ən böyük Türklüyü elə budur.

## VAXTDIR, BAŞLAMALIYIQ!

Çevrəmiz tanış özəlliklərə sahib insanlarla doludur. Təlatüm yaradacaq heç nəyi sevməzlər. Köynəklərini ütülədib, qalstuklarını taxarlar. Atılan hər addıma, deyilən hər bir sözə cavab olaraq: «hələ bunun vaxtı deyil» şəklində aferist aforizmlə başlarını yellədərlər. Və bu minvalla ömürləri də asta-asta keçib gedər. Amma ən sonda böyük işlər görməyə və tarixi missiyalarını yerinə yetirməyə onların vaxtları çatmaz. Və ən maraqlısı da bunların çoxusu siyasət kimi təlatümlü dəryanın içində üzən gəmidə daimi və rahat yaşayış yeri qazanmaq ümidindədirlər. Anlamaq istəmirlər ki, indi bizə sırınan bu sabitlik və rahatlıq deyilən şərait uzun illər oturuşmuş dövlətlərdə sadəcə bir arzu kimi təqdim olunsa belə, yenə də qorxu ilə qarşılanar. Cəmiyyət hər zaman canlı, dinamik və dirənişli olmaq məcburiyyətindədir. Başqa yerə axarı olmayan gölün qısa bir zamanda üfunət verdiyi kimi, cəmiyyəti də təlatümsüz və küləksiz saxlamaq olduqca təhlükəlidir.

Vaxtıdır! Başlamalıyıq! İdeallarımızı bir-bir dilə gətirməyə və həzm etdirməyə! Mən Elçibəyin hakimiyyəti dövründə bir epizodu xatırlayıram. Türk dili dövlət dili elan olunanda, yaxın çevrəmizdən də səslər eşidilməyə başladı: «hələ bunun vaxtı deyil!» Sonra cəmiyyətdə də bu təbliğatın ittiham bumeranqı başımızı-üzümüzü dəlik-deşik etdi. Öz dilimizin adının elan olunmasına az qala özümüz etiraz etməyə başlayırdıq. Çünki təlatümü sevmirik. Dünyanın zəlzələsiz, tufansız, çevrilişsiz, üsyansız bir şəklini qəbul etməkdən başqa düşüncəmiz yox idi. Hətta acınacaqlı, faciəli erməni işğalı da bir millət olaraq təbii, siyasi və başqa növ fəlakətlərə hazır olma səviyyəsinə bizləri gətirə bilmədi. Eyni yanaşma tərzini Bütöv Azərbaycan məsələsinə münasibətdə də görürük. «Vaxtıdırmı ki, quzeydə hələ normal dövlət qurmamış, güney məsələsilə başımızı qatırıq» deyənlərlə də rastlaşırıq. Dünyada baş verənlər prizmasında məsələni qiymətləndirəndə, asanca anlamaq mümkündür ki, bu ərazidə əksəriyyəti Azərbaycan Türkü olan 35 milyon əhaliyə və onun nisbətində 1 milyonluq orduya dayanan potensialla güclü dövlət yaratmaq mümkündür. Rusiyanın, İranın, Ermənistanın

təhlükəsini bu potensialla dəf etmək imkanını düşünmədən də görmək olar. Ən azı düşünməyin ki, vaxtıdır.

Birdən-birə dönüb 1918-ci ili hadisələrini xatırlayın: İstiqlal dövrünü. «İstiqlalı elan etməyin, müstəqil dövlət qurmanın vaxtı deyil» deyə bağıranları xatırlayın. O tarixdə istiqlal elan olundu, iki il Türk cumhuriyyətimiz var oldu. Bəs ondan sonra dövlətimiz süqut etdikdə düşündülərmi ki, öz milli dəyərlərimizi dilə gətirməyə 70 il vaxt olmayacaq? Ona görə də hər kəs, hər nəsil, hər millət vaxtı özü müəyyən etməli, içinə hopmuş idealları düşündüyü andan gerçəkləşdirməyə çalışmalıdır.

Bizim Azərbaycan Türkləri olaraq yalnız və yalnız təşkilatlanma problemimiz var. Düşmənimiz ermənilər tarixən milli din sistemini yarada bilmiş və bu sistem içində təşkilatlana bilmişlər. Maraqlıdır ki, milli kimlik etalonunu da milli din anlayışına dayanaraq yaratmışlar. Və uzun illər dövlət qurumu olmadan da, bu təşkilatlanmış orqanizmi yaşatmaq mümkün olmuşdur. Ona görə də dövlət yaratma fürsəti əllərinə keçdikdə dövlət müstəvisində də rahatca təşkilatlana bildilər. Və nəticədə Rusiya ilə birləşərək hələlik onlardan sayca çox üstün olan bizləri rahatca məğlub etdilər. Burada dərhal Rusiya faktorunu bəhanə kimi qabartmağa tələsməyək. Və Xamneyidən, Yelçindən, Köçəryandan başlayıb Heydər Əliyevlə ittihamlarımızı tamamlayıb, işimizi bitmiş sanmayaq. İlk öncə özümüzlə bağlı problemlərə üz tutmaq lazım gəlir. Biz Azərbaycan Türkləri indiyə qədər nə milli xarakterimizə uyğun gələn din anlayışımızı yarada bilmiş, nə də milli kimliyimizin və tarixi missiyamızın mahiyyətini dərindən anlayaraq bu çətir altında təşkilatlana bilmişik. XX əsrin başlarında və axırlarında əldə etdiyimiz dövlət yaratmaq fürsətini də lazımı səviyyədə qiymətləndirə bilməmişik. Zəif və milli iradəyə dayanmayan, tarixdən daha çox xəritədə yer tutmağa layiq bir alayarımçıq dövlət şəklindən başqa bir şey ortaya çıxarmağı bacarmamışıq. Həm də bunu ancaq tarixi vətənimizin bir hissəsində etmək mümkün olmuş. Azərbaycanın güney hissəsində isə öz dövlət qurumumuzu yaratmaq arzusu hələ ki, gerçəkləşməyib. Başqa millətlərin başında palıd ağacı və ya buynuz axtarmağa dəyməz. Yalnız təşkilatlanma qabiliyyətinə

və yollarına diqqət etmək lazımdır. İslamı Fars zehniyyətindən və mərasimçilik şəklindən fərqli anlayışla idrak etməyimiz üçün də, dövlətimizin milli ideallara və atributlara dayanması üçün də Azərbaycan Türkü vahid orqanizm kimi təşkilatlanmalıdır. Farsın xarakterinə uyğun gələn islama deyil, Türk anlayışı ilə qəbul olunan islama gəlməklə millətin bütünlüyünü ortaya qoymağa qadir kamil iman dəyərləri olan bir cəmiyyətin yaranması mümkünsüz deyil. Bununla yanaşı Azərbaycan Türkünün hər bir fərdi mənsub olduğu millətin tarixi missiyası haqqında aydın təsəvvürə sahib olmalıdır. Burada söhbət nə isə yeni bir Qızıl Alma yaratmaqdan getmir. Sadəcə, birinci hədəf olaraq öz xarakterini, dəyərlərini, atributlarını önə çəkə biləcəyi dövlətini yaratmaq, dövlət hakimiyyətinə sahib çıxmaq, ardınca da bu dövləti çağdaş dünyanın qəbul olunan güc mərkəzlərinin birinə çevirərək Türk mədəni və siyasi birliyinə nail olmaq üzərində düşünməkdən gedir. Bu hədəflərin hamısı Tanrının yardımı və bizim gücümüzlə gerçəkləşəcək. Ancaq bu gündən başlayaraq, atılan heç bir addıma, «Hələ vaxtı deyil» damğasını vurmadan vaxtı özümüz çağırmalıyıq. İradəmiz və qətiyyətimizlə.

Vaxtdır! Başlamalıyıq!

## GECİKMİŞİK, BAŞLAMALIYIQ!

Onlar bəlkə də gözünüzə demokratiya müdafiəçiləri qiyafətində görünəcəklər. Zahirən milli azlıqların taleyindən narahatçılıq keçirənlər kimi özlərini təqdim etməyə çalışacaqlar. Ancaq əsas məfkurələri Türklüyə aid olan bütün gerçəkliklərə qarşı savaşmaqdır. Onlar məsuliyyətsizliklə Azərbaycanda türklərin azlıqda olduğunu söyləyə bilərlər. Eyni qaydada türklərin islam anlayışına ironiyalı münasibət göstərə bilərlər. Hər dəfə də azərbaycançılığı gözümüzə soxaraq, əslində antitürk təbliğatını imkanları çatan səviyyədə genişləndirməkdən çəkinməzlər. Ara-sıra niyyətlərini pərdələmək üçün Türklük və ya Türk dili haqqında yazdıqları boğazdan yuxarı sevgilərini izhar edən bir- iki məqaləni də arxivdə saxlarlar ki, əsl niyyətləri aşkar olunanda özlərini qoruya bilsinlər. Ancaq bizim kimsə ilə ayrıca davamız yox. Bütün mülahizələrimiz Azərbaycan Türklüyünün dirilişinə xidmət edir və burada xoflu şəkildə üzərimizə gələn bütün antitürk tör-töküntülərin yerində oturdulmasını vətəndaşlıq borcumuz hesab edirik. Digər tərəfdən bəzi mübahisələrdə bizim durumumuz zindana salınmış Firdovsinin durumundan çox az fərqlənir. Təsəvvür edin ki, Firdovsinin böyük düşüncələrlə məşğul olduğu bir anda bilərəkdən onun zindanına keçisindən başqa bir xatirəsi olmayan çobanı salıb (və təsəvvür edin ki, indiki şəraitdə həmin çoban həm də əlində konstitusiyanı götürmüş və həm də ümumbəşəri dəyərlərin müdafiəçisi olduğunu iddia edərək zindana təşrif buyurmuş və həmin konstitusiyanın maddələrini oxuyaraq nəyisə izah etməyə çalışır) ona necə əzab verirlərsə, eyni cahiliyyətlə üz-üzə qalmaq əzabını da bizə verməyə çalışırlar. İndi nə edək? Bəzilərinə təzədən «bismillah»ımı öyrədək? Bəzilərinə anladaqmı ki, bütün ideoloji xarakterli mübahisələrdə bizim mülahizələrimiz tam ciddi elmi araşdırmalara əsaslanır və tutuquşu kimi konstitusiyanı varaqlayaraq məsələnin mahiyyətinə dəxli olmayan bəzi maddələri təkrarlamaqla nə isə bildiyini zənn edənlərdən məsələyə yanaşma tərzimiz büsbütün fərqlidir. İşimizi-gücümüzü buraxıb Türkün islam anlayışının ərəb və ya farsın islam anlayışından ciddi şəkildə fərqləndiyini elmi dəlillərlə isbat edən

ədəbiyyatları oxumadan bu mövzuda ironiya ilə danışmağa cəhd göstərənlərə dərs verməkləmi məşğul olmalıyıq. Mən bəzi türk, rus və avropalı alimlərin bu mövzudakı elmi əsərlərindən alınmış fikirləri qısa şəkildə şərh vermədən təqdim edirəm:

Babanzadə Əhməd Naim Əfəndi: Türkün İslamı, Ərəbin İslamı, Farsın İslamı yoxdur. Allahın peyğəmbəri vasitəsi ilə göndərdiyi İslam vardır. Fərqli olan Ərəbin, Türkün, Farsın İslam anlayışı, İslamı yaşama tərzi və üslubudur. Beləliklə, bu üslub fərqi və milli varlığın, kimliyin əsəri və təzahürüdür.

Əli Bəy Hüseynzadə yazırdı: Türklərin milli xarakteri islam olmağa uyğundur.

Əhməd Ağaoğlu da deyirdi: İslamiyyət Türklərin dini-millisidir və Türklər başqa qövmlərdən fərqli olaraq İslamiyyəti cəbrən, məhkum, məğlub olaraq deyil, hakim və qalib olaraq qəbul etmişlər.

İsmail Hami Danışmənd zehniyyətlərin islamla uzlaşması mövzusundan bəhs edərək yazır: qılınc altında qəbul etmə məcburiyyətində qalmış millətlərlə, islamiyyətin insani və cahanşümül mahiyyətini ruhi ehtiyaclarına uyğun gördüklərinə görə özləri könüllü qəbul etmiş irqlərin və ya millətlərin islam dininə alışmaq nisbətləri arasında çox böyük fərqlər təsbit edilmişdir; məsələn Türklərin sünniliyi ilə İranlıların şiəliyi bilavasitə bu vəziyyətin həm tarixi, həm də ruhi nəticəsidir.

Sultan Səlimin Şah İsmayıla yazdığı namədən də bir nümunə verək: «Sən zülmə və küfrə sapmısan, İslam üləmasından (sənin) ölümünə fitva almışam, ancaq qılıncdan öncə İslama dönməyini istəyirəm.» Yəni açıqca bu məktubdan İslam anlayışlarının fərqi görünmürmü? İndi biz keşişmi söyürük. Türklərin islama gəlişi prosesi ilə farsların islamı qəbul etməsi hadisəsi arasında ciddi tarixi-psixoloji fərqlər olduğuna görə onların islam anlayışlarında da ciddi fərqlər ortaya çıxmışdır. Bartold, Məhəmməd Əsad kimi alimlər də öz əsərlərində bunun geniş şəkildə açıqlamasını vermişlər. Bartold yazırdı: «İranlılardan fərqli olaraq Türklər İslam orduları tərəfindən hakimiyyət altına alınmamışlar.» Vəsairə, vəilaxır...

Qaldı ki, mərasimçilik təzahürlərinə münasibətə, bu barədə də gedib geniş mütailə ilə məşğul olmağa lüzum yox. Bir İslam dininin Qurana dayanan təməl əsaslarını öyrənmək, digər tərəfdən də Axundovu, Mirzə Cəlili, Üzeyir bəyi, Əbdürrəhim bəyi oxumaq yetər. Bu gün din adı ilə bizə sırınmış mərasimlərin heç birinin əslində Məhəmməd peyğəmbərin təbliğ etdiyi islamla yaxından-uzaqdan əlaqəsi yoxdur. Ol şəxslərin cahilcəsinə inadkarlıqları dəxi davam edərsə, o zaman bu sətirlərin müəllifinin «Azərbaycan Türkünün iman davası» əsərini bir neçə dəfə oxuyandan sonra din və iman məsələləri ətrafında mübahisələrə girmələri daha məqsədəuyğundur.

Bir də bəzilərinin timsahların uçmadığını inamla söyləməsi, Qalileyin məhkəmədən qurtulan kimi «hər halda yer kürəsi fırlanır» deməsindən çox-çox fərqli bir şeydir. Təsəvvür edin ki, həmin çoban əlində konstitusiyanı tutaraq Firdovsiyə eyni inamla «Timsahlar uçmur!» söyləyir. Allah kimsəni bu imtahana çəkməsin.

Bilmək olmaz, bəlkə də bu gedişlərlə Türk milli mənafelərinə qarşı olan qüvvələr timsahların uçmadığını söyləyərək altdan-altdan öz timsahcığazlarına qanad taxıb birtəhər üstümüzdən uçurmağa çalışırlar. Ona görə də müraciətsiz, filansız söyləyirəm: Gecikmişik, başlamalıyıq!

## İSLAM DÖVLƏTİ ARZULAYANLARA BƏZİ FAYDALI ÖYÜDLƏR

Çeçenstanın ardınca Dağıstanda da vəziyyət qarışdı. Əslində iki əsrdir ki, burada əzəmətli bir azadlıq mübarizəsi gedir. Arasıra kükrəyən bu iradəli insanlar bizlərin nəhəng qüvvə kimi gözümüzün qorxduğu rus imperiyasının dizini yerə gətirirlər. Burada islam respublikasının yaranması məsələnin şəkil tərəfidir. Mahiyyət azadlıq uğrunda savaşdan başqa bir şey deyil. Çeçenistanda da bu model tətbiq olundu. Adı hər nə qədər İslam dövləti kimi təqdim olunsa da, bu məmləkətin öncülləri də yaxşı anladılar ki. çağdaş dünyanın prinsiplərinə zidd getmək olmaz. Bu yerlərdə əvvəl-axır demokratik cumhuriyyət qurulacaq. Rusiya imperiyasının son qalıqlarını təmizlədikdən sonra. Hələlik İslam tək birləşdirici amil olduğundan bunun mənfi nəticələrindən çox müsbəti üzərində dayanmaq daha doğru olar.

Son vaxtlar Dağıstanda baş verən hadisələrin fonunda Azərbaycanda maraqlı, bir az da həyəcanlı gözləmə var. İrandan Mahir Cavadovun İslam respublikasının qurulmasının vacibliyi haqqında müdrik mülahizələri ilə bərabər rəsmi hakimiyyət təmsilçilərindən birinin mətbuatda açıqladığı kimi; «Azərbaycanda heç zaman islam dövləti qurula bilməz» kəlamları da cəmiyyətdə eyni laqeydliklə qarşılansa da, kimsə hansı təhlükənin qapıda dayandığına açıqlama gətirməyə meyl göstərmədi.

Əslində islam haqqında təsəvvürü olanlar bir məsələdə vətəndaşlarımıza qəti təminat verə bilərlər. O da məmləkətimizdə İslam dövlətinin heç zaman qurulmayacağıdır. Ən azı Azərbaycanda İslam bir din olaraq əsl mənası ilə qəbul olunmayana qədər. Əlbəttə, deyəcəklər ki, bizdə islamı xatırladacaq saysız-hesabsız atributlar var. Məscidləri, mollaları, sinəzənləri, şeyxülislamı, şeyx adlanan bəzi kimsələri, Türkiyədən, İrandan, Ərəbistandan gətirilmiş və evlərin baş köşəsində qorunub saxlanan Quran kitablarını, mərsiyyələrini və daha nələrini, kimlərini gətirib gözümüzə soxacaqlar və bu da sizə İslam, deyəcəklər. Doğurdan da bunların hamısı var. Üstəlik də İslam adında hətta partiyaya da bu

məmləkətdə rast gələ bilərsiniz. Bütün bunlardan kifayətedici səviyyədə bolluqdur, amma deyəsən olmayan şeyin özü elə islamdır- Məhəmməd peyğəmbərin təbliğ etdiyi islam. O islam ki, hər şeydən öncə saf imana dayanır və sözün bütün qüdrəti ilə insandan «xeyrül-əməl» tələb edir. Yəni dilinizdə olan, qəlbinizdə olan həm də əməlinizdə olmalıdır xeyrli işlər görmək əsas həyat məqsədiniz olmalıdır. Və mən hesab edirəm ki, bu xeyrli işlərdən biri də zülmə qarşı mübarizə aparmaqdır.

İndi götürüb İslam adı ilə cəmiyyətə tanıdılan ünsürlərin əməllərinin kiçicik bir qismini müqayisə edin. Yadıma düşdü ki, İslam partiyasının indi həbsxanada yatan sədri H.Əliyevlə birlikdə Təzə Pir məscidini ziyarət edərkən onu mədh edən bir nitq də söylədi və H.Əliyevi hardasa evliyalarla bərabərləşdirən çıxışlar etdi. Eyni məzmunlu çıxışı şeyxülislam deyilən Paşazadə cənabları da Bibiheybət məscidində yapdı. İndi də İslam partiyasının mübarək yeni sədri «Mən inanmıram ki, H.Əliyev torpaqlarımızı versin!» deyə şəhadət gətirir. Və sonra da Elçibəyi tənəli şəkildə tənqid edərək «Şeyxlə biz eyni zonadanıq» deyə onun əməllərinə bəraət qazandırmağa çalışır. Əslində eyni zonadanıq kəlamını «eyni imana sahibik» kimi yorumlamaq daha yerində olardı. Və bütün bunların tamamlayıcı akkordunu da elə onlarla eyni imandan olan Tahir Cəfərli adlı birisi vuraraq eyni məntiqlə «Türklər Bakını fahişəxanaya çeviriblər» deyir. Bu sözlərdən sonra az qalırsan yaxasından tutub aparasan Tehrana və orada onun sevdiyi fars mollalarının nə işlə məşğul olduğu haqqında camaatdan lətifələr dinləyə. Yəqin ki, bilməmiş olmaz. Amma bir şeyi də xatırlatmaq lazım ki, 1918-ci ildə Bakını T. Cəfərlinin arzuladığı fahişəxanaya çevirənlərdən elə Türklər gəlib xilas etdilər. Yəni biz Türklərin babaları olan Türklər. Bu türklərin isə T.Cəfərliyə bütün yönlərdən heç bir aidiyyatı yoxdur.

Bütün bunları bir-bir gözdən keçirəndən sonra əmin olarsınız ki, Azərbaycanda İslam dövləti qurulmayacaq. Yəni gərək islam olsun ki, onun dövlətini də qurmaqdan söhbət getsin. Bu məmləkətdə imanı kamil olub evinin köşəsində ibadət edib, ayrı-ayrı din xadimi sayılanların gəlir obyektinə çevrilən məscidlərdə ibadətdən uzaqda

duran onlarla nurani qoca-cavan tanıyıram. Amma onların sayı çox-çox azdır. Əvəzində məhərrəmlikdən başqa İslamı təsəvvür edə bilməyən, Xomeyninin şəklini evinin baş köşəsində gəzdirən, zalım hökmdara məddahlıq edən, öz millətinə qarşı Fars dövlətinin xeyrinə İslamçı adı altında casusluq edən, adının qabağına şeyx, hacı, məşhədi, kərbəlayı və başqa təşbehlər qoşmağına baxmayaraq «xeyrül-əməl» işləri olmayanların, Quranı bir tərəfə buraxaraq falçılıqla, nəzirbazlıqla məşğul olanların İslamı güclüdür. Onlar baş örtüsü ilə şəkil çəkdirməyin vacibliyinin davasını edirlər, amma bir dəfə də olsun qandaşlarını girov saxlayan, torpaqlarımızı işğal edən İran əleyhinə dillərindən bir kəlmə çıxarmazlar. Onlar Amerikanı, İsraili söydükləri kimi Rusiyanı, Ermənistanı söyməzlər, çünki İran belə istəyir. Bunun harası müsəlmanlıq oldu. Doğrudanmı biz bu gün düşmənimiz ermənilərlə onlara hər cür dəstək verən, qəlbən onların müsəlman deyilən bizləri sıradan çıxarmasına sevinən yaşıl, boz, mavi, ağ sarıqlı İran mollaları arasında eyniliyi görməyəcək qədər koruq? Yadıma qəzetlərdə gedən bir məlumata verilən reaksiyalar düşdü. Deyilirdi ki, hansısa xristian sektasının missionerləri Azərbaycanda 10 minə yaxın adamı xristianlığa cəlb edə biliblər. Bunu olduqca dəhşətli hadisə kimi qiymətləndirirən müsahibimə verdiyim cavab olduqca təəccüblə qarşılandı. Dedim ki, bu məmləkətdə pirə, nəzirə, ayrı-ayrı müqəddəs sayılan şəxslərə, qəbirlərə inananlar, sidq ürəklə Allaha inanların sayından qat-qat çoxdur. Bu halda heç olmazsa 10 min adam Həzrəti İsa vasitəsi ilə Allahın təkliyini iman gətirirsə, bundan niyə narahat olmalıyıq. Nə vasitə ilə olursa-olsun bu məmləkət insanlarını başqa bütlərdən xilas edib Allaha imana gətirmək lazım. O zaman bu məmləkətdə nə zalim hökmdar yetişəcək, nə erməniyə, nə rusa, nə farsa məğlub olacağıq və bütün bir millət olaraq da bir-birimizə sevgi ilə yanaşacağıq.

Çeçenistanda və Dağıstanda İslam, cəmiyyətin əsas təşkilatlandırıcı faktorudur. Dağıstanda 60-a yaxın millətin birləşdirici amili ya süni hazırlanmış «vahid sovet ailəsi» modeli, ya da insanlarını imanına dayanan İslam ümməti anlayışı ola bilər. Çeçenistanda da sosial deformasiyaya uğramış bir millət gerçəyindən çıxış etmək uğursuz nəticə doğurardı. Burada da ruslara qarşı dirənişin aparıcı faktoru olaraq islamın cihad anlayışı ola bilərdi.

Bunu Qazı Məhəmmədin, Həmzətin, Şeyx Şamilin təcrübəsi göstərib. Ancaq bu model Azərbaycana heç vaxt tətbiq olunmayacaq. Çünki bizdə farsların uzun əsrlərdən bəri öz milli məfkurələrinə uyğun gələn İslam anlayışı hakimdir. Yəni Azərbaycanda İslam dövləti qurulmayacaq. Modelimiz Türklərin məfkurə hegemonluğuna dayanan demokratik cumhuriyyətdir. Amma bu cumhuriyyətin qurulmasının əsas şərtlərindən biri Türklərin İslam anlayışının cəmiyyətdə hakim mövqeyə keçməsidir. Bunun üçünsə dişə-diş mübarizə aparmaq lazımdır. Necə ki, şairin deyimi yerinə düşür:

Ərəbcə istəyən Urbana getsin,
Əcəmcə istəyən İrana getsin,
Firəngilər Firəngistana getsin,
Biz ki, Türküz, bizə Türkü gərəkdir.

## İDEALIMIZ VƏ HƏDƏFİMİZ HAQQINDA

Azərbaycan Türkünün idealı və hədəfləri haqqında təsəvvürlər aydınların və düşünürlərin mübahisələrində uzun müddət öz son şəklini ala bilməmişdir. İdeal məfhumu hədəfdən daha geniş və daha real görünməyən məsələləri də əhatə edə bilər. Ancaq bir cəmiyyət üçün nəyin hədəf, nəyinsə ideal kateqoriyasına daxil olmasını müəyyən etmək elə də asan deyil. Burada mistik anlayışla münasibət bildirərək, bütün insan cəmiyyəti üçün ən son idealın Allahın qatında yüksək mərtəbəyə yetişmək sayıldığını söyləməklə son nöqtəni qoymaq da olardı. Ancaq insan nə qədər ki, bu sınaq dünyasının içindədir, onu buradakı mahiyyətində yüksəliş ideyası hər zaman düşündürür. Eləcə də ayrı-ayrı insanların təşkil etdiyi millətləri də bir yüksəliş ideyası öz cazibəsində saxlayır.

Hər halda bir cəmiyyətin idealı mütləq onun fərdlərinin dünyagörüşü ilə sıx bağlıdır. Yəni cəmiyyət üçün ideal təqdimatı ilə çıxış edən bir aydının bu təqdimatı cəmiyyət üzvlərinin dünyagörüşünə uyğun gəlmədiyində və cəmiyyətin tarixi-psixoloji duyğuları ilə üst-üstə düşmədiyində onun mənimsənilməsi də çətinliklərlə qarşılanır. İnsanlar və onların təşkil etdikləri cəmiyyətlər bütün başqa varlıqlar kimi əbədi olmadıqlarından onların ideallarını da mütləq kateqoriya kimi anlatmaq mümkün deyil. Qurani Kərimdə: «Hər ümmətin bir əcəli vardır. Əcəlləri gəldiyi zaman artıq nə bir saat geri qalarlar, nə də irəli gedərlər» ayəsində bunun işarəsini açıqca görürük. Biz ona görə də israr edirik ki, bir millətin tarixini hər nəsil özü təkrar-təkrar yazmalıdır. Buna uyğun olaraq da hər nəsil millətin idealına uyğun öz hədəflərini müəyyən etməlidir. Bunun üçün cəmiyyətin hər zaman mərhələsində özəl bir ideoloqa sahib olmasına da ciddi bir zərurət yoxdur. Əslində bəzən süni tərzdə ideoloqluq iddiasına düşmüş kimsələrin təqdim etdikləri modellər cəmiyyət üçün ya həddən artıq xəyalçı, ya da elmi baxımdan ciddi əsaslandırılmamış, cəmiyyətin yalnız vətənsevərlik emosiyasına dayanan tərzdə qarşımıza çıxır. Bu gün bizim hədəfimizi çaş-baş salmamızın başlıca səbəbi bir ideal boşluğudur. İlk öncə millətin idealı hazırlanır və cəmiyyət üçün anlaşılan bir şəkildə təqdim

olunur. Ardınca da bu təməl üzərində dövrün aydınları, filosofları, sosioloqları bu cəmiyyət üçün yaxın hədəflər haqqında düşüncələrini ortaya qoyurlar. Siyasətçilər də bu hədəflərə doğru real proqramlarla cəmiyyəti hərəkətə gətirirlər. Bu mövzuda Azərbaycan Türkləri üçün bariz bir nümunə olaraq Ə.Hüseynzadənin XX əsrin başlarında təqdim etdiyi «Türkləşmək, İslamlaşmaq, Çağdaşlaşmaq« şüarını göstərə bilərik. Bilindiyi kimi, Əli bəy bu şüarla Türk yaşamından qaynaqlanmanı, Tanrıya İslam qaydalarına görə ibadət etməyi və çağdaş Avropa tərəqqisini mənimsəməyi nəzərdə tutmuşdur. Ancaq bu şüar keçici və gəlişi gözəl bir söz kimi qalmadı, cəmiyyətin gerçəkləri və təbiəti ilə uzlaşdığına görə cəmiyyət tərəfindən özününküləşdirilməyə başlandı. İlk öncə M.Ə. Rəsulzadə onu bayraq üzərində heykəlləşdirdi və bir ulusun simvoluna çevrilməsinə çalışdı. İndi bu idealın bütün komponentlərinin açıqlanmasına ehtiyac var. Demək ki, var olan bir idealın zamanın insanları tərəfindən anlaşılmasına yardım edəcək yozumları, şərhləri, təfsirləri ortaya qoymaq lazım gəlir. Bunun açıqlanmadığı bir şəraitdə cəmiyyəti öz ideallarına sadiq qalmamaqda və ya hədəfsizlikdə suçlamaq ədalətsiz sayıla bilər.

Azərbaycan Türkləri üçün idealın şəkilləndirilməsi işini yalnız zamanın axarına buraxmış olarsaq, o zaman meydan kiçik intriqalara, sapıq, yanlış görüşlərə, gərəksiz hədəflərlə savaşa buraxılacaq. Sonradan bu təzahürlərin ortadan qaldırılması üçün daha böyük enerji sərf etməli olacağıq. Ona görə də Qərb filosoflarından Kondorket haqlı olaraq yazmış ki, filosofların aydınlatmadığı cəmiyyəti, şarlatanlar aldadır. Məgər bu gün Azərbaycanda bunun nümunəsini görmürükmü? Cəmiyyətin bütün enerjisi hakimiyyət vasitəsi ilə ona zülm edən bir zümrənin dəf olmasına yönəlib. Millətin ideal və hədəflərini idrak edərək cəmiyyəti aydınladan düşünürlər olmadıqca Azərbaycanda bu gün olduğu kimi hər zaman hakimiyyətə şarlatanların yolu açıq olacaqdır. Cəmiyyəti bütün enerjisi ilə hərəkətə keçirəcək gizli gücü- millətin idealı məfhumunu bir daha dəqiqləşdirmək lazımdır.

Günümüzün Azərbaycan Türkünün ideal axtarışlarını sağlam bir nəticəyə doğru gətirmək üçün savaşda uduzmağın, bütöv bir dövlət

halında birləşə bilməmənin, öz dövlət hakimiyyətinin düşmən ünsürlər tərəfindən idarə olunmasına dözüm göstərmənin, iman dəyərlərinin olmamasının və başqa məsələlərin sirləri çözülməlidir.

Filosoflar; milləti, ortaq duyğular və ideallar və ya ortaq sözləşmələr ətrafında toplanan bir-birinə dəstəkverici zümrə kimi təqdim edərlər. Əslində milli idealı olmayan millətlər şüurlu sayıla bilməz. Əslində Azərbaycan Türkü üçün günümüzün şərtlərində «Türkləşmək, İslamlaşmaq, Çağdaşlaşmaq» formulundan kənarda hər hansı bir resept axtarmağa da elə bir zərurət görünmür. Ancaq bu formulun da düşünürlər tərəfindən elmi şərhini vermək və cəmiyət üçün bir ideal dəyərində sabitlik qazanması üçün həm yaşadığımız, həm də gələcək zamanın şərtlərinə uyğun yenidən anladılmasına ehtiyac var. Bununla belə Azərbaycan Türklərinin idealı haqqında fikir bildirərkən mütləq bəlli komplekslərin təsirindən qurtulmamız da lazım gəlir. Mütləq Türklük görüşünü müdafiə edərək İslamı kənara qoya bilməyəcəyimiz kimi, mütləq bir islamçı xətti əsas tutaraq Türklüyü, demokratiyanı, çağdaş Qərb dəyərlərini də ortadan qaldıra bilməyəcəyimizə görə millətin idealı mövzusunda düşünərkən və ya görüşlərimizi təqdim edərkən komplekslərin təsirinə düşməkdən də qorunmalıyıq. Əslində güclü bir millət olmağa, dünyada ciddi söz sahibi olacaq dövlət qurmağa yönəlmiş həyacan mühiti yaratmaq üçün sosial çağrışlar hər zaman olacaqdır. Buna cəmiyyətin hazırlanması və sağlam reaksiya verməsi üçün doğru şəkilləndirilmiş və bəzi komplekslərin təsirlərindən qurtularaq hazırlanmış ideal məsələsi yenə də qarşımızda duracaqdır.

# 21-Cİ YÜZ İL - ÜÇÜNCÜ ALMA

İnsanların uydurduqları zaman təqviminə inanarsaq, 20-ci yüz ilin kürəyini yerə vurduğumuzu söyləyə bilərik. Bu məntiqlə bizlərin şanslı insanlar olduğunu da söyləmək mümkündür. Çünki çoxları üçün heç bir əsrdən o biri əsrə keçid qismət olmadığı halda bizlərə üstəlik bir minillikdən o birinə də keçid də qismət olmuş və ən azı baş daşımızın üstündə rəqəmlərin düzülüşünü daha maraqla seyr edəcəklər.

Uşaqlığımızdan bəri bizlərə danışılan nağıllardan xatirəmizdə bir Ağ Atlı oğlan obrazı qalmış. Fövqəladə gücü ilə dar məqamda xeyirli insanların yardımına çatar, pislər üzərində qələbə çalmasında onların dəstəkçisi olardı. Və bu Ağ atlı oğlanın qatıldığı bütün epizodlarda nağıllar xoş bir sonluqla tamamlanardı. Uşaqkən bu Ağ atlı oğlan bütün ümidlərimizin baş personajı olmuşdu. Düşünürdük ki, o qəhrəman bir gün gələcək, ümidsiz anlarımızda əlimizdən tutub aydınlıq dünyaya daşıyacaq bizi. Sonralar Türk yazarı Çingiz Aytmatov bunun çağdaş formulu kimi Ağ gəmini ortaya çıxardı. Bu nağılda yatan həsrət böyüyənə qədər içimizdə təsirini saxladı. Böyüyüb cəmiyyət içində yerimizi aldıq. Allahın qatında olmasa da hər halda cəmiyyətin gözündə öz yerimizi yaxşı-pis müəyyən etdik. Anladıq ki, uşaqkən hamımızın böyümək arzumuz vardı və bu arzumuza çatdıqca Ağ atlı oğlan haqqında təsəvvürlərimiz də bizlərdən addım- addım uzaqlaşmağa başlayıb. İndi böyüklərin məntiqindən bu nağılı izah edərkən görərik ki, nağılda yer alan xeyrxah insanlar aydınlıq bir dünyaya qovuşmaq istəyən insanlardı və pislər öz pis niyyətləri üçün onların arzu etdikləri həyata qovuşmasına əngəl olmağa çalışırlar. Bütün mübarizələrinə baxmayaraq pislərə üstün gələ bilmədikləri anda Ağ atlı oğlan gəlib onları qələbəyə çatdırırdı. İndi bu nağıldakı süjeti əsas alaraq soruşaq: Biz kimik, necə bir cəmiyyətik, idealımız nədir və aydınlıq bir dünya istəyirikmi. Axı o Ağ atlı oğlan idealı, işığı olan cəmiyyətlərin, insanların mənəvi yardımçısıydı. İndi bu Ağ atlı qəhrəmanı yanımıza çağıracaq bir idelımız, işığımız, cəhdimiz varmı? O qəhrəman getmək istədiyimiz bir yer, çatmaq istədiyimiz

bir ideal yoxdursa haraya götürəcək, hansı aydınlığa çıxaracaq bizləri? Qurtuluşu istəməyən və ya axtarmayan bir millәti niyə və necə qurtuluşa çıxarsın axı.

Artıq XX əsrin nağılı başa çatır. Hələ Ağ atlı qəhrəmanın gəlişi bir yana qalsın, bu nağılın sonunda bizlərə Allahın üç alma göndərəcəyini gözləyənlər bir az çaş-baş qalıblar. Hanı o almalar. Nağılların sonunda göndərilən almaları cənnət almaları kimi də anlamaq olar. Yəni insanlara, millətlərə əməllərinə görə verilən ilahi mükafat mənasında. Əslində XX yüz ildə gözlədiyimiz o iki alma qismət oldu. 1918-ci ildə qurduğumuz Azərbaycan Demokratik Cumhuriyyəti və 1992-ci ildə qurduğumuz müstəqil Azərbaycan Cumhuriyyəti oldu. Biz Azərbaycan Türklərinin tarixdə aparıcı gücünü təşkil etdiyimiz çox dövlətlər olmuş. Ancaq bu sonuncular məhz bizlərə, bizim ideallara dayanan özbəöz demokratik Türk dövlətləri idi. Bu həm də azadlıq nağılımızın sonunda qismətimizə düşən almalardı. Bəlkə səbrimiz bir az yerində olarsa anlarıq ki, yüz il bundan əvvəl irəlidə gələnlərimizin əsas problemləri nə idi. Onlar Çar Rusiyasının tərkibində heç olmazsa mədəni haqlara sahib olmaq üçün mübarizə aparırdılar. Onlar təzə-təzə teatrlarımızı yaradır, öz dilimizdə qəzetlər, dərgilər açırdılar. Millətin böyük bir hissəsi oxumaq-yazmaqdan məhrum idi. O dövr üçün də erməni-rus zorakılığı məsələsi indikindən fərqli deyildi. Ancaq bunları adlayaraq bütün millətlərlə sivil münasibətlər qurmaq mərhələsinə yetişə bildik. Ən əsası isə heç də bütün millətlərə nəsib olmayan bir iradəni, öz müstəqil dövlətini yaratmaq iradəsini ortaya qoyduq. Hər millətin strateji planları olur. Yüz il bundan əvvəl nə zamansa dalğalanacaq dövlət bayrağımızın olacağı baş tutmaz bir xəyal kimi görünürdü. 1918-ci ildə bu bayraq qaldırıldı. Rusiya daxilində mədəni muxtariyyət qazanmağı böyük hadisə hesab etdiyimiz halda, birdən-birə dünya dövlətləri sırasında öz müstəqil dövlətimizin adını duyura bildik. Sovet işğalından sonra yenə də özümüzdə güc taparaq 1992-ci ildə ikinci dəfə dünya arenasında öz yerimizi bərpa etdik. XXI yüz ilə də biz müstəqil bir dövlət kimi giririk. Torpaqlarımızın işğal altında olması və bunun qarşısını almaq üçün taqətsiz vəziyyətə salındığımız etiraf olunmalıdır. Hakimiyyətimizin daha təhlükəli bir zümrənin əlində olması da milli uğursuzluğumuzdur. Ancaq bu təməl

üzərində XXI əsrdə biz üçüncü demokratik Türk cumhuriyyətimizi qurmalıyıq. XXI əsrə bu hədəflə də başlamalıyıq.

XX yüz ilin nağılı tamamlandı. Ağ atlı qəhrəmanın gəlməsi üçün heç bir iradə və şərait ortaya qoymadıq. Göydən də üç almadan yalnız ikisi göndərildi. Birincisinin qabığını Nərimanov soyub bolşeviklərə yedirdi, ikincisinin də H. Əliyev soyub özü yedi. XXI yüz ildə imanımızı saflaşdırarsaq, iradəmizi ortaya qoyarsaq üçüncü alma da- üçüncü demokratik Türk cumhuriyyəti də qismətimiz olacaq. İmanlı, iradəli olsaq onu kiminsə qapmasına, kiminsə soymasına, kiminsə yeməsinə imkan verməyəcəyik. Mən indi anladım ki, Ağ atlı qəhrəman yalnız göndərilən almasını qoruya bilən millətlər üçün gəlir və onları aydınlıq dünyaya aparır.

XXI yüz ilə bu iradə ilə baxanların yeni minilliyinə salamlar olsun!

## SEPARATÇILARIN AÇIQ MƏKTUBUNA ALNIAÇIQ CAVAB

Onlar AXCP lideri Əbülfəz Elçibəyə açıq məktub yazmışlar. Söhbət Türklərə xüsusi nifrətli təmayülü ilə seçilən «İmpuls» qəzetində dərc olunmuş 13. 08. 1999-cu il tarixli açıq məktubdan gedir. Altına da professor, namizəd və ziyalı titullu kimsələr imza atmış. İmzaların içində Azərbaycanın parçalanmsı üçün fəaliyyəti haqqında bilgilərimiz olan bəzi kimsələri tanıdığımızdan məktubu cavabsız qoymaq istəmədik. Yəqin ki, buna reaksiya verəcək aydınlarımız öz sözləri ilə bu cür təhlükəli məqamları diqqətdən kənarda qoymayacaqlar. Hər halda millətimizin və dövlətimizin gələcəyinə toxunan elə təhlükəli məqamlar var ki. bunları öz vücudumuzu qorumaq naminə cavabsız buraxmağımız yolverilməzdir və hər birimiz sağlam məntiqlə dərhal cavab verməyə borcluyuq. Məktubdakı üslub savadsızlığından və tərbiyəsiz ifadələrdən də anlaşılır ki. onlar hətta bir çox məsələləri məktub yazana qədər anlayacaq mərtəbəyə yetişməmişlər. Elə məktubun başlığına diqqət yetirsəniz dediklərimizin sübutunu orada tapa bilərsiniz. Son vaxtlar Türk soy adlarına ikrah duyan kimsələr qəsdən köhnə sovet dövründə yayqın olmuş soyadları işlətməyə xüsusi cəhd edirlər. İkinci tərəfdən isə Əbülfəz Əliyev 1990-cı ildən özünə soyad olaraq «Elçibəy» adını götürmüş və siyasi kimliyi bu soyadla bütün dünyada tanınmışdır. Bu hər bir insanın iradəsi ilə bağlı məsələdir və insanların bu seçiminə xoşlayıb-xoşlamamaqdan asılı olmayaraq hörmət edilməlidir. Misal üçün, əgər Araz və Zərdüşt qardaşları özlərinə Əlizadə soy adını götürüblərsə, bizim onlara Əliyev, Mübarizoğlu və daha kimoğlu deyə müraciət etməyimiz tərbiyədənkənar bir hərəkət olardı. Buna baxmayaraq bəzi özünü tanımayan şəxslər mazoxistcəsinə Əbülfəz Əliyev ifadəsini işlətməyə davam edirlər və bundan zövq alırlar. Bu məktubda da həmin xəstəliyin əlamətləri elə başlanğıcdan hiss olunur. Təbii ki, bu məktubun yazılmasından Allahşükür Paşazadənin xəbəri olmamış deyil və məktubun başlarında Əliyev haqqında deyilən boğazdan yuxarı təşbehlər də bunu söyləməyə əsas verir. Mən bunların bir dəfə

adını vermişəm. İmam Hüseynə ağlayıb Yezidə ibadət edənlər! Yaxşı ki, məktubda da Yezid və İmam Hüseyn mövzusuna toxunublar və istifadə etməyə çalışdıqları əsassız arqumentəbənzər şeylərə diqqət yetirsəniz, bunlara verdiyimiz tərifin nə qədər yerində olduğunu anlarsınız. Elə öz cümlələrinizdən kimliyinizi tanıtmağa çalışaq. Yazırsınız ki, «Xalq həyatında elə dəyərlər var ki, bunlar müqəddəs məfhumlar cərgəsinə daxildir. Onlara hörmət etmək, ehtiram bəsləmək təmsil olunduqları xalqın bütün üzvlərinin borcudur. Prezidentlik və Şeyxülislamlıq da elə bu qəbildəndir.» Bunu anladıq. Ancaq sizin beyət etdiyiniz Prezidenti və Şeyxülislamı bu xalq seçməmişsə, onda necə? Sizin beyət etdiyiniz Prezident və Şeyxülislam haramı halaldan üst mərtəbəyə qaldırmışsa onda necə. Bəs müqəddəs islamın zülmə qarşı mübarizə fəlsəfəsinin mahiyyətini haraya qoyaq? İmam Hüseyn ədalət uğrunda həlak olmuş və bu qədər içində ədalətsizlik yatan adamların imam Hüseyndən niyə əl çəkmədiklərini hər zaman təəccüblə qarşılayıram. İndi də bizlərə ağıl öyrətməyə qalxıb söyləyirsiniz ki, Şeyxülislam bütün millətin mənəvi atası hesab olunur. Bir çox məqamlarla tanış olduğumuzdan, özünüz də gözəl bilirsiniz ki, bütün əməlləri ilə söylədiyiniz şəxs ancaq və ancaq sizlərin mənəvi atanız ola bilər. Necə ki, 1993-cü ilin hadisələrində sizlərin də dəstəklədiyiniz separatçılıq hərəkətlərində bu açıqca göründü. İndi də yazırınız ki, Elçibəydən olsa, sərhədi Səlyandan qoyub yuxarıya Cənub bölgəsindən kimsəni buraxmaz. Bu işi sizlərin də ideoloqluq etdiyiniz Ə.Hümbətov bir dəfə reallaşdırmağa cəhd etdiyindən öz rəzil niyyətlərinizi başqalarının adı ilə bağlamağa çalışmayın. 1993-cü ildə Azərbaycanı sizin xatırlatdığınız sxem üzrə parçalamağa cəhd etdiyinizdən, gələcəkdə də bu əməllərinizdən əl çəkmədiyiniz necə deyərlər indiki «qırımınızdan» da bəlli olur.

Bir də həyəcanla yazırsınız ki, nə haqla Elçibəy, H.Əliyevi PKK məsələsində, Allahşükür Paşazadəni isə KQB ilə əlaqədə ittiham etmişdir. Ərz edək ki, bütün bunlar yalnız siyasi xarakterli ittahamlardır və əsasən ittiham olunan şəxslərin özləri bunu cavablandırmalıdır. Amma yazınızın arxasındakı niyyətdən asanca sezmək olur ki. içinizdə H.Əliyevə aid ittihama münasibət bildirməyə maraqlı deyilsiniz. Ancaq hərəkətləri çox zaman sizlər

tərəfindən rəğbətlə qarşılanan Kürd Fəhlə Partiyasının ünvanına deyilənlərdən görünür narahat olursunuz. Çünki indiyə qədər dəstək verdiyiniz hərəkətlərə görə əslində sizlərin çoxu da Azərbaycan üçün PKK-dan daha böyük təhlükə törətməkdəsiniz. Bəxtiniz bir şeydə gətirib ki, bu gün Azərbaycan dövləti burnunun ucundan qabağı görməyənlər tərəfindən girov götürülüb və sizin kimi separatçılıq virusunu daşıyanlarla mübarizə aparmaq yerinə ailə sərvətini artırmaqdan başqa bir şey düşünmürlər. Bu məktubdan da anlaşılır ki, bir zaman Ə. Hümbətova duyduğunuz sevginin eynisini PKK-ya da duyursunuz. Belə olmasaydı, sözü gedən məktubda bu adı heç xatırlatmazdınız.

Həm də bu açıq məktuba imza atanlar görünür öz ixtisas sahələrinə yetərli səviyyədə bələd olmadıqlarına görə faktla mülahizənin fərqli məfhumlar olduğunu anlamaqda çətinlik çəkmişlər. Onların guya Elçibəyi ifşa etmək üçün ayrı-ayrı kitab və məqalələrdən gətirdikləri iqtibasların subyektiv mülahizələr olduğunu unudaraq bunları hər dəfə fakt kimi soxuşdurmaya çalışmışlar. A.Nehrəmli adlı bir geri zəkalının Elçibəyin guya Misirdə olarkən əvvəlcə DTK, sonra Ərəb ölkələrindən birinin kəşfiyyat orqanlarından biri ilə, ən nəhayət isə İran kəşfiyyat orqanları ilə əməkdaşlıq etməsi, ardınca da Harun Yəhya adlı başqa bir geri zəkalının onun ABŞ və İsrail kəşfiyyatı ilə əlaqələri haqqında, anonim bir müəllifin də onun Türkiyə ilə əlaqələri haqqında yazdıqlarından başqa bir şeyə istinad edə bilmirsiniz. Olmayan ağlınızla düşünə bilsəniz belə, görəcəksiniz ki, bir-birinə zidd mövqelərdə olan bir neçə ölkənin kəşfiyyat orqanı ilə eyni zamanda əməkdaşlıq etmək elə dünyanı idarə etmək mənasına gəlir. Həm də eyni zamanda həm ABŞ, həm İran, həm də DTK kimi təşkilatlara işləməyin necə gülünc versiya olduğunu görə bilməməyiniz bir yana, ömrünü İranın parçalanması və Azərbaycanın bütövləşməsi idealına həsr etmiş bir siyasi şəxsiyyəti bilavasitə İran kəşfiyyatı ilə əlaqələndirən mülahizələrə dəstək vermənizi anlamaq mümkün deyil. Elçibəy İranla bağlı olsaydı, daha siz niyə ona təhqiredici açıq məktub yazırdınız və «İmpuls» qəzeti də niyə onu dərc edirdi. Bunu sadəcə sizlərə icazə verməzdilər, cənab separatçılar! Digər tərəfdən kəşfiyyat orqanları ilə əməkdaşlaq bütün

separatçılarda olduğu kimi sizlərin də qaşınan yeriniz olduğu üçün bir neçə məsələdə qərəzli mövqeyinizə açıqlıq gətirmək lazım gəlir. Yuxarıda adı keçən müəlliflərin ortaya atdığı tezislər sizlərə də doğma gələn İran ETTELAT-nın mətbəxində hazırlanmış və görünür bu tezisləri inkişaf etdirmək sizlərin vəzifə öhdəliyinizə daxil olduğundan bunun cəfəngiyyatdan başqa bir şey olmadığının fərqinə varmamısınız. Ən azı Elçibəyin həyatının Misir dövrü ilə bağlı 13 avqust 1999-cu il tarixli «Yeni Müsavat» qəzetində gedən müsahibəsində Rəşid Behbudovun xanımının söylədiklərini oxuduqdan sonra bizim A.Nehrəmli və ya Harun Yəhya deyilən kimsələr haqqında işlətdiyimiz «geri zəkalı» ifadəsinin nə qədər yerində olduğunu görəcəksiniz.

Burada bir epizodu da mütləq diqqət mərkəzinə gətirməliyik. Bu məktuba imza atanların kimliyini diqqətlə araşdırdıqda, onların həm talış separatçıları, həm də talış xalqının düşmənləri olduğu qənaətinə gələ bilərsiniz. Ona görə də bu imzaları diqqətdə saxlamaq gələcək baxımından faydalıdır. Həm Azərbaycan xalqı gələcək separatçıları, onların zəhər verənlərini tanımış olar, həm də talış camaatı onları fəlakətə sürükləyənlərin kimlər olduğunu açıqca anlayarlar. Onlardan bəzilərinin əməli fəaliyyətləri ilə yaxından tanış olduğumuz üçün bunu açıqca söyləməkdən çəkinmirik. Soruşa bilərsiniz ki, bu iki keyfiyyət eyni zamanda necə bir yerdə ola bilir. Onda açıq məktubun məzmununa bir daha diqqət yetirin. Bütün məktubun ruhunda əslində Əlikram Hümbətovun separatçılığına bəraət qazandırmaq niyyəti yatır. Onlar bu hadisəni sanki Elçibəyin günahı kimi təqdim etməklə adiləşdirməyə, hətta bəraətverici tonda anlatmağa çalışırlar. Üstəlik də Ə.Hümbətovun H.Əliyev tərəfindən cəzalandırılmasını xatırlarsaq, H.Əliyevi tərifləməklərindən də nə qədər cəsarətsiz insanlar olduqlarını göstərirlər. Çünki indiki rejimin bütün Azərbaycana, o cümlədən də Cənub bölgəsinə gətirdiyi fəlakətlərdən bir kəlmə də yazmağa cəsarəti çatmayan bu məxluqlar mən əminəm ki. Elçibəyin prezidentliyi dövründə də belə bir şeyə imza atmazdılar. Çünki onlar haqqa deyil, bütün dövrlərdə taxta xidmət edənlərdir. Əlikram Hümbətovları da vətənin parçalanmasına sövq edənlərin başında da talış xalqının adından danışan və özlərinə ziyalı adı verən bu cür kimsələr gəlir. Sovet dövründə Talış, Ləzgi, Kürd adı ilə

seçilərək irəli çəkilən, müxtəlif titullar almalarına şərait yaradılan, hüquq-mühafizə orqanlarında şəbəkələr qurmağa imkan verilən bu kimsələr sonradan kənar yönləndirmələrlə separatçı hərəkatların başına gətirilir və öz millətlərinin başına bəlaya çevrilirlər. Bu gün doğrudanmı Ə. Hümbətovun hərəkətlərinin talış xalqının özünü nə qədər zərbə altında qoyduğunu anlayacaq qədər bu adamlar yetişmiş deyillər?

Məktubda iddia olunur ki, Cənub bölgəsinin bütün fəlakətləri Elçibəyin bir illik hakimiyyəti ilə bağlıdır. Hətta 24 nəfər Cənub bölgəsindən olan şəxsin vəzifədən azad olunmasını da Elçibəy hakimiyyətinin məqsədyönlü siyasətinin nəticəsi kimi qiymətləndirirlər. Biz əlbəttə ki, bu mövzuda strateji araşdırma aparmamışıq, ancaq adı çəkilən o 24 nəfərin siyahısını qoy qəzetlərdə dərc edib göstərsinlər ki, onlar vətən qarşısında hansı xidmətlərə sahibdirlər və işdən çıxarılmaları necə olub ki, bir neçə separatçını bu cür möhkəm narahat edib. Elçibəy hakimiyyətində vəzifələrə təyinat bölgə mənsubiyyəti üzrə aparılmadığından bu barədə gəlir-çıxarı da heç bir zaman hesablamağa meyl olmamışdır. Azərbaycan dövlətinin güclənməsi istiqamətində fəaliyyəti bilinən hansısa işdən çıxarılmış kadrın adını çəkərsiniz, hər halda sizlərin kimləri müdafiə etdiyiniz də millətimizə əyan olar. Bir də Elçibəyin bir illik hakimiyyəti dövründə əhalinin vəziyyətini indiki ilə müqayisə edin. Özünüz də görəcəksiniz ki, kiçik nöqsanlar istisna olmaqla, xalqın iradəsinə uyğun hakimiyyət formalaşırdı. İndi gedib sadə bir talış kəndlisinə söyləyəsən ki, belə bir məktubu imzalayanlar həmin hakimiyyətin devrilməsində iştirak edən şəxslərdəndir və H.Əliyev hakimiyyətinin gəlməsini qəlbən arzulamışlar, o talış kəndlisi mütləq onlardan soruşar: indi necə, Elçibəydən sonrakı 6 ildə yaşayışımızı gözəlləşdirə bildinizmi? Hamısı da gözəl bilir ki, yox. O zaman həmin sadə talış kəndlisi söyləyəcək ki. bu son 6 ilin fəlakətlərini yazmağa cəsarətiniz və kişiliyiniz çatmırsa, nə haqla mənim mənafeyimin müdafiəçisi kimi atılıb ortaya çıxmısınız?

Sizlərin Elçibəyə nifrətinizindən anlaşılır ki, indi arzuladığınız rejim Azərbaycanda qurulub. Məhz arzuladığınız rejimdir ki, sizlərə qarşı daha iyrənc üsula əl ataraq xalqın adından danışmağa Xanış

kişini çıxarır. Sizin narazı qaldığınız Elçibəy isə hər xalqın öz adı, öz mədəniyyəti ilə tanınmasına çalışaraq məhz talış xalqını sizlərin və Xanış kişilərin təmsilçiliyindən qurtarmağa çalışırdı.

Tərbiyəsizlik sərhədlərini nə qədər aşa bilmişsinizsə, Şeyx Nəsrullahın zorladığı 12 yaşlı qızlarla yeddi milyonluq Azərbaycan xalqını müqayisə edirsiniz. Yeddi milyonluq xalqın zorlanması haqqında ifadəni belə işlətməkdən çəkinmirsiniz. Öz şəxsiyyətiniz üçün normal qəbul etdiyiniz hərəkətləri 7 milyona Azərbaycan xalqına şamil etməyin. Əgər müqayisə aparmağa bilik tutumunuz azlıq edirsə, heç olmazsa əlinizə qələm alıb yazı yazmayın və ya yazılan bu cür yazılara imza atmayın.

Mən bir mərhum professor haqqında yazmışdım ki, bu adamın idealı ən böyük Ermənistanlı olmaq idi. Yəni ən böyük vətəndaş, ən böyuk insan deyil, ən böyük Ermənistanlı olmaq. Çoxdur bu cür tiplər- ən böyük qarabağlı, naxçıvanlı, şəkili, lənkəranlı olmaq istəyənlər. Sizlərin də tez-tez ifadələrinizdə yer alan «Cənub bölgəsi» termin də bizə eyni şeyi xatırlatmağa haqq verir. Bəlkə sizlərin də ən böyük idealınız mükəmməl insan olmaqdan çox, bir bölgənin tanınmış adamı olmaqdır. Şəxsiyyəti təsdiqin başqa formasını tapıb onunla məşğul olmaq lazımdır. Türkün, talışın iç-içə yaşadığı Azərbaycanın gözəl və doğma bölgəsini öz çirkin niyyətlərinizin girovuna çevirməyə imkan verməyəcəyindən əmin ola bilərsiniz.

Elçibəyin hakimiyyətinin ilk aylarını yadınıza salıram. Sentyabr ayında verdiyi fərmanda Azərbaycanda yaşayan bütün xalqlara, o cümlədən Talış xalqına da bütün mədəni hüquqularını gerçəkləşdirmək üçün ən geniş imkanlar verilirdi. Talış dilində çıxan qəzet üçün dövlət yardımı ayrılması nəzərdə tutulurdu. Əgər azacıq ləyaqətiniz varsa, Elçibəyin dövründə Talış xalqının hüquqlarının pozulduğuna dair bircə fakt söyləyin. Kiminsə vəzifədən alınıb vəzifəyə qoyulmasının talışlarla nə əlaqəsi? Yaxud İsgəndər Həmidov təkcə Astarada deyil, başqa onlarla bölgədə əməliyyat keçirmiş, bu hadisədə onun da etdiklərində cinayət tərkibi olduğunu güman edirsinizsə, indi bu məsələnin arxasınca düşüb araşdırmağa hər cür imkanınız var. Sizlərin ki, uzun illər həsrətini çəkdiyiniz rejim mövcuddur. Özünüz də anlamamış deyilsiniz ki, hər hansı bir

kriminal hadisənin və ya əməliyyatın nəticələrini Cənub bölgəsi ilə əlaqələndirmək açıqca şantaj xarakteri daşıyır və bu hərəkətlərinizin Azərbaycanda qarşıdurmaya rəvac vermək məqsədilə edildiyi kimsədə şübhə doğurmamalıdır.

Əlbəttə, bütün Azərbaycan cəmiyyəti bilir ki, Elçibəy ardıcıl bir Türk milliyətçisidir, ancaq həm də bütün xalqların hüquqlarına hörmət edə bilən və bunu əməldə təsdiq edən bir demokratdır. Onun söylədiklərindən yaxşı ki, iqtibas gətirib özünüzün bilgisizliyinizi də ortaya qoyursunuz. Elçibəyin; «Kürdsən kürd adını, talışsan talış adını yaz üstünə.» dediyini iddia edirsiniz. Bəs nə deməlidir? Ədəbiyyatdan, tarixdən, etnoqrafiyadan başı çıxdığını iddia edən «dahilər», sizlər hansı elmi arqumentlərlə sübut edə bilərsiniz ki, azarbaycanlı adında dil və ya millət var. Azərbaycan burada yaşayan Türkün də, Talışın da, Ləzginin də, başqalarının da ortaq vətənidir və bizim qurmaq istədiyimiz demokratik cəmiyyətdə hər bir millətdən olan vətəndaşımız diskriminasiyaya uğramadan dövlət həyatında sərbət iştirak edə bilməlidir. Təbii ki. əhalinin böyük əksəriyyəti Türklər olduğundan dövlət dili Türk dili olacaq. Bununla yanaşı ən az sayda olan xalqın nümayəndələrinə də öz dilini, mədəniyyətini inkişaf etdirmək üçün bütün haqlar veriləcək. Bundan açıq Elçibəy necə danışmalıdır? Bu haqqı bəlkə ondan başqası da indiyi qədər sizlərə tanıyıb? Ancaq o eyni zamanda Türkün də, Talışın da, Ləzginin də, Kürdün də bu vətəninin bölünməzliyi və dirçəlişi üçün çalışmasını istəyən siyasət adamıdır. Bəli, Elçibəy Talışların haqqını müdafiə etmək adı ilə öz iqtisadi strukturlarını genişlətməyə çalışan, hər dəfə hakimiyyət dəyişikliyi zamanı gəlib o bölgənin patentini tələb edən mafioz qrupların bu imtiyazını ortadan qaldırmağa çalışır. Hər xalqın öz təmsilçiliyini yaratmaq üçün mütləq demokratik cəmiyyət formalaşmalı və o bölgədə yaşayan millətin həqiqi səsvermə ilə seçdiyi insanlar iş başına gəlməlidir. Amma sizlərin arzuladığınız odur ki, hər zaman Talış xalqının adından Sovet dövründən üzü bu tərəfə xususi imtiyaz və əmmamə verilmiş Allahşükür Paşazadə, rus ordusunun silahla təhciz etdiyi Əlikram Hümbətov və nəhayət Heydər Əliyevin imtiyazlı dostu Xanış çoban danışsın. Axı Mütəllibov dəyişəcək, Elçibəy dəyişəcək, H.Əliyev dəyişəcək və öz sərvətini artırmaqdan başqa bir şey düşünməyən

Şeyxülislamınız çıxıb hamıya xeyir-dua verəcək, öz xudmani yaşamını sürdürəcək. Bəs bu talış kəndlisinin, ticarətçisinin bundan qazancı nə olacaq. Sonra da oturdub sizlərə və başqalarına açıq məktublar yazdırdacaq ki, nə var, nə var «Şeyx həzrətləri halal Allah bəndəsidir və indiyə qədər heç kəsi aldatmamışdır.» İstəyirsiniz Şeyxinizin özü də bir dəfə bu ifadələri inamla təkrar etsin, o zaman sizlərin nə qədər yalan danışdığınızı sübut etmək bizim boynumuza. Ona görə də açıq söyləmək lazımdır ki, Elçibəyi sizlərin sevməməyinizin altında ancaq bir səbəb yatır. Sizlər bu qabiliyyətlə demokratik sayılan cəmiyyətlərdə Talış xalqının adından danışmağa heç vaxt layiq görülməyəcəksiniz. Cənub bölgəsi deyə hər dəfə ayırmaq istədiyiniz bölgənin əsrlərdir birlikdə qardaş kimi yaşayan Türk və Talış əhalisi sizlərin separatçılıq toxumlarınızı o bölgədə saxlamayacaq və əsl Azərbaycan vətənpərvəri kimi dövlətimizin möhkəmlənməsinə çalışacaq sağlam düşüncəli adamları önə çəkəcəklər. Və bunu qətiyyətlə indidən bəyan etmək də olar: Elçibəyin yeni hakimiyyətində ləzgi, talış, kürd adı ilə imtiyaz qazanmaq istəyən mafioz qruplara deyil, o bölgənin sosial problemlərini səmimi şəkildə həll etməyə hazır, separatçılara qarşı kəskin mövqeyi olan və həqiqi mənada demokratik qaydada xalqın etimadını qazananlara bütün qapılar açıq olacaq. Bu bölgənin dirçəlişi üçün də vacib şərtdir. Yoxsa Allahşükür Paşazadənin və ya başqa birisinin bölgə adından istifadə edərək cah-cəlallla yaşamasının bölgənin Türk və ya Talış əhalisinin rifahına təsir edəcəyini iddia etmək o bölgənin əhalisinə qarşı edilən hörmətsizlikdən başqa bir şey deyildir.

Hələlik separatçıların 15 imzasına biz təklikdə cavab veririk. Ancaq əminik ki, bu vətənin bölünməzliyini istəyən minlərlə vətəndaşımız sizləri cavabsız buraxmayacaq. Çünki sizə imzalatdırılan bu açıq məktub əslində məqsədi gizlətmək üçün Elçibəyin adına ünvanlanıb. Elçibəy hədəf alınaraq bu millətin və vətənin qüruruna toxunulan təhlükəli tezislər irəli sürülmüşdür. Və sonluğu da «O gün gələcək. O gün uzaqda deyil!» hədəsi ilə tamamlamışlar. Bu açıq məktub sonralar hamımız anlayacağıq ki, yeni bir qiyamın başlanğıcıdır. Separatçılar arzuladıqları günü

gözləyirlər. Vətənin bölünməzliyini istəyən milyonlar, bəs sizlər hansı günü gözləyirsiniz?

# MİLLƏT HAQQINDA QISA MÜLAHİZƏ

Yazarlar Birliyinin Natəvan adına klubunda «Din, millət və dövlət» mövzusunda maraqlı bir problemə həsr olunan konfrans keçrildi. Cəmiyyətin təkcə elmi deyil, eyni zamanda siyasi və ideoloji mahiyyət daşıyan bu kimi mövzular ətrafında müzakirələrə qoşulması olduqca lazımlı bir məsələdir. Ona görə də vaxtaşırı köşə yazılarında bu problemlərlə bağlı düşüncələrimizi oxucularla bölüşmə ənənəsinə davam etdirərək MİLLƏT anlayışı üzərində nəzəri mülahizələrə qısaca münasibət bildirməyə çalışacağıq.

Rəsulzadəyə görə, MİLLƏT məfhumunu ifadə etmək üçün Azərbaycan Türkcəsində iki söz var: MİLLİYƏT və MİLLƏT. Bunlardan birincisi dili, dini, irqi, qövmü, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsiri ilə meydana gələn etnik bir cəmiyyəti ifadə edər. İkincisi də bu cəmiyyətdə ortaya çıxan ümumi bir iradəni göstərir. Ziya Gökalp isə MİLLƏTİ şəxsiyyələrini uzun müddət itirdikdən sonra təkrar bərpaya çalışan bir qövm olaraq görür. Ona görə, qövmlər tabe olduqları ortaq bir din və ya səltənətin təsiri ilə çökərək şəxsiyyətlərini itirərlər. Sonra daxil olduqları bu səltənət və ya ümmətin çözülməsi üzərinə yenidən özlərini tapırlar. Ancaq bu dəfə tapılan şəxsiyyət, itirilmiş qövmü şəxsiyyətin eyni deyildir. O uzun zaman birlikdə yaşanan müştərək mədəniyyət və ümmət həyatının təsiri ilə dəyişmiş yeni bir şəxsiyyətdir. Yəni qövm getmiş, yerini MİLLƏT almışdır. İtalyan düşünürü Madzinin tərifinə görə isə MİLLƏT; torpağın, mənşənin, əxlaq ilə ədalətin, dilin birliyi nəticəsində həyatında və ictimai vicdanında anlaşma və ortaqlıq yaratmış bir insan cəmiyyətinə deyilir. Dürkheymin sistemində isə etnik amillər və yaxud sadəcə tarixi səbəblərlə eyni qanunlar altında yaşamaq və tək bir dövlət qurmaq istəyən insan cəmiyyətinə MİLLƏT deyilir. Madzinin tərifi ilə Dürkheym arasındakı ifadə fərqinə diqqət çəkən Rəsulzadə, birincisində MİLLƏT ünsürünü tarixi bir hadisə, ikincisində isə ictimai və idarəçilik hadisəsi olaraq qiymətləndirir.

Göründüyü kimi, böyük düşünürün də altını cızdığı ciddi bir məqam vardır: dilləri, adətləri, tarixləri, dinləri, vətənləri vs. bir olan insanlar bir MİLLİYƏT təşkil edərlər; ancaq bir MİLLİYƏTin MİLLƏT halına keçməsi ümumi şüur və kollektiv iradənin gücünə bağlıdır. Bu isə yalnız «ictimai yaddaş» vəzifəsini görən orqanın yaranması ilə meydana çıxır. Bu orqan fərqli zamanlara görə dəyişir. Rəsulzadəyə görə, demokratik Azərbaycan cəmiyyətində bu MİLLƏT olma iradəsi 28 may istiqlal hadisəsi və bəyannaməsi ilə ortaya çıxmışdır.

Xatırlatmaq yerində olar ki, MİLLƏTin sovet formulu daha fərqli bir şəkil ortaya qoymuşdur. Bəzi alimlərə görə kapitalist münasibətlərinə keçiş MİLLƏTin formalaşmasına imkan yaradır. Azərbaycan xalqında bu keçişin XİX əsrdə başladığı iddia olunur. Bu əslində mənəvi bağlardan daha vacib faktorun iqtisadi dəyərlər olması fikrinə haqq qazandırmağa münbit şərait yaradır. Əslində isə iqtisadi dəyərlər və münasibətlər bütün zamanlar üçün keçərli ola bilər və buna dayanan bir qövmün meydana çıxışını MİLLƏT deyə tanısaq, o zaman gözümüz önündə ən yaxşı halda bir iqtisadi şirkət modelindən başqa bir şey gəlməz. Sovet MİLLƏT doktirinasının geniş açıqlamasına görə isə MİLLƏT, etnik birliyin ən yüksək inkişaf mərhələsi olub, dil, ərazi, iqtisadi həyat və mədəniyyətdə özünü göstərən psixoloji özəlliklərə istinad edər. 70-80-ci illərdə MİLLƏTin bir sıra zəruri elementləri- etnik birlik şüuru, ümumi mənşə, din vs. də yuxarıdakı elementlərə əlavə olunmuşdur.

Fransızlar xanədansız bir cizgidə meydana gələn yeni siyasi təşəkküllərini etnik kimliklə bağlamaq məqsədilə MİLLƏT kəlməsini tapmış və DÖVLƏT-MİLLƏT münasibətlərinin məhsulu olaraq bu kəlməni gündəliyə gətirmişdilər. Necə ki, bəzi izahlara görə, MİLLİYƏT etnik, MİLLƏT isə siyasi bir anlayış kimi dərk olunmuşdur. Deməli MİLLİYƏT bəlli şərtlər və hadisələr nəticəsində formalaşmış statik bir varlıq, MİLLƏT isə bu statik varlığın şüurda yerləşən dinamik bir şəkli kimi anlaşılmışsa, o zaman statik varlığın şüurda yerləşən dinamik şəklinin ən uzağı bir dövlət şəkli olduğunu görmək mümkündür. O zaman maraqlı bir yekuna gəlib çıxa bilirik: Bir cəmiyyət bir dövlət adı altında kolllektiv

iradəsini ortaya qoya bilirsə, MİLLƏT adlana bilir. Əslində bir dövlət içində çoxluğu təşkil edən və ya hegemon vəziyyətdə olan etnik cəmiyyətlərə dövlət prizmasından baxaraq MİLLƏT adı verilməkdədir. Çoxluq və ya hegemonluğun müəyyən olunmadığı yerlərdə süni bir MİLLƏT icad edilməsinin də nümunələri ilə tanışıq: məsələn, keçmiş Sovet xalqı, bu gün İran milləti vs. MİLLƏT anlayışına fransızlardan təsirlənən Z. Gökalpın təqdim etdiyi kimi, şəxsiyyətini qazanmaq mənasında baxarsaq, bu gün şəxsiyyət məsələsinin təkcə dövlət qurmaqla əlaqəli olmadığını görərik. Azərbaycan Türklərinin  Quzeydə müstəqil dövləti olduğu üçün şəxsiyyətini qazanmış, Güneydə isə İran tabeliyində olduğu üçün qazanmamış olması kimi yanlış nəticəyə gələ bilərik. O zaman belə anlaşıla bilər ki, Azərbaycan Türkləri güneydə MİLLİYƏT, quzeydə isə MİLLƏTdir. Əslində isə bütün cəhətləri ilə araşdırılsa, MİLLİYƏT və MİLLƏT məfhumları arasında mərhələ və ya fərqlilik tapmaq çox çətindir. Yəni «Azərbaycanda 1918-1920-ci illərdə bir müstəqil dövlət qurulmuş və Azərbaycan Türkləri bir MİLLƏT olmuşsa, bu dövlət yıxıldıqdan sonra eyni Azərbaycan Türkü MİLLƏT olmaqdan  çıxmışdır», deyə mənasız bir nəticə meydana çıxar.

Bütün parametrlərə görə eyni MİLLƏTə mənsub Azərbaycan Türklərinin vahid siyasi birlik olan Bütöv Azərbaycan dövlətini qura bilməməsi, güneydəki və quzeydəki cəmiyyətlərin MİLLİYƏT və MİLLƏT ayrımı ilə bir-birindən fərqlənməsindən deyil, sadəcə tarixin bu mərhələsində dinamizmin aşağı olmasından doğan gerçəklikdir.

## YAŞANMIŞ TARİX VƏ YAŞANACAQ GƏLƏCƏK

Tarix fəlsəfəsi deyilən elm sahəsi tarixi «yaşanmış keçmiş» kimi anlamağı təklif edər. Bizlərinsə tarix şüurumuz büsbütün yaşanmamış keçmiş üzərində ilişib qalmışdır. Tarix baş vermişlərin təkcə bəsit xronologiyası deyil. Günün insanının, cəmiyyətinin öz gələcəyini düşünmək üçün nəhəng bir material anbarını xatırladır tarix. Bu anbardan nələri götürüb-götürməmək, nələrdən yararlanıb-yararlanmamaq məsələsi insanların, cəmiyyətlərin yaşanmış keçmişdən hansı ibrət dərsləri götürməsindən asılı olaraq müəyyən edilir.

Bəzi düşünürlər deyərlər ki; millətin həyatında mühüm olan gerçək tarix deyil, bu günkü xəyalların məhsulu olan tarixdir. Məhz bu xəyalların məhsulu olan tarixə aludəçilik tarix şüurunun yanlış yöndə inkişafı üçün münbit şərait yaradır. Əslində tarix, millətin özünü dərk etməsi, tanıması və gələcəyə doğru həyat prinsiplərini yaratması üçün bir vasitə rolunu oynar. Biz bu gün çərçivəsini Qərb dünyasının cızdığı və az-çox da coğrafyasını müəyyən etdiyi dünyanın tərkib hissəsiyik. Köhnə zamanlarda olduğu şəkildə cahangirlik sevdası bir yana qalsın, əlimizdə olan bir çox dəyərləri belə qoruyub saxlamaqda çətinlik çəkirik. Bu gün bizə qarşı torpaq iddiaları var, müharibədə torpaqlarımızın xeyli hissəsi işğal olunmuşdur. Yeni itkilərimiz də ola bilər. Üstəlik də Qərb dövlətləri öz mədəniyyətlərinə yaxın hesab etdikləri işğalçılara açıq dəstək verirlər. Millətimizin böyük bir hissəsi də İran dövlətinin əsarəti altındadır. Tarixdən mədət ummaqla bu böhranlı vəziyyətdən çıxmağımız çətindir. Ancaq tarix şüurumuzu sağlamlaşdırmaqla çox şeylərə yeni anlayışla baxa bilərik. Coğrafi vətən anlayışından uzaqlaşaraq, etnik vətən anlayışına doğru təkamülü qazana bilərik. Açırıq qəzet və ya kitab səhifələrini. İqrar Əliyev haqqında söz deməklə patriotluq nümunələrini zənginləşdirməyi düşünürük. İradımız da odur ki, İ.Əliyev «türklər gəlmədir» deməklə tarix elmimizə zərbə vurub. Biz ilk insan yaranandan bu yerin sakinləriyik deyə konturlarımız da hazır. Necə ki, bir vaxtlar Akademiyanın mərhum prezidentlərindən biri alimlərə qəti göstəriş

vermişdi: Sübut etməlisiniz ki, Azıx mağarasından tapılan çənə Azərbaycan dilində danışmışdır! Bu gün həmin çənəni Azərbaycan dilində danışdırmaqdan yola çıxaraq gəlmə olub-olmama üzərində baş yormaq mərhələsində ilişib qalmışıq. Millət, vətən olararaq tanıdığı məkanın sahibi kimi özünü hiss etməyəndə tarixdən mədət ummağa qalxır. Halbuki Anadoluda bu məkanın sahibi kimi özünü dərk edən türkləri, nə zamansa gəlib buralarda yerləşmək narahatçılığı maraqlandırmır. Və ermənilər də Qarabağı buranın qədim sakinləri olduqlarının haqqı olaraq gəlib işğal etmədilər. Bu gün özlərinin həmin torpağın sahibi olduqlarını bizdən daha artıq hiss etdilər və daha artıq hazır oldular. Rusla, silahla, əsgərlə. Vəssalam. Tarixə bu günkü Azərbaycan Türklərinin bu coğrafiyaya sahiblik haqqının hansı keyfiyyətdə olması faktına dayanaraq girilməlidir. Aydındır ki, İ.Əliyev kimi düşünənlərin Azərbaycan məfhumu ilə Türk ünsürü arasında əlaqələri qəbul etsələr də, ümumi mahiyyətilə ortaya çıxan sintezdə Azərbaycan məfhumuna ağırlıq qazandıraraq milli kimlik təsbitlərini tarixi coğrafiya və ya ərazi ilə məhdudlaşdırılmış şəkildə anladıqları bir həqiqətdir. Halbuki, istər buranın yerli sakinləri olsun, istər gəlmə olsun, bu günə qədər öz milli kimliklərini qorumuş Türk hər halda Türk olaraq qaldığından və başqa etnik elementlər də öz xüsusiyyətlərini sıradan çıxarmadıqlarından ümumi bir hibrid olan Azərbaycan xalqının içində Türkü gizlətmək nə qədər abdallıqdırsa, etnik məkan olaraq Azərbaycanı coğrafi məkanın içinə soxaraq, buranın hegemon ünsürü olan Türklərin Altay və Orta Asya xatirələrini ciddi sübutlar olmadan Manna, Midiya, Atropaten, Albaniyanın məchul qaranlığı ilə əvəz etmək də bir o qədər absurddur.

Bizim bütün ədəbiyyat nümunələrində Azərbaycanda yaşayan, bu torpağı şərəfləndirən millətə - Azərbaycan Türkünə xitab demək olar ki, yoxdur. Hətta hamımızın qürurla dinlədiyimiz himnimizdə də Azərbaycan adlanan vətənə, coğrafiyaya, əraziyə xitab var. «Azərbaycan, ey qəhrəman övladın şanlı vətəni» deyilir. Türkiyədə ortaya qoyulan ədəbiyyat nümunələrinin ana mövzusu, xitab obyekti isə millətin özüdür. Türkiyənin istiqlal marşında Məhmət Akif; «O mənimdir, o mənim millətimindir, ancaq!» deyirdi. Yaxud da Məhmədəmin Yurdaqulun məşhur bir şerində; «Mən bir Türkəm,

irqim, cinsim uludur» tezisi ilə müqayisədə S. Vurğunun «El bilirki sən mənimsən, Yurdum yuvam məskənimsən, Anam doğma vətənimsən« deyərək Azərbaycana xitabın müqayisəsində ümumi konturlar açıqca görünür. Eyni qövmə mənsub iki millətin Millət və Vətən həssaslığı bir-birindən necə də incə xətlə ayrılmışdır. Bəlkə də vətənə maddiləşmiş bir məfhum kimi baxdığımıza görə uduzuruq. Biz indiyə qədər bəlkə ona görə bütövləşməmişik ki, Güney və Quzey ərazilərini sərhədi sökməklə qovuşdurmağı düşünmüşük, ancaq bu coğrafiyanı vətən dəyərinə qaldıra biləcək Azərbaycan Türkünün milli ruhunun bu qədər geniş coğrafiyada necə uzlaşdırmağı geniş mənada düşünə bilməmişik.

Azərbaycan, indiki durumu ilə millətin vətəni olmaqdan daha çox, tarixi şərtlərin bir yerə topladığı insanlar üçün siyasi ad qazanmış coğrafiya kimi qəbul edilir. Biz Azərbaycan Türkləri Azərbaycan dövlətinin hegemon ünsürü olaraq gücümüzü keçmişin xəyallarında deyil, millətimizin ruhunda və enerjisində axtarmalıyıq.

Üzümüzü yaşanmış keçmişlə yaşanacaq gələcək arasında bu gün var olan millətə tutmalıyıq. Millətin özünə xitab etməyi öyrənməliyik. Və millətə diriliş ruhu qazandırmalıyıq. Millətin dirilişi olmadan bütöv, güclü vətən olmayacaq. Güclü dövlət də, azad insan da olmayacaq.

# MİLLİ DAVA

Bizim bütün cinahlarda apardığımız davanın əslində bir adı var: milli dava. Şəxsən mənim üçün bu, heç bir zaman iqtidar-müxalifət davası mahiyyətində olmayıb. Çünki iqtidar-müxalifət davası uzun illərin dövlətçilik ənənəsi yerləşmiş dövlətlərdə normal məcrada baş verir və biri o birini vaxtaşırı əvəz edərək, cəmiyyətin dəstəyini almaq yarışını davam etdirirlər. Bizdə bu gün həmin rejim yoxdur. Sosial zülmün arxasınca milli zülmün də qabarması artıq dözülməz bir şərait yaratmışdır. Anlayıram ki, prezident aparatının otaqlarından tutmuş neft şirkətinə və başqa yerlərə qədər bu hakimiyyətin qaymaqları hamısı tikan üstə oturublar. Hamısı bizim reaksiyamızı gözləyirlər. Hamısı bizim necə təşkilatlanacağımızı gözləyirlər. Bölüb dağıdıblar ölkəmizi, rayon-rayon, region-region. İndi də milli əlamətə görə bölüb Azərbaycan türkünün gözbəbəyi olan dövləti tam şəkildə ələ keçirməyi düşünürlər. Onlar millətimizə nə etdiklərini çox gözəl bilirlər və bundan zövq alırlar. Biz də onlara nə edəcəyimi gözəl bilməli və millətə bəyan etməliyik.

İndi bu millətin təşkilatlanma forması kimi milli dəyərləri, türkçülüyü, türklərin pozulmuş haqlarını diqqət mərkəzinə gətirən kimi, o tikan üstündə oturanlardan daha artıq onların müxalifət adı ilə illərdir millətə sırıdıqları komsomolçular cavab verirlər. Tez-tez verdiyimiz mesajlar hədəfə dəyərkən, demokrat libasını təkrar üstlərinə geyərək dərhal vətəndaş hüquqlarından bəhs etməyə, öz millətinin maraqlarını qorumaq haqqı ilə çıxış edənləri siyasi terminalogiyalarının qıtlığından faşist kimi qələmə verməyə başlayırlar. Əslində bu termindən xüsusi narahatçılıq da keçirmədim. Xüsusilə son seçkilərdə iqtidarla birlikdə vətəndaş hüquqlarının üstündən xətt çəkən bu rejimin Pavlik Morozovların, H.Əliyevin satqınçılıq müqabilində payladığı mandatı əlinin dalı ilə tolazlayan qürurlu cəbhəçi, müsavatçı və s. demokrat kişilərə qarşı faşizmdən danışmasısının nə qədər gülünc olduğunu millətimizə izah etməyə də artıq ehtiyac qalmayıb.

Tanıyanlar, görənlər bilirlər ki, uzun illərdir Azərbaycan dövlətinin qurulması ideyası ilə yaşamışıq. Bu siyasi coğrafiyada çoxluğu təşkil edən Azərbaycan türklərinin öz dəyərlərini üzə çıxara biləcəyi, öz sərvətinin sahibinə çevrilə biləcəyi, himniylə, bayrağıyla, ordusuyla, polisiylə qürur duya biləcəyi bir dövlət qurulmasını istəmişik. Təbii ki, bu dövlətin həm də demokratik dövlət olmasını arzulamışıq. Yəni millətindən, irqindən, cinsindən asılı olmayaraq bütün vətəndaşların hüquqlarını qoruyacaq bir dövlət. ABŞ-da da, Fransada da, Almaniyada da başlanğıc belə olmuş. Çoxluğu təşkil edən millət öz dövlətini qurur, öz dəyərlərini bu dövlətin dəyişməz atributlarına çevirir, sonrakı mərhələdə tədricən milli dövlətdən sosial dövlətə keçid başlayır. Artıq orada vətəndaşlıq ən ali mərtəbə hesab olunur. Heç kimə sirr deyil ki, bu gün Azərbaycan dövləti qurulmayıb, sadəcə Azərbaycan bir dövlət kimi BMT-nin kitabında qeydiyyatdan keçib. 1992-ci ildə bu dövləti qurmağa cəhd göstərdik, yarımçıq qaldı. İndi yenidən gəlib tamamlamaq istəyirik.

Biz Azərbaycan Türklərinin hakimiyyəti deyəndə başqa heç bir millətin hüquqlarını pozmaq düşüncəsini daşımırıq. Biz sadəcə yeni qurulan dövlətlərdə çoxluğu təşkil edən millətin azsaylı xalqların hüquqlarının qoruyucusu qismində çıxış edə biləcəyi gerçəyindən yol alırıq. Diqqət edin, bəlkə də Türklük fikrinin ən qatı hərəkətverici gücü olan, Azərbaycan Türkünün milli lideri Elçibəy hakimiyyətə gəldiyinin ilk aylarında etnik qruplar və azsaylı xalqlar qarşısında öz cavabdehliyini hiss edərək, onların mədəni hüquqlarını qorumaqla bağlı insan haqları haqqında klassik Billərdən yüksəkdə düracaq bir fərman vermişdi. Bu fərman hər cür mədəni hüquqları tanıyırdı onlara. Bu o deməkdi ki, ölkədə çox həssas olan milli tarazlıq qorunurdu. Həm də bu çoxluğu təmsil edən millətin azlıqda olanların hüquqlarını qorumağa yönəlmiş bir cavabdehliyi idi. Amma həftəbecər hibridlərin qurduğu hakimiyyətdə heç kimin heç nəyə təminatı yoxdur. Bir izah edin görək, kütləvi qanunsuzluq şəraitində öz haqqınızı, pozulmuş hüquqlarınızı kimdən tələb edə bilirsiniz. Hətta siyahı üzrə parlamentə salınan kürd də, ləzgi də, talış da, türk də öz millətini, hətta yaşadığı bölgəni təmsil etmək gücündə, dəyərində olmayanlar arasından seçilir. Həqiqətən də ikinci seçkidir ki, Qarabağdan ancaq qadınlar təyin olunur. O qədər ziyalısı olan

Naxçıvandan seçilənlərin siyahısını götürüb ziyalı kateqoryiasına aid ediləcək birisini tapın. Qərbi Azərbaycandan adı ilə parlamentə doldurulanların cəmiyyətdə necə nüfuz sahibi olduqlarını kiçik bir sorğu ilə də müəyyən edə bilərsiniz.

Bu gün parlamentin milli tərkibi ilə bağlı ittihamlar ona görə səslənmişdir ki, oraya seçilənlər vətəndaş kimi seçilməmişlər. Vətəndaş kimi seçilənlər həqiqətən özləri kimi başqa vətəndaşların səsini alaraq parlamentdə yer qazana bilərdilər. O zaman Azərbaycan vətəndaşlarının seçdiyi hər bir millət vəkili, bu millətin dəyəri sayılmalı, millət də onu hansı mənsubiyyətindən asılı olmayaraq haqqının müdafiəçisi hesab etməlidir. Belə bir seçkinin olmadığını hamımız bilirik. O zaman heç olmazsa cəsarətimiz olmalıdır ki, götürüb bir mərkəzdə tərtib olunan siyahının hansı prinsiplə müəyyənləşdirildiyini araşdıraq. Bütün bunlardan sonra faşistlərin bir zaman saxta yolla parlamentə mandat əldə etməsinə bənzər şəkildə siyahı ilə o parlamenti zəbt edənlərin şərikləri olan komsomolçular utanmadan bizə faşizmlə bağlı irad tuturlar.

Bu gün millətimin gələcəyinə doğru Azərbaycan Türkünün dövlətini quracaq böyük bir axın gəlir. Siz buna «faşizm» deyin, «kütlə» deyin, «qaraguruh» deyin! Yaraşıqlı qalstuklarınızı da taxıb yuxarıdan aldığınız təlimatları yerinə yetirmək uğrunda komsomol fədakarlığı da göstərin. Ancaq gələn o nəhəng Türk axını sizin komsomolçu əxlaqınızı qəbul etməyəcək! Qoca kommunistin əlindən yem alan cavan komsomolçulara heç vaxt bənzəməyəcəklər. Və istəsəniz də, istəməsəniz də, yol verəcəksiniz Türkün bayrağına!

# ƏBÜLFƏZ ELÇİBƏY FENOMENİ

Əbülfəz Elçibəy siyasi mübarizəyə Azərbaycanda "Müsavat" partiyasının öncüllük etdiyi milli azadlıq mübarizəsinin qarşısı alındıqdan sonrakı bir dövrdə başlamışdı. Bunu II Dünya savaşından sonra Sovet rejimi əleyhinə başlayan ilk ciddi siyasi hadisə kimi qiymətləndirmək mümkündür. Elçibəy siyasi hərəkatı elə bir zamanda başlayırdı ki, Stalin diktaturasının vəhşəti nəticəsində Azərbaycan Türklərinin aparıcı aydın təbəqəsi ortadan qaldırılmış və istiqlal mübarizəsi apara biləcək nəslin varislik əlaqəsi pozulmuşdu. Stalinin ölümündən sonra sistemin təzyiqlərinin qismən yüngülləşməsi nəticəsində bütünlükdə Sovet İttifaqı ərazisində başlayan ədəbi oyanış və dissident hərəkatının təsirləri Azərbaycanda da hiss olunmağa başlamışdı. Elçibəyin də tələbəlik illəri məhz bu dövrə təsadüf etdiyinə görə, onun Sovet rejimi əleyhinə düşüncələrinin formalaşmasını 60-cı illərin ortalarına aid etmək olar.

Elçibəy, hələ tələbəlik illərində yaxın çevrəsi ilə Azərbaycan Türkcəsinin tətbiqində olan nöqsanları, Sovet İttifaqı tərkibində Azərbaycanın hüquqi statusu, ölkənin iki hissəyə bölünməsi ilə bağlı problemləri, rus şovinizminin qarşısının alınması yolları vs. məsələləri müzakirə və mübahisə predmetinə çevirərək yeni bir düşüncə sistemi yaratmaq niyyətini ortaya qoymuşdur. O zaman təhsil aldığı universitet mühitində bəzi yoldaşları ilə birlikdə bəsit formada da olsa dövrün imkanlarını nəzərə alaraq böyük işlər görməyə hazırlaşan siyasi özək də yarada bilmişdi. 1962-ci ildə universitetin Şərqşünaslıq fakultəsini bitirdikdən sonra tərcüməçi kimi Misirdə işləməyə göndərilməsi onu qısa müddətə bu mühitdən ayırmış olsa da, məhz Misir həyatı onun siyasi düşüncəsinin sistemə salınmasında önəmli rol oynamışdır. Elçibəyin şərqşünas və tarixçi olması ona bütün Şərq aləminin problemlərini tarixi aspektdə dəyərləndirməyə imkan vermiş, gələcək siyasi platformasının rəngarəngliyi baxımından bunun çox böyük əhəmiyyəti olmuşdur. Çünki qədim zamanlardan başlayaraq Türk tarixini, Asiyada yaşayan millətlərin istiqlal mübarizəsi tarixini öyrənərkən, bunlardan öz ölkəsinin gələcəyinə dair nəticələr çıxarmağa çalışmışdır.

Atatürkdən, Cəmaləddin Əfqanidən, Mahatma Qandidən təsirlənərək Şərq siyasi düşüncəsinin əsas cəhətlərini və cəmiyyətlərin siyasi davranışlarını sistemləşdirməyə çalışmışdır. Təbii ki, ilk nümunə olaraq da Türkiyə cumhuriyyətinin tarixini ciddi tədqiq etdiyinə görə, Atatürkün siyasi şəxsiyyəti haqqında bilikləri daha çox mənimsəyərək, Atatürk dövlətçilik anlayışının və praqmatizminin gələcəkdə Azərbaycan cəmiyyəti üçün də faydalı olacağı qənaətinə gəlmişdir. Başqa tərəfdən, İran dövlətinin əsarəti altında yaşayan Güney Azərbaycan Türklərinin azadlıq mübarizəsinin müxtəlif dövrləri ilə tanışlıq və onun məğlub olması səbəbləri üzərində düşüncələr, əhalisinin yarısı Türk olan və əslində neçə yüz illər Türk hökmdarlar tərəfindən idarə olunan bir ölkədə Türkcə təhsilin qadağan olunması səbəblərini anladıqdan sonra öz siyasi görüşlərini müəyyən bir sistemə salmaq imkanı əldə etmişdir.

Sonralar özünün də namizədlik dissertasiyası kimi işləyib hazırladığı "Tulunilər Dövləti" (868-905) əsərində də bu axtarışın izlərini görmək mümkündür. Maraqlıdır ki, bir neçə il gərgin əməyin nəticəsində belə bir mükəmməl əsərin ortaya qoyulmasında Elçibəyi yönləndirən cəhət də məhz onun siyasi görüşləri ilə bağlı olmuşdur. Sovet rejiminin ideoloji təzyiqləri altında obyektiv tarix araşdırmasının mümkünsüz olduğunu bildiyimizdən, indiki şərtlərdə biz əsas etibarilə o dövrün əsərlərində yer alan bir çox priyomlara diqqət etməklə, müəllifin hansı önəmli siyasi nöqtələrə təmas etdiyini anlaya bilərik. Bu əsərin yazılması ilə müəllif, xilafətin parçalanması nəticəsində qurulan ilk Türk dövlətinin tarixini araşdırmaq, öyrənmək və cəmiyyətə qazandırmaq, Türk millətinin nə qədər yetkin və güclü olduğu, onun dövlət qurmaq iste"dadını bütün bədxahlara qəbul etdirmək istəyini açıq şəkildə göstərmişdir. Eyni zamanda elmi araşdırmasının sonunda irəli sürdüyü tezisdə: "Tolunoğulları dövlətinin Yaxın Şərq ölkələrinin gələcək tarixindəki rolu yalnız mədəni izlər buraxıb getməsində deyil, həm də ilk müstəqil dövlət quraraq böyük təcrübə gerçəkləşdirməsində idi" ifadələrinin yer almasını hələ o zamanlardan millətin yüksəlişi üçün müstəqilliyin nə qədər vacib olduğuna inanmış və vətəni Azərbaycan üçün də bunu arzulayan bir düşünürün gələcəyə yönəlik bir xitabı kimi də qiymətləndirmək mümkündür.

Elçibəyin siyasi kimliyini formalaşdıran mühit heç şübhəsiz ki, Azərbaycan Dövlət Universitetində olan tələbə və müəllim auditoriyası olmuşdur. Misirdən tərcüməçi olaraq çalışmalardan yarımçıq geri qaytarıldıqdan sonra 1967-ci ildən Universitetdə Asiya və Afrika ölkələrinin tarixi kafedrasında müəllim kimi çalışmağa başlayaraq eyni zamanda gizli siyasi fəaliyyətin də əsasını qoymuşdur. İlk əvvəl universitetdə dərs dediyi auditoriyada fərdi şəkildə tələbələrə bütün çılpaqlığı ilə Sovet rejiminin mahiyyətini ifşa edən söhbətlər aparmış, Azərbaycanın parçalanması problemi və onu birləşdirməyin yolları haqqında müzakirə və mübahisələrdə iştirak etmiş, doqmatik təfəkkürlə hazırlanmış dərs proqramlarını kənara qoyaraq tələbələrdə gerçək milli tarix şüurunun formalaşması istiqamətində əvəzsiz işlər görmüşdür. Elçibəyin, həmin dövrdə tələbələrə; "siz böyük bir millətin övladlarısınız... Azərbaycan adı sonradan verilmiş bizə. Hamımız Türkük və Türklüyümüzlə hər zaman qürur duymalıyıq" şəklində fikirlərin aşılaması bunun nümunələrindən biri sayıla bilər. Türk adının işlədilməsinin ümumiyyətlə qəbuledilməz olduğu, "Pantürkizm" damğasının Demokl qılıncı kimi baş üzərindən asıldığı bir dövrdə bu tezisləri bir siyasi fikir kimi cəmiyyətə təbliğ etmək əslində zaman baxımından çox böyük cəsarət tələb edirdi.

Qısa bir zamanda 1970-1971-ci illərin Azərbaycan Dövlət Universitetinin gizli tələbə təşkilatının mərkəzi kimi tanınması da Elçibəyin siyasi fəaliyyətinin nəticəsi olaraq gerçəkləşmişdi. Hətta şahidlərin ifadəsinə görə, başqa institutlarda oxuyan tələbələr Əbülfəz bəylə əlaqə yaratmaq məqsədi ilə tarix fakultəsini tez-tez ziyarətə gəlir, burada mənimsədikləri fikirləri öz fakultələrində və yataqxanalarında yayırdılar.

1971-ci ildən başlayaraq 3, 5, 7 və 9 nəfər üzvdən ibarət olan ayrı ayrı gizli qruplar yaradaraq təbliğat çalışmalarını daha da gücləndirmiş, geniş miqyaslı tələbə hərəkatının meydana çıxmasını təmin etmişdi. 1974-cü ilə qədər bu qruplar Azərbaycanda milli şuurun formalaşması üçün ciddi təbliğat fəaliyyəti göstərmiş, məhz bunun nəticəsində Elçibəy şəxsiyyəti Sovet rejiminin yerli funksionerləri üçün təhlükə hədəfinə çevrilməyə başlamışdı. Bu dövr

həm də Azərbaycanın azadlığı üçün mübarizə aparan bir siyasi liderin özünütəsdiq dövrü kimi də qiymətləndirilə bilər. Çünki, 1969-cu ildən başlayaraq Azərbaycanda bir qədər yumşaq görünən kommunist elitasının Vəli Axundov dövrü tamamlanmış və buna qədər KQB-nin şefi işləyən, sovet rejiminin ən sədaqətli kadrlarından biri olan Heydər Əliyevin hakimiyyəti başlamışdı. Məhz H.Əliyevin hakimiyyətə gətirilməsindən sonra bütün milli oyanış hərəkatlarının üzərinə hücumlar başlamış, Azərbaycanda tarixin saxtalaşdırılması istiqamətində ağlasığmaz işlər görülmüş, ədəbiyyatda isə milli təzahürlərin boğulması və Azərbaycanın gələcəyini düşünən ziyalılara qarşı mə"nəvi repressiyalar gücləndirilmişdir. Bu dalğa Əbülfəz Elçibəydən da yan keçməmiş, o zaman Azərbaycanda KQB-nin şefi işləyən rus əsilli Krasilnikov H.Əliyevin də razılığını alaraq universitetdəki milli hərəkatın qarşısını almaq üçün tədbirlərə başlayaraq onlarca rejim əleyhinə olan insanı istintaqa cəlb etmişdir. Onların arasında öz siyasi baxışları və fəaliyyəti ilə ən təhlükəli hesab olunan Əbülfəz bəy həbs edilmişdir.

1975-ci ilin yanvar ayından 1976-cı ilin iyul ayına qədər siyasi baxışlarına görə həbsxanada yatan Elçibəy əslində Azərbaycanda dissident hərəkatının da başlanğıcını qoymuşdur. Bu gün sakit günlərin prizmasından Elçibəyə qarşı ittihamlar yönəldən insanların çoxunun cəsarət anlayışını dərk etmək üçün tarixin bəhs etdiyimiz dövrünə nəzər salması olduqca vacibdir. Bütünlüklə KQB müstəntiqləri tərəfindən Elçibəyin dindirilmə səhnəsi və məhkəmə prosesi ilə yaxından tanış olmaq imkanı tapa bilən və bu hadisələrə obyektiv qiymət verməyi bacaranlar Elçibəy fenomenini daha dərindən anlaya bilərlər. Çünki, hər kəsin qorxduğu bir zamanda cəsarət nümunəsi göstərə bilən Elçibəy, cəsarətin və qorxmazlığın nə olduğunu tarixə və millətə KQB-nin ən sərt dövrlərində atdığı addımlarla söyləyə bilmişdir. Elçibəyin siyasi portreti də məhz bu nöqtədən yazılmağa başlanmalıdır. Şahidlər və arxiv sənədləri bu portreti olduqca dəqiq təsvir etməkdədir. Müstəntiq onu Leninə dil uzatmaqda ittiham edir, Elçibəyin cavabı isə bir ömür yolunun proqramını xatırladır: "Mən Leninin deyil, dəriləri soyulmuş, qanı sorulmuş bir millətin övladıyam. Sənin üçün vətən SSRİ ola bilir. Mənim üçün vətən ikiyə bölünmüş yaralı Azərbaycandır. Mənim

həyatımın məqsədi bu yaranı sağaltmaq, özünü Türk bilən bütün insanlarla birlikdə Azərbaycan hürriyyətinə doğru addımlamaqdır». Yaxud da onun haqqında yazılan danoslarda və bəzi ifadələrdə yer alan elə maraqlı məqamlarla rastlaşırsan ki, Elçibəy şəxsiyyətini öz dar qafasının çərçivəsindən uzaqda görə bilməyənlərə istər-istəməz acımalı olursan. İfadələrin birində deyilirdi: "Əbülfəz Əliyevlə söhbətin əsasını Güney və Quzey Azərbaycanın birləşdirilməsi, Azərbaycanın azad və müstəqil dövlətə çevrilməsi problemi təşkil edirdi. Əbülfəz Əliyev qeyd edirdi ki, ölkədə yaşayan bütün kiçik xalqlar, eləcə də, Azərbaycan xalqı "rus hökuməti" tərəfindən sıxışdırılır. Odur ki, öz haqları uğrunda mübarizə aparmaq həmin xalqların birbaşa vəzifəsidir. Ə. Əliyev bu mübarizədə təşəbbüsü öz üzərinə götürürdü. O, hər kəsin yanında and içib söz verdi ki, bütün həyatı boyu azadlıq uğrunda mübarizə edəcək, əgər məqsədinə çatmamış həlak olarsa, o zaman onun yerini həmməsləkləri tutacaqdır." Bu sözlər o zaman deyilirdi ki, Azərbaycan Respublikası adından KP MK-nın birinci katibi H. Əliyev "böyük uzaqgörənliklə" "Sovetlər İttifaqı əbədidir!" şüarını zövqlə təkrarlayırdı. Eyni zamanda KQB müstəntiqinə verilən bir ifadədə, həm də 1972-ci ildə Elçibəyin bir tələbəsi ona istinad edərək aşağıdakı sözləri işlədirdi: "Onların (yəni Əbülfəz Əliyev tərəfdarlarının) məqsədi elə adamlar seçib hazırlamaq idi ki,  o kadrları partiya, sovet və dövlət mexanizmlərində yerləşdirməklə 20 ildən sonra dövlət quruluşunu kökündən dəyişdirmək, Azərbaycanı müstəqilliyə qovuşdurmaq üçün istifadə etmək mümkün olsun." Düz 20 ildən sonra Azərbaycan həqiqətən də müstəqilliyinə qovuşdu və bu cür kadrlara ehtiyac yarandı. Bu əslində uzaqgörən bir siyasətçinin dərin dövlətçilik fəlsəfəsinin bir təsdiqi idi. «Əbədi Sovetlər İttifaqı» şüarı  qarşısında «müstəqil Azərbaycan» şüarının reallaşması həqiqəti Elçibəy fenomeninin dərk olunması üçün giriş nöqtəsi sayıla bilər. Bu fenomeni Elçibəy şəxsiyyətinin kompleks mahiyyətindən uzaq olan subyektiv standartlarla anlamağa çalışanlar çox zaman yanlış nəticələr çıxarmağa məhkum olmuşlar. Bu fenomenin başlıca xarakterik cəhəti, özü üçün dəqiq siyasi hədəfi müəyyən etməsində idi. Azərbaycan müstəqil dövlət olacaq! Deyirdi, bu müstəqillik qazanıldı. Azərbaycan demokratik dovlət olacaq! Deyirdi, 7 ildir ki,

çətin şərtlərə baxmayaraq demokratiya uğunda mübarizədə addım-addım irəliləyişlər görünməkdədir. «Azərbaycan vahid dövlət kimi birləşəcək» deyirdi. İndi bu tezisə dodaq büzənlərin 70- ci illərin Azərbaycanın müstəqil olacağına dodaq büzənlərdən heç bir fərqi görünməməkdədir. Ancaq vahid Azərbaycan idealının gerçəkləşəcəyi günü gördükdən sonra Elçibəy şəxsiyyətinin böyüklüyü qarşısında bütün bədxahları da səcdə edəcəklər.

Elçibəyin siyasi həyatının çoxşaxəli olması onun Azərbaycan siyasi həyatı üçün nə qədər önəmli sima olduğundan xəbər verir. Yarandığı gündən Azərbaycan xalq hərəkatının lideri kimi önə çıxmış və millətin düşünən insanlarının sevimlisinə çevrilmişdi. 1989-cu ildən bu günə qədər Azərbaycan Xalq Cəbhəsinin əvəzedilməz sədri kimi, eyni zamanda milli azadlıq hərəkatının da lideri kimi öz mövqeyini qoruyub saxlaya bilmişdi. Fiziki, mənəvi təzyiqlərin burulğanında Azərbaycan siyasi həyatına gətirdiyi əxlaq anlayışı ilə hətta düşmənlərinin belə haqqında düzlük və təmizlik simvolu kimi bəhs etdiyi siyasi xadim imici ilə tanınmışdı. 1992- ci ildə Azərbaycan tarixində ilk dəfə xalqın azad səsverməsi və demokratik seçkilər nəticəsində ölkə prezidenti seçilmiş, bir il ərzində çətin şərtlərə baxmayaraq apardığı siyasi, iqtisadi, sosial xarakterli islahatları ilə dünya siyasət arenasında ardıcıl demokratlardan biri kimi qəbul olunmuşdur. Azərbaycan tarixində Türk dilinin dövlət dili elan edilməsi, 1918-1920-ci illərdə var olmuş müstəqil Azərbaycan dövlətinin atributlarının bərpa edilməsi, latın əlifbasının tətbiq olunması, 90 minlik rus qoşununun Azərbaycandan çıxarılması və başqa tarixi hadisələr məhz islahatçı və demokrat prezident Elçibəyin iradəsi nəticəsində mümkün olmuşdur.

Elçibəy şəxsiyyətini cəmiyyət tərəfindən hər zaman maraqla qarşılansa da, onun siyasi manevlərinin dərk olunması üçün bə”zən dərhal nəticə çıxarmaq mümkün olmamışdır. 1993-cü ilin iyun ayında Gəncədə baş verən qiyam nəticəsində Rusiya və İran dölətlərinin birbaşa yardımı ilə Azərbaycanda dövlət çevrilişi baş verdi və  sovet KQB-sinin generalı Heydər Əliyev hakimiyyətə gətirildi. Elçibəy, qüvvələr nisbətini nəzərə alaraq, Azərbaycan dövlətinin qorunması, vətəndaş müharibəsinin baş tutmaması naminə

Bakını tərk edərək öz doğma kəndi Kələkiyə getdi. Artıq hakimiyyətə gəlmək üçün hər vasitəni qəbul edən qüvvələr Azərbaycanda iqtidara gəldilər və bu da onların özlərinin yaratmaq istədiyi vətəndaş müharibəsi təhlükəsini ortadan qaldırdı. Devrilmiş prezident həyatının dörd il dörd ayını mühasirəyə salınmış Kələki kəndində, maddi və mənəvi çətinliklər içində keçirdi. Buna baxmayaraq, o yenə də milli azadlıq hərəkatının lideri olaraq qaldı və öz mənəvi dəstəyi ilə Azərbaycanda H.Əliyevin yaratdığı antimilli klan hakimiyyətinə qarşı dirəniş göstərən milli qüvvələrin yenidən təşkilatlanmasında əhəmiyyətli rol oynadı. Məhz onun siyasi şəxsiyyətinin gücü, birləşdiricilik qabiliyyəti nəticəsində 1997-ci ilin əvvəllərində Azərbaycanda demokratik müxalifətin təmsilçiləri olan aparıcı partiyaların vahid blokda birləşməsi və Demokratik Konqres yaradılması mümkün olmuşdur.

Elçibəyin Kələkidə keçirməyə məcbur olduğu sürgün həyatının da hələ ki, tarixi qiyməti verilməmişdir. O. hakimiyyətdən zor yolu devrilməsinə baxmayaraq yenə də çox az siyasi şəxsiyyətə nəsib olan prinsipiallıq göstərərək gələcəkdə Azərbaycanda uzurpatorluğun ittiham edilməsinə yardım edəbiləcək bir addım atmış oldu. O, prezidentlik müddəti tamamlanmayana qədər istefa vermədi və diktator H.Əliyevin hökmranlıq etdiyi bir məmləkətdə yaşayaraq, ona siyasi dirəniş göstərə bildi. Dönüşündən sonra isə yenə də Azərbaycanın ən ciddi siyasi liderlərindən biri kimi müxtəlif istiqamətlərdə demokratik müqavimət hərəkatının təşkilatlanmasında aparıcı rol oynadı. Demokratik Konqresdən sonra, Seçki İslahatı və Demokratik Seçkilər Uğrunda hərəkatın da yaradılmasında aktiv iştirak edən Əbülfəz Elçibəy xüsusiylə də 1998-ci ilin sonlarında keçirilməsi nəzərdə tutulan prezident seçkilərinin azad və ədalətli keçirilməsi istiqamətində ardıcıl mübarizə aparan qüvvələrin birləşdirilməsində aparıcı rol oynamışdır.

Elçibəyin siyasi kimliyini yalnız mövcud Azərbaycan dövlətinin siyasi həyatı ilə məhdudlaşdırmaq mümkün deyildir. Onu başqa bir çox siyasi xadimlərdən də ayıran xüsus budur. Elçibəy, həm bütöv Azərbaycan davasının, həm də Türk xalqlarının birlik mücadiləsinin əvəzsiz və qəbul olunan liderdir. Elçibəy, özünün yaratdığı Bütöv

Azərbaycan Birliyinin sədri və Türk Xalqları Assambleyasının başqanı olmuşdur. Onun siyasi-ideya sistemi ətrafında yalnız Quzey və Güney Azərbaycan Türkləri deyil, həm də dünya Türklüyü öz mübarizə yönünü müəyyən etməkdədir. Bir demokrat olaraq bütün insanlığa sevgi ilə yanaşan Elçibəy, öz millətini sevən, onun azadlığını istəyən bir siyasi lider kimi, dünyanın bütün məkanlarında yaşayan Türklərin haqlarının müdafiəçisi kimi böyük nüfuz qazanmaqla yanaşı, prezident olduğu dövrdə Azərbaycanda milli azlıqların, etnik qrupların, azsaylı xalqların hüquq və azadlıqlarının qorunması ilə bağlı bu gün də əvəzolunmaz demokratiya nümunəsi sayılan fərman vermişdi. Bu fakt onun dönməz bir Türk milliyətçisi olmaqla yanaşı, bütün xalqların, etnik qrupların dəyərlərinə hörmət göstərməsinin açıq bir nümunəsidir. XX əsrin son on illiyində Azərbaycanda həm ölkənin daxilində, həm də xaricində fərqli siyasi topluluqlarda yaşayan insan kütləsinin dəstəyini və rəğbətini qazanmış Elçibəy nüfuzunda ikinci bir liderin olmadığı da bir həqiqətdir. Bu onun vəfatı ilə bağlı keçirilən mərasimlərdə bir daha öz təsdiqini tapmış oldu. Yüz minlərlə insanın izdihamı və öz milli liderinə sevgisini göstərməsi, Elçibəy fenomeninin yenidən kəşf olunması üçün imkan yaratdı.

Elçibəy fenomenini dərk etmək üçün onun həyatı və siyasi fəaliyyətinin bütün epizodlarını kompleks təhlil etmək lazımdır. Bu ömür yolunun içində maarifçi, inqilabçı, elm adamı, siyasi məhbus, dissident, milli azadlıq hərəkatının lideri, demokrat, ölkənin demokratik yolla seçilmiş ilk prezidenti, Azərbaycanın bütövləşməsi hərəkatının əvəzsiz lideri, türklük məfkurəsinin aparıcı ideoloqu və nəhayət dünya türklərinin azadlıq davasının şəriksiz qəbul olunan lideri kimi bütün xarakterik yönləri elmi cəhətdən ciddi təhlil olunmalıdır. Yeni başlayan əsrdə Azərbaycan Türklərinin milli hədəfinin Elçibəy tərəfindən irəli sürülən; «Bütövləşmə, Millətləşmə, Dövlətləşmə!» şüarında əks olunması Elçibəy fenomeninin Azərbaycan cəmiyyətinin, eləcə də dünya türklərinin azadlıq davasında hərəkətverici qüvvə olaraq qalacağını bir daha təsdiq edir.

# HAQQIN ELÇİBƏYİ HAQQINDA

Onun həyatı 20-ci əsr üçün yazılmışdı. Elə ona görə də 21-ci əsrə keçmədi. Həyatından fərqli olaraq düşündükləri 21-ci və daha sonrakı əsrlər üçün idi. Və onun qədər özündən sonrakı əsrləri görən və tanıyan çox az sayda şəxsiyyətə rast gəlmək olar. Çıxışlarında, yazılarında gələcək elə bir ümidlə təsəvvür edilirdi ki, rahatlıqla Azərbaycanın azadlığını, onun bütövlüyünü göz önünə gətirə bilirdin. Ən ümidsiz vəziyyətdə səbrlə hadisələrin necə inkişaf edəcəyini bilirmiş kimi qərarlar verən, öz inandığına hamını inandırmağı bacaran bir liderdən söhbət gedir. Zamanın axarında üzünün cizgiləri kimi yolunun cizgiləri də dəyişməyən, usanmadan hədəfini təkrar-təkrar yaddaşlara köçürməyə çalışan, günün məsələlərilə zahirən maraqlanıb, ardınca qlobal məsələlər üzərində nəticələr çıxaran bir liderdi. Ən əhəmiyyətsiz sayıla biləcək hadisələr, günlük epizodlar müşahidəsindən yayınmazdı, ancaq hamımızın həyəcanla qarşıladığımız epizodik hadisələri sadələşdirib, önəmsiz bir şeyə çevirirdi. Baxışlarıyla sanki «böyük işlər haqqında düşünün» deyə səssiz bir mesaj verirdi. Elçibəy erasını o özü yaratmışdı. Ətrafında çoxlu dostları, əqidə yoldaşları vardı, ancaq çoxları Ona hansısa mənəvi dəstək vermək əvəzinə, ondan necə enerji alacağını düşünürdü. Çoxları ondan nə qədər işıq qoparacağını və bu işıqla necə qidalanacağını düşünürdü. Onun işıqsız adamlarla təmasında hansı əzabı keçirdiyini rahatlıqla duya bilirdim. İşıqlı insanları necə sevdiyini də sezməmək mümkün deyildi. Hər dəfə onun insanlara yanaşma etalonunu xatırlayaraq öz davranışlarımıza çəki-düzən verməyi daha asanlıqla çözə bilirik. Bəlkə də on il öncə onun konkret bir insan haqqında dəyərləndirməsindən sonra insanlara münasibətimin açarını tapdığımı düşünərək çətinlikdən qurtulduğumu duymuşam. Tanıdığımız bir insan haqqında «yaxşı adamdı, ancaq içində cevhəri yoxdur» ifadəsindən sonra onun insanlara münasibətinin etalonunu anlamaq imkanı qazandım. Və rahatlıqla bu formulu bütün həyat münasibətlərində ünsiyyət saxladığım insanlara daxilən tətbiq edərkən hər hansı bir əsəb gərginliyindən qoruna bildiyimi gördüm. Hər zaman dühasına,

görücülüyünə inandığım insanların istismarına necə acıdığımı özünə də ifadə etdiyimdə, məni bir az gənc olmaqda suçlayırdı. Mənim üçün bəlkə də boş sayıla biləcək vaxt keçirmələrə qızdığımı görüb, hər çeşid insanla ünsiyyətin ciddi əhəmiyyəti olduğunu işarə ilə çatdırmağa çalışırdı. Razılaşa bilmirdim ki, söhbətinin tamı-duzu olmayan kimsə onun bir neçə saat vaxtını alırdı. Razılaşa bilmirdim ki, hər hansı bir dostlar çevrəsində keçirilən məclislərdə çoxları başa düşmək istəmir ki, onu bir az sərbəst buraxmaq lazımdır. O mütləq yazmalıdır. Onun həyatı özünə aid deyil. Mən Xudu Məmmədov, Aydın Məmmədov kimi zəngin bir düşüncə xəzinəsi olan insanların yaxın çevrəsi tərəfindən istismarını müşahidə etmişəm. Həmişə acımışam ki. boş-boş vaxt keçirmənin yerinə, onlara yazmaları, danışmaları üçün şərait yaradılmalıdır. Elçibəy də bu cür istismar edildi. Türkiyədə olduğum müddətdə hər dəfə telefon təmasımda yazmağı xahiş edərdim. Ona görə yox ki, ürəyimə nə zamansa Əbülfəz bəyin yoxluğu haqqında fikirlər dolmuşdu. Sadəcə anlayırdım ki, bu həyat onun özünə aid deyil və onun gələcəyə deyiləcək sözlərinin gecikdirilmədən yazılması vacibdir.

70-ci illərin tək-tənha yolçuluğundan yorulduğunu hiss etdirmirdi. Hərdən mən heyrətlə hər şeyi dərindən müşahidə edən, ən xırda məsələləri belə diqqətə aldığını sezdirən bu adamın zamanın axarını öz səbrinə necə tabe etdirdiyini seyr edirdim. Öz elmi yaxud siyasi qənaətləri haqqında nə qədər inadcıl olduğunu duysam da, ağıllı, məntiqli fikrə, sözə qarşı öz düşündüklərinə zidd gəlsə belə dərhal həssaslıq göstərməsini zövqlə qarşılayırdım. Elə bir məsələ yox idi ki, özündən yaşca və siyasi təcrübəcə xeyli hazırlıqsız olan mübarizə yoldaşının tutarlı arqumentlərini qəbul etməkdən imtina edəydi. Onun «prezident olacağam!» sözlərinin altında gizlənən yayındırıcı məqsəd, başqa məsələlərdə də özünü göstərirdi. Həqiqətən onun üçün bəlkə də həyatının ən ağır dövrü prezident olarkən yaşanmışdı. Ona görə yox ki, hakimiyyət təcrübəsizliyindən tutmuş, dövrün şərtlərinə qədər bir çox amil Elçibəyə milli hakimiyyəti lazımi səviyyədə qorumaq imkanı verməmişdi. Bu imkansızlıqla birlikdə subyektiv sayılan başqa səbəblər də yox deyildi. Əslində dövlətin başında duranlar üçün heç vaxt rahat dövrlər olmur və bu çətinliklərlə hesablaşıb önə çıxmalısan. O, sadəcə dövlət kürsüsündə

illərdir iç- içə yaşadığı cəmiyyətdən aralanmaq qorxusunu daşıyırdı. O, hətta prezident kimi də ara-sıra çayxananın bir köşəsində oturub dostları ilə mübahisələrə girişməyi arzulayırdı. O prezident kimi deyə bilməyəcəyi sözlərin təzyiqi altıda özünü hiss edirdi. Necə ola bilər ki, sən Güney Azərbaycan Türkünün dərdindən bir şey söyləyə bilməyəsən. Axı vəzifə öz yerində, ondan da böyük bir vəzifənin adamı, öz sözlərini içinə basdırdıqda daha çox sıxılırdı. Yaşadığı ömür boyunda heç kimin stabil daşıya bilməyəcəyi bir adı və statusu qazanmağı bacarmışdı. 30 ildir ona Bəy deyə müraciət edənlər, bütün arzularını onun obrazında qurmuşdular. Bəy gələcək, Bəy danışacaq, Bəy son sözü deyəcək... vs.

Azərbaycan Türkü gördü, duydu. Bəy gəldi. Bəy danışdı. Bəy son sözü dedi. İndi o sözlər özünü Türk kimi tanıyan, Türkün idealını anlayan hər insanın həyat fəlsəfəsinə çevrilməlidir. Və hər şeydən öncə içində Elçibəyin işarə etdiyi cevhəri daşıyanların hər yerdə bir birini tanıması, bir-birinə inanması və bir hədəfə doğru addımlaması vacibdir.

# İSLAM İBADƏTİ VƏ ANA DİLİ

Azərbaycanda son dövrlərdə islam ibadətinin doğma dildə icra olunması ilə bağlı aparılan diskussiyalar cəmiyyətdə ciddi rezonans doğurdu. Bir müddət əvvəl ölkədə xristian missionerlərinin fəaliyyətlərinin güclənməsi haqqında söz-söhbətlər sanki geniş ictimai etiraz formasında təbliğ olunmağa başlanmışdı. «Vaveyla şəriət əldən getdi» şəklində islam ruhundan uzaq, ancaq islam libası geymiş kimsələrin hay-küyündən fərqli olaraq elitar islam düşünürləri bu məsələnin böyük təhlükə yaratdığı qənaətində deyildilər. Çünki beş-on nəfərin təbliğatı nəticəsində az sayda müsəlman dönüb xristian olursa, həqiqətən də burada islama hansısa zərbə dəydi deyibən hay-küy salmağına dəyməzdi. Hər halda bunları nəzərə alan hakimiyyət orqanları missioner təşkilatlarının fəaliyyətinin tənzimlənməsi haqqında qanunvericilikdə məhdudiyyətləri gücləndirməklə və bu təşkilatlar üzərində təzyiqləri artırmaqla sakitlik yarada bildilər. Ancaq ictimai-siyasi qüvvələrin çoxunu narahat edən əsas və daimi məsələ kimi yenə də İran dini təsirlərinin Azərbaycanda artması prosesi diqqət mərkəzində qalmaqdadır. Bu təsirin zərərsizləşdirilməsi istiqamətində atılan addımlar arasında İslam partiyası rəhbərlərinin bir neçə il əvvəl həbs olunması və başqa sahələrdə onlara qarşı hökumətin sərt mövqe nümayiş etdirməsi faktları xatırlana bilər. Son günlərdə isə dini ibadətlərin Azərbaycan Türkcəsində icra olunması mövzusu ciddi rezonans doğurmuşdur. İlk öncə bu təklif AXCP-nin din konsepsiyasına əsaslanaraq irəli sürüldü və dərhal İranın təsiri altında olan İslam partiyası və ona yaxın dairələrin bu təklifi etirazla qarşıladıqları bəlli oldu. Aparılan müzakirələrdə Quranın tərcüməsi və ibadətlərin doğma dildə icra olunması mövzusunda əsasən üç mövqe ortaya çıxdı. Birinci mövqeyə görə bütün İslam ibadətlərinin və dualarının Azərbaycan Türkcəsində icrası təklif olunurdu. İkinci mövqedə duranlar isə, namaza aid olanlardan başqa qalan ibadət və duaların doğma dildə səslənməsinin mümkünlüyünü qəbul edirdilər. Üçüncülər isə bütövlükdə ibadət məsələsinin köhnə qaydada davam etdirilməsini daha məqbul sayırdılar. Bəzi məqamlarda mübahisələr

o qədər gərginləşmişdi ki, islamçı cinaha yaxın mətbuat orqanlarında yenilikçilərin ünvanına sərt təhdidlər də səsləndirilirdi. Bütün bu mübahisələrin sivil müstəvidə aparılmasını təmin etmək məqsədilə AXCP qərargahında «Din və Demokratiya» mərkəzi ötən həftə bütün tərəflərin iştirakı ilə «Dinimiz və dilimiz» mövzusunda maraqlı bir diskussiya tədbiri təşkil etdi. Tədbirin keçirilməsində əsas məqsəd namazın ana dilində qılınması ilə bağlı ölkənin dini müəssisələrinin, islamçı araşdırmaçıların və dindarların fikirlərini öyrənmək idi.

Problemə ümumi bir münasibət göstərmək istəsək, o zaman bəzi arqumentləri araşdırmaq zərurəti yaranar. Tərəddüdsüz qəbul edirik ki, islam bütün zamanların dinidir. Hər zamanı islama köçürüb islamı dəyişdirmək mümkün deyil. Amma islamı istənilən zamana tətbiq etmək mümkündür. Namazın Türkcə icra olunmasını təklif edənlərə görə, Quran ərəbcə nazil edildiyindən, bu dildə sözlərin yanlış tələffüz edilməsi Quranda nəzərdə tutulandan fərqli mənalar verə bilər. Bu isə niyyətin təmizliyinə baxmayaraq, ibadətin yanlış mənada anlaşılmasına gətirib çıxarar. Eyni qaydada, mükəmməl mənasını tərcümə etməyin mümkünsüzlüyünü etiraf etdiyimiz Quranın, başqa dildə hər hansı tərcüməsinə əsaslanmaqla yenə yanlış mənanın ortaya çıxa biləcəyi kimi əks arqumentlə çıxış etmək də mümkündür. Çünki hər iki halda Allaha çatdırmalı olduğumuz mesajı təhrif etməyimiz mümkündür. Digər bir tezis isə, bizim Türk milləti olaraq ərəb dilində ibadəti həyata keçirməyimizin düzgün olmadığı şəklində təqdim olunur. Əlbəttə ki, İslam ümumbəşəri bir dindir. Ayrıca Ərəbin, Farsın, Türkün İslamı yoxdur, insanlığın islamı vardır. Bütün qövmlərə peyğəmbərlər göndərildiyi Quranda əks olunur. Türklərin peyğəmbəri mövzusunda tarixi mənbələr çox zaman Quranda adı keçən Zülqərneyn üzərində dayanırlar. Ancaq onun şəriət gətirən peyğəmbərlərdən olmadığı açıqdır. Türklərin böyük çoxluğu İslam dini üzərində tarixi seçimlərini etmişlərsə və əsrlər boyu bunu dövlət və cəmiyyət bünyəsində yaşada bilmişlərsə, bu faktın özünə sayğı ilə yanaşmaq lazımdır. Çox zaman Quranın dilinin ərəbcə olmasını və Məhəmməd peyğəmbərin milli kimliyini əsas götürərək onu ərəb peyğəmbəri kimi təqdim etmək doğru deyildir. İslam gözəl əxlaqı tamamlamaq üçün göndərilmiş bir dindirsə, o zaman bütün insanlığa xitab edən bir dinin təbliğçisinin

ərəb olması və kitabın ərəbcə göndərilməsi Türklər üçün mübahisə mövzusu olmamalıdır. Söhbət ərəblərdə, farslarda olduğu kimi islam anlayışının fərqliliyindən gedə bilər ki, türklərin də islama yanaşmasında çox ciddi özünəməxsusluq elementlərinin olduğu inkarolunmaz bir gerçəkdir.

İslam ibadətlərinin doğma dildə icra olunması məsələsi Azərbaycana yaxın olan Türkiyədə də indiyə qədər ciddi mübahisə mövzusu olaraq qalır. Orada 1932-ci ildə əzan və qamətin türkcələşdirilməsi haqqında qərar qəbul olunmuşdu. Atatürk dövründə hətta 1928-ci ildə Fuad Köprülünün başçılığı altında yaradılmış komissiyaya dində islahatların hazırlanması barədə də tapşırıq verilmişdi. Sonra ictimai təzyiqləri nəzərə alaraq bu komissiya öz işini davam etdirmədi. Dövlət tərəfindən uzun illər tətbiq edilən Türkcə əzan və qamət cəmiyyətdə elitar çevrədən başqa digərlərində rəğbətlə qarşılanmadı. Məhz bu cəhətləri seçki təbliğatında istifadə edən Demokrat Partiyası səslərin əksəriyyətini qazanaraq «milli şef» sayılan İsmət İnönünü məğlub etdilər. Cəlal Bayar və Adnan Menderes birliyinin Türkiyədə 1950-ci ildən başlayaraq hakimiyyət zamanı atdığı ilk addımlardan biri də əzan və qamətin əvvəlki qaydada icra olunmasını təmin etməklə bağlı idi. Sonrakı dövrlərdə ziyalı çevrələrində tez-tez ibadətin Türkcə aparılması mövzusuna toxunulsa da, cəmiyyətdə böyük dəstək görmədiyindən sadəcə ara-sıra mübahisə və diskussiya mövzusu kimi qaldı. Əhalinin böyük əksəriyyəti ibadətin ərəbcə davam etdirilməsinə tərəfdar olsa da, hər halda bu məsələyə maraq azalmadı.

Azərbaycanda da ibadətin doğma dildə icra olunması barədə diskussiyalar uzun illər davam edə bilər. Namazın bütün müsəlmanlar üçün eyni dildə qılınmasının ayrı-ayrı qövmlər arasında həmrəylik duyğusunun qorunması baxımından əhəmiyyətini də diqqətdən qaçırmaq olmaz. Lakin qalan ibadətlərin icrasının və mərasimlərdə Quran oxunuşunun doğma dildə olması təklif deyil, hətta ciddi tələb kimi ortaya qoyulmalıdır. Bu mübahisələrdən də daha mühüm iş dini maarifçiliyin gücləndirilməsi, millətimizin fars, ərəb zehniyyətindən fərqli şəkildə islam anlayışına sahib olmasıdır.

## ORTAQ GƏLƏCƏK HAQQINDA BİR NEÇƏ SÖZ

Müharibənin təhlükəsi haqqında yaradılan mifləri bir anlığa unudaq. Uduzmağımızı anlayırıq. Həm də bir çoxlarının təsəlli verici tərzdə söylədiyi şəkildə təkcə son döyüşü yox. Neçə ki bir zamanlar Osmanlı dövlət adamı Əli Paşanın; «Əsgərimiz vardı, amma ordumuz yoxdu» sözlərinin acı gerçəyi ilə üz-üzəyik. Bizdə də buna bənzər bir durum vardır. Və müharibədəki məğlubiyyətdən sonra da biz nəfsimizdə, iştahımızda, yaşayış tərzimizdə, ideallarımızda heç bir ciddi dəyişiklik yarada bilməmişik. Uduzmaq təkcə nəticə olaraq ərazinin işğal olunması deyil. Bir millətin insanları olaraq çoxumuz öz iradəmizin işğalını, hətta zorlanmasını da rahatca həzm edərək yaşayırıq və burada heç bir qəbahət də görmürük. Əslində millət olaraq bütünləşmək və iradəmizi ortaya qoymaq üçün çoxumuz cəmiyyətin hər bir üzvündən ilk öncə vətənsevərlik tələb edirik. Bəzi filosoflar isə haqlı olaraq qeyd edirlər ki, əslində millətləri yaradan vətənsevərlik amili deyil və bir millətin mövcud olması üçün bir qrup insanın keçmişə birlikdə baxa bilməsi əsas şərt sayıla bilməz. İspan filosofu Orteqa u Qasset Mərkəzi və Güney Amerika xalqlarıyla İspaniyanın müştərək keçmişi, müştərək dili, müştərək irqləri olmasına baxmayaraq onlarla birlikdə vahid millət ola bilməməsinin səbəbini müştərək bir gələcəyə sahib olmamalarına bağlayır. Doğrudan da İspaniya bu bioloji cəhətdən qohum qrupları özünə çəkmək uğrunda gələcək üçün hamının qəbul edəcəyi kollektiv bir proqram hazırlaya bilməmişdi. Bu gün Anadolu, Azərbaycan, özbək, qazax, qırğız, türkmən və başqa Türk şöbələri özlərini eyni gələcəyi arzulayan bir cəmiyyət olaraq görə bilmirlərsə, bu istiqamətdə proqram hazırlığının vaxtının yetişdiyini anlamamışlarsa, o zaman Türklərin ortaq gələcəyi də təhlükə altındadır. Eyni məsələni Azərbaycana da aid etmək mümkündür. Bir-birilə bioloji bağlılığı olan məmləkət insanımız gələcək haqqında təsəvvürlər, ideallar ortaqlığını yarada bilmədikcə müharibələrdən, təlatümlərdən hər zaman uduzub çıxacağıq. Ziya Gökalp deyərdi ki, «başqa millətlər mədəniyyət əsrinə girmək üçün keçmişlərindən uzaqlaşmağa məcburdurlar. Halbuki, Türklərin mədəniyyət əsrinə girmələri üçün,

yalnız qədim keçmişlərinə dönüb baxmaları kifayətdir.» Əslində gələcəyi barədə aydın proqrama sahib cəmiyyətlər üçün bu keçmişə baxma sadəcə orada xəyallar içində yatıb qalma deyil, oradan alınan enerji ilə çağın, gələcəyin konturlarını hazırlaya bilmək kimi başa düşülməlidir. Bu gələcək haqqında düşünən Azərbaycan Türkünün hər bir sıra nəfəri özü qarşısında «mən öz dövlətim və millətim üçün nə etməliyəm, hansı fədakarlığı üzərimə götürməliyəm, hansı yükün altına girməliyəm» sualını qoymalıdır. Necə ki, məşhur rus filosofu Berdyayevin maraqlı müqayisəsini xatırlatmadan mövzunu qapatmaq olmaz: «Alman hiss edirdi ki, onu Almaniya yox, o, Almaniyanı xilas etməlidir. Rus isə fikirləşir ki, o, Rusiyanı yox, Rusiya onu xilas etməlidir. Rus heç vaxt özünü təşkilatçı hesab etmir. O başqası tərəfindən təşkil olunmağa adət edib.» Məgər bizlər də bu baxımdan ruslarla eyni durumda deyilikmi? Çoxumuz kiminsə başımıza keçməsi ilə vəziyyətin düzələcəyinə sadəlövhcəsinə özümüzü inandırmışıq. Kimsə gəlsin, təşkilatlandırsın bizi. H.Əliyev çörəyimizi əlimizdən aldı, kimsə gəlsin çörək versin. İndikilərdən qəddar olmayan, bir az rəhmdil olan başqası gəlsin. Nə olacaq? Onun da işlədiyi material eyni insan cəmiyyəti olmayacaqmı? Xiyabani deyirdi ki, «millətimiz hər zaman özünü qurdlardan qurtarıb, boğazına bıçaq dayayan zalım bir çoban gözləyir. Şərəfli bir millət öz taleyini zalımlara əmanət etməz.» Mən isə deyərdim ki, ümümiyyətlə şərəfli millət taleyini kimsəyə əmanət etmədən, hər bir fərdini gələcək ideallar üçün fədakarlığa hazırlamalıdır. Müqayisə üçün almanların tarixini götürün. Almanların birləşmiş dövlət hədəflərinə çatmaları üçün ideologiyalarının əsas dayağını azadlıq mübarizəsi təşkil etmişdir. Şairi də, filosofu da, faşisti, kommunisti, dövlət adamı da eyni xətti sanki bir-biri ilə danışaraq həyata keçirmişlər. Humanist Hötenin: «Yaşamaq və azadlığa o kəslər layiqdirlər ki, hər gün bunun uğrunda mübarizə aparırlar» kimi həyəcanlı ifadəsi; faşist Hitlerin: «Azadlığı üçün mübarizəyə hazır olmayan və ya qüdrəti olmayan bir millət Allah tərəfindən əbədi yox olmağa məhkum olunmuşdur. Bu dünya, bu düzən qorxaq və ürəksiz millətlər üçün qurulmamışdır» kimi hərarətli təhdidi ilə tamamlanır. Təbii ki, bu sistemli, əlaqəli hərəkat birdən-birə uğurla nəticələnməyə də bilər. İlk öncə irqi azadlıq zəminində axtarışları

fəlakətli bir sonluqla nəticələnsə də, 1946-cı ildən başlayaraq yeni inteqrasiya formalarını seçən almanlar öz iradələrini ortaya qoya bildilər. Azərbaycan cəmiyyəti də mütləq bu cür axtarışlara başlamalıdır. Təlatümlərdən, məcaralardan qorxmadan, çəkinmədən. Və bu missiyanı mütləq bütöv dövlətimizin qurulması üçün öz rolunu və yerini idrak etmiş bizimlə bir məfkurənin daşıyıcısı olanlar başlamalıdır. Bir zaman böyük filosof Sokrat öz cəmiyyətinə işarə edərək yazırdı ki, Yunan sifəti bizim sayəmizdə bütün millətə deyil, aydın və oxumuş insanlardan ibarət bir cəmiyyətə; mənşəyi bizimlə bərabər olanlara deyil, tərbiyəsi bizdən olanlara aid edilir. Bu mövzuda başqa bir fransız müəllifi isə yazırdı ki, fransızların əksəriyyəti şüurlu hissiyyatının, aydınlığının bir nəticəsi olaraq özünü fransız tanıyanı, fransız olaraq qəbul edərlər. Bu gün bizlər də tərbiyəsi, hissiyatı bizimlə eyni olan Azərbaycan Türklərini öz missiyalarına doğru hərəkətə hazırlamalıyıq. Hər şeydən öncə Azərbaycanın doğru və gerçəkçi başlanğıca ehtiyacı olduğunu idrak etməyimiz lazımdır. Başlamaq üçün isə bizim missiyanın daşıyıcısı olan insanların sayının azlığı vacib deyil. Həzrəti Məhəmmədin öncə 43 tərəfdarı, Timuçinin 29 baturu olmuşdur. Martin Lüter isə yalnız idi.

# İSTİQLALÇILIQLA QALMAQALÇILIĞIN FƏRQİ

İranla bağlı dünya siyasətində baş verən son gəlişmələr Azərbaycan cəmiyyətinin daha çox diqqətini özünə hakim edib. İstər islam terrorizmi, neft, supergüc nüfuzunun nümayişi, nüvə silahı təhlükəsi, dövlət qisasçılığı motivləri olsun, istər də sadəcə dünyanın demokratikləşdirilməsi uğrunda amerikan fədakarlığı olsun, bu gün Azərbaycanın maraqları baxımından nəzərə çarpan motivlərin fərqi olmadığını anlayırıq və bu proseslərin içində bizim millət davamızın həlledici mərhələsinin yaxınlaşdığını müşahidə edirik. Bu tarixi anda bizim istədiyimiz Azərbaycanın güneyinin uğurlu bir variantda öz dövlət şəklini qazanmağa doğru nəticələr əldə etməsidir. Teokratik totalitar rejim kimi dünya üçün təhlükə mənbəyinə çevrilən İranın ABŞ-ın dövlət qisasçılığı siyasəti silsiləsində özəl yer tutması faktı ilə bu müstəbid dövlətin bizim Böyük Azərbaycan ideyasının əngəlinə çevrilməsi gerçəyinin eyni zaman kəsiminə uyğun gəlməsinin də öz avantajları olduğunu görməkdəyik. İranda aparılması nəzərdə tutulan savaşın Əfqanıstan və ya İraqla savaşdan çox-çox ciddi boyutlarda olduğu amerikan strateqlərini də ciddi düşünməyə vadar etmişdir. Buna görə də başlanğıc olaraq informasiya savaşında üstünlük qazanmaq üçün külli miqdarda vəsait sərf olunması barədə addımlar atılmaqdadır. İrandakı molla sinfinin tarixi köklərinə diqqət yetirilərsə, aciz tısbağa cildində görünən bu ölkənin qabıqaltı resurslarının fəth edilməsinin zaman-zaman mümükünsüzlüyünü amerikanlar hər halda əhatəli araşdırmışlar. Bilirlər ki, İran həm də yeganə ölkədir ki, İslam kimi mükəmməl monoteist bir dini mahiyyətcə dəyişə bilmiş, bu dinin təməl fəlsəfəsinə zidd olaraq güclü molla sinfinin varlığını Allahla bəndənin arasına yerləşdirərək dövlətçiliyin ayrılmaz atributlarından birinə çevirmişlər. 1978-ci il inqilabından sonrakı dövrdə isə bu təbəqə imamın naibləri statusundan əlavə həm də çoxşaxəli mülkiyyət sahibliyi əldə edərək ideoloji və iqtisadi mövqelərini yüksək səviyyədə möhkəmlədə bilmişlər. İraqda Səddam azlığın təmsilçisi kimi sadəcə süni şəkildə yaradılmış rejimin və beynəlxalq

siyasi konjekturanın yardımı ilə uzun illər hakimiyyətdə qala bilmişdi. Proletar diktaturasından daha böyük tarixi ənənəyə malik olan bir sinif diktaturasına qarşı savaşın tarixi ənənəsi olmayan Səddam kimi diktatora qarşı savaşdan daha üzücü və ağır olacağı indidən proqnozlaşdırıla bilər. ABŞ-ın İranla 1978-ci ildə münasibətlərinin korlanmasının ən çox faydasını əldə edən Səddam bundan səmərəli istifadə etmək yollarını tapa bilmədiyindən İraqı bu duruma gətirib çıxardı. Talibanın və ya Səddamın cəmiyyətin köklərinə qədər işləməyən təbliğat silahı ilə mollaların cəmiyyətin bütün sistemini əhatə edən etkinliyinin müqayəsəolunmaz dərəcədə fərqli olduğu kimsədə şübhə doğurmur. Çox da ki, İranda rejimdən narazılıq son həddə çatıb, eyni zamanda unudulmamalıdır ki, son iyirmi beş ildə molla şəbəkəsi siyasi, iqtisadi və hərbi təşkilatlanma işini yüksək səviyyədə həyata keçirə bilmişdir. Xüsusilə də İran son iyirmi beş ildə Yaxın Şərqdə terrorizmi dəstəkləyən kamp-ölkə kimi tanınmaqdadır və daxildə qərb ölkələrinin hər hansı müdaxiləsi şəraitində partizan müharibəsinin daha acımasız olacağını bəri başdan ehtimal etmək olar. Digər tərəfdən bir yanaşma da aydındır ki, ABŞ İranı parçalamaq istəmir. ABŞ-ın müttəfiqi olan Böyük Britaniya istisna olmaqla Avropa dövlətləri isə ümumiyyətlə, arının yuvasına çöp uzatmağa maraqlı deyillər. Sadəcə İraq məsələsindən sonra yenidən ovsaytda qalmamaq naminə bu dəfə birgəlik nümayiş etməyə məhkumdurlar. Parçalamaq istənilmirsə, deməli yeniləşmiş İranda yeni bir islahatçı molla və ya neomoarxist hakimiyyətlə demokratiyanın bərpa ediləcəyi fikri çətin əsaslandırıla bilər. Çünki İranda ən başlıca spesifiklik budur ki, milli azlıqların deyil, milli çoxluğun- Azərbacan türklərinin hüquqlarının pozuntusu var. Ancaq tarixdən dərs almalı xüsusi bir gerçəklik var: İran, parçalanmamış fəth olunmayacaqdır. Bu bizim istiqiqlalçı düşüncəmizin gəldiyi nəticə kimi də qiymətləndirilə bilər. Bütün bu gəlişmələrin işığında günün tələbi kimi qarşımızda Qərb dünyası ilə İran məsələsində uzlaşma nöqtəsinin tapılması problemi durur. Həm onların maraqlarına, həm də bizim indiki maraqlara uyğun gələn variantları işləyib ortaya qoymalıyıq. Yəni inandıra bilməliyik ki, İran məsələsinin həlli Güney Azərbaycan faktorunun önə çıxarılması ilə doğru istiqamətini tapa bilər.

Heç şübhəsiz ki, Bütöv Azəbaycan probleminin siyasi sistemləşdirilməsi Elçibəy tərəfindən irəli sürülmüşdür. Elçibəyin Kələkidəki sürgün dövründə Azərbaycanda hakimiyyət problemindən daha çox Bütöv Azərbaycan məsələsinin ideoloci və təşkilati hazırlıq problemlərinin həll üzərində çalışdığının çoxları şahididir. Sürgündən geri dönüşündən sonra Xalq Cəbhəsinin hərəkat emosiyasını və dinamizmini Bütöv Azərbayjan Birliyi üzərinə köçürmə siyasətini izləyərək iki məsələnin aktuallığını diqqət mərkəzinə gətirdi. Birincisi, Elçibəy nəticə çıxarmışdı ki, Qarabağ savaşından öncə təşkilat mexanizminin olmaması səbəbinə hadisələrin Azərbaycanın maraqlarına uyğun nəzarət olunan ssenari üzərində inkişafını əldə etmək mümkün olmamışdır. Yəni cəmiyyəti toparlayacaq dövlət institutu ortada olmadığı halda bu işi öhdəsinə götürəcək təşkilat yaradılması məsələsində də çox gecikmiş durumda qalınmışdır. Əsl həqiqətdə ermənilərin dövlətsiz də milli din müəssisəsi vasitəsilə cəmiyyətlərini daha mükəmməl təşkilatlandıra biməsi Qarabağ uğurunda həlledici rol oynamışdır. Burada rus ordusunun ermənilərə yardım faktının sonrakı sıralamada yerləşdirməyəmiz daha obyektiv yanaşma sayıla bilər. Azərbaycanda bu və ya digər səbəbdən bu cür cəmiyyətüstü təsisatların olmamsının yaratdığı boşluğu Xalq Cəbhəsi hərəkatı modeli ilə doldurmaq isə hətta obyektiv səbəblərdən də olsa gecikmiş hadisə kimi qiymətləndirilməlidir. Yəni 1988-ci ildə başlayan siyasi təşkilatsız hərəkat öz xarakterinə uyğun təşkilatı bir il sonra meydana çıxara bildi. Savaş isə artıq başlanmış, Ermənistan türklərdən təmizlənmiş, Qarabağ isə tam şəkildə ermənilərin mənafeyini himayə edən ümumittifaq qurumların nəzarəti altına keçirilmişdi. Üstəlik, cəmiyyətimizin dövrün xarizmatik lider axtarışları da yekunlaşmamışdı. Bu boşluğu dolduracaq kommunist liderin olmaması da məsələnin ən ağrılı cəhətlərindən sayılmalıdır. Etiraf etməliyik ki, Elçibəy öz xarizmasını yalnız 1992-ci ildə hakimiyyət məsələsinin ortaya qoyulması dövründə Cəbhəyə və qismən də cəmiyyətə qəbul etdirə bilmişdi. Təşkilatsız və lidersiz, üstəlik də natamam dövlət modelinin mövcudluğu şəraitində Qarabağ savaşının aqibətinin başqa cür olmasını gözləmək sadəlövhlükdən

başqa bir şey deyildir. İndi Güney Azərbaycan məsələsinə də bu savaşın nəticələrini əsas götürüb yenidən düşünməliyik.

Düşüncəmizə görə, Güney Azərbaycan davasını ruhani və elmi bir sistem kimi qəbul edən Elçibəy daha çox bu problemin duyğusal ifadə formasında təqdimatına üstünlük verirdi. Ancaq tarixi gerçəkliyi və hadisələrin inkişafını bütün dəqiqliyi ilə qiymətləndirərək, artıq indi onun proqnozlarının təsdiqləndiyinə daha çox inanan bir cəmiyyəti görürük. Güney Azərbaycan problemini gündəmə gətirəcək güclü təşkilatı varlığına böyük dövlətlərin maraq göstərməməsi bilinən bir həqiqətdir. Bu istiqamətdə nə mötədil, nə radikal, nə də ultraradikal xarakterləri ilə tanınan təşkilat modellərini dünyanın diqqətinə çatdıra bilməməkdə öz suçumuz az olmasa da, bunun həyata keçirilməsinə ABŞ və ya hansısa Avropa dövlətlərinin eləcə də Türkiyə kimi qardaş bir ölkənin dəstəyini əsirgəməsi faktını da görməzdən gələ bilmərik. ABŞ və Avropa dövlətlərinin İran probleminə Azərbaycan məsələsindən giriş etmə niyyətinin olmaması, Türkiyənin isə dörd illik parlament seçkiləri ilə məhdudlaşan cari politika gələnəyi, 250 il öncənin Qəsri- Şirin anlaşmasının sükunətindən ayıla bilməməsi beynəlxalq arenada gücü ilə hesablaşılan Azərbaycanın bir istiqlalçı təşkilatın ortada olmamasının əsas səbəbləridir. Sözsüz ki, başqalarından öncə Azərbaycanın bütövləşməsi ideyasını dəstəkləməli və ən çox maraq göstərməli olan Azərbaycan dövləti olmalıydı. Lakin Elçibəydən sonra hakimiyyətə gələn H.Əliyevin milli idealizmdən məhrum günlük siyasətçilik təəkkürü ilə problemə yaxın düşmə niyyətini göstərmədi. Hətta H.Əliyev bu problemi də ucuzlaşdırma yolu tutaraq, dünya azərbaycanlıların əsas vəzifəsinin onun rejiminə zəhmətkeşlərin dəstək formalarından biri kimi baxmağa çalışdı və yalnız bu diaspor fəaliyyətlərinin qurulması xəttinə üstünlük verdi. Elçibəy isə məhz bu boşluğu düşünərək sürgündən geri dönüşündən dərhal sonra təşkilatlanma prosesinin əsasını qoydu və bu təşkilatın Güney Azərbaycan türklərinə dəstəkçi mahiyyət daşıdığını göstərmək üçün inadla güney Azərbaycan türklərinin lideri statusunun bir nəfər üzərində cəmlənməsinə çalışdı. Bu məsələdə HəƏliyev rejimi dövlət mexanizmindən istifadə edərək arxa planda qalmaqla başlanan hərəkata maddi və mənəvi dəstək vermədilər.

Bütöv Azərbaycan ideyası Elçibəyin sayəsində cəmiyyət içində geniş populyarlıq qazansa da, eyni uğuru bu işin öncül təşkilatı edə bilmədi. Elçibəy dərindən anlayırdı ki, zəif təşkilat əvəzinə beynəlxalq arenaya Nelson Mandela tipli ictimai xadim təqdim etmək mütləq lazım gələcəkdir: Sözçü və lider. Təqiblərə məruz qalan. İnsan haqlarının pozulmasını öz obrazında təsdiqləyə bilən. Çünki İrana ən doğru giriş insan haqları qapısıdır. Bu obraz mütləq güney Azərbaycandan ortaya çıxarılmalıydı. Çünki birinci mərhələ İran daxilində, Güney Azərbaycan coğrafiyasında başlamalıydı. Elçibəyin kimin üzərində dayanmasının nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyinin geniş izaha ehtiyacı olmadığı görüşündəyik. Və onun israrla üzərində dayandığı Çöhrəqanlı obrazı qısa müddət sonra ictimai faydasını göstərməyə başladı. Çöhrəqanlı bu işi bəlkə də Elçibəyin gözlədiyindən daha çevik və sistemli həll etməyi bacardı. Nöqsanlar ola bilər. Ancaq ortaya çıxan və artıq Azərbaycan cəmiyyətinin ciddi qəbul etdiyi, dünyanın aparıcı dövlətlərinin sənədlərində adı duyurulan, fikirlərinə əhəmiyyət verilən və ən əsası da Güney Azərbaycan davasının sözcüsü olduğu qəbul edilən bir liderlə tanış ola bildik. Proseslərin bir şəxsiyyət üzərində cəmlənməsinin gətirdiyi sorunlar da az olmur. Ancaq milli-azadlıq davasında Qandi, Mandela və ya Ərəfat faktorunun önəmini sübut etmək artıq olardı.

Çöhrəqanlının çıxışlarında bir gerçəyi qəbul etmək olur: Xalq Cəbhəsi yarananda yenidənqurmanı müdafiə adını başlığa çıxarmışdı. Sonrakı tarixi şərait özü bu şüarı unutdurdu və tam müstəqillik şüarı hərəkatın ayrılmaz xəttinə dönüşdü. İndi Güney Azərbaycanda federasiya şüarı ilə çıxışın düzgün diplomatik addım olduğu sezilməkdədir. Bunun üçün alim olmağa gərək yox. Tarixi ənənəni yaxşı bilmək yetərlidir. M.Ə.Rəsulzadə 1917-ci ildə milli-mədəni muxtariyyət şüarı ilə çıxış edirdi, 1918-ci ildə ilk fürsətdə müstəqil dövlət yaratdı. Elçibəy Xalq Cəbhəsinin lideri olaraq yenidənqurmanı dəstəkləmək siyasətini qabardırdı, ancaq 1991-ci ildə uyğun fürsət yaranan kimi tam müstəqillik kursunu ortaya qoyub gerçəkləşdirdi. İndi Çöhrəqanlı nə etməlidir? Bizim bəzi güney Azərbaycan üzrə diletant siyasət mütəxəssislərinin ədəbiyyat şüarlarına uyaraq böyük bir siyasi məsələni mövcud tarixi şəraitdə

iflasa aparmağa haqqımız yoxdur. İndi bizim Quzey Azərbaycanda bütövləşmə düşüncəsini siyasi kurs olaraq götürən hərəkatçılarımız Güney Azərbaycan türklərinin İran daxilində mübarizəsinə dəstəkverici fəaliyyət göstərməklə işin içinə girməlidirlər. Çünki bu gün İranla bağlı dünya siyasətinin yeni pərdəsi açılarkən Bütöv Azərbaycan probleminin dərhal çözüləcəyi illüziyasını yaşaya bilmərik. Bu gün Azərbaycanın bütövləşməsi mərhələsi deyil, dünya siyasətində İran probleminin çözüldüyü ərəfədə Güney Azərbaycan türklərinin ən uğurlu nəticələr əldə etməsi mərhələsidir. Bu nəticə ilk mərhələdə federasiya olsa belə, yenə də uğurlu sayıla bilər. Azərbaycanın bütövləşməsi prosedurasının başladığı andan bizim rolumuz bu məsələlərdə daha da artacaq. Həm də qəbul etməliyik ki, Bütöv Azərbaycan dövlətini təkcə ustad Şəhriyarın şerləri ilə yaratmayacağıq. Rəqəmlərlə, iqtisadi proqnozlarla, mənəvi cəhətdən bir-birinə uzlaşmış cəmiyyətlərlə qurucağıq. Bir model olaraq elmi-nəzəri çərçivəsini indidən hazırlamağa diqqət yönəltməliyik. Almaniyada bötövləşmə hərəkatı ayrılan gündən başladı. Bizimki isə heç olmazsa ayılan gündən başlamalıdır və ayıq başlamalıyıq.

Azərbaycan davasının bu mərhələsinin öz uğursuzluqları da var. Elçibəy gətirə bildiyi nöqtəyə qədər işin ideyanın təbliği, təşkilatın qurulması və lider tanıtımı tərəflərini həll etdi. Lazım olan ideya cəmiyyətimiz tərəfindən anlaşıldı. Ən azı ABŞ deyəndə ki, İranı normal bir dövlətə çevirəcəyəm, o zaman xatırladılar ki, Elçibəy İranın 2005-c ilə qədər dağılacağını söyləmişdi. Bu isə bütöv Azərbaycan məsələsinin reallaşmasına cəmiyyəti daha ciddi yanaşmaya sövq etdi. Elçibəydən sonrakı Bütöv Azərbacançı təşkilatların öz cazibdarlığının itirməsi problemlə bağlı təşkilat nüfuzuna dayanan fəaliyyətlərin də effektivliyini xeyli aşağı salmışdır. Sevindirici cəhət yenə də bndadır ki, meydanda önəmli fiqur olaraq Çöhrəqanlı söz sahibinə çevrilir. Və özü də ifadə edir ki, o bu mərhələnin adamı kimi çıxış edir. İnilabçılığını itirməyib, mütləq ifadələrə leksikonunda yer ayırır, «bu bizim son savaşımızdı, ya ölüm, ya qurtuluş» deyir, sonra isə realist düşüncəyə sahib olduğunu sezdirir: «bu mərhələdə nəyə nail olsaq, gələcək inkişafın köməyi olacaqdır.»

Azərbaycan davasnda hər kateqoriyanın adamının faydası danılmazdır. Tam qurutuluşçu olun, Böyük Azərbaycan yaradılması ideyasını gündəliyə çıxarın, ancaq başqa daha mötədil müstəvidə, addım-addım yürüyəcək Çöhrəqanlını da kiçiltməyə çalışmayın. Xırda dedi-qoduların, söz güləşdirmələrin əsəb burulğanında sıradan çıxmasına rəvac verməyin. Son günlər eşitdiyim müqayisənin təsiri ilə bu yazını yazmağı qərarlaşdırdım. Bəzi dotlarımız Çöhrəqanlı ilə fərqlərini göstərərkən, «biz istiqlalçıyıq, o isə federalistdir» deyərək inkarçılıqlarını əsaslandırmağa başlayır. Bir dəfə Türkiyədə məni təqdim edərkən söylədilər ki, bu Elçibəyə yaxın adamdır. Bu təqdimatı dəyişərək ifadə etdim ki, Elçibəyə yaxın adam milyonlarladır, ona yaxınlıq yetərli deyil, həm də Elçibəyin yaxın adamı olmağa çalışanlardan biriyəm. Çöhrəqani dünyagörüşcə Elçibəyə yaxın adam olmaqla yanaşı, həm də Elçibəyin yaxın bildiyi böyüklərimizdən biri kimi qəbul olunmaq haqqına sahibdi. Xüsusilə də, Elçibəyə yaxın olanlar, Elçibəyin yaxın olduğu adamlara münasibətdə olduqca diqqətli olmağa borcludurlar. Unutmamalıyıq ki, nə Rəsulzadə milli muxtariyyətçi, nə Elçibəy yenidənqurmaçı olub, nə də Çöhrəqani federalistdir. Hamısı təpədən-dırnağadək istiqlalçıdırlar. Şüarlarla məfkurəni qarışdırıb böyük öndərlərimizi qaralamadın çəkinməliyik. Elə istiqlalçılıqla qalmaqalçılığın fərqi də bundadır.

# MİLLİ BİRLİK VƏ BİLİK

Dünyada qloballaşmadan söhbət gedir. Azərbaycanda isə yenə də dünyaya tərs mütənasiblik göstərərək regionlaşmadan danışlır. Söhbətlə danışmağın azacıq fərqi var. Söhbət demokratiyanın ayrılmaz nəsnələrindən olan disskusiya deməkdir, yəni istədiyin vaxt söhbəti kəsə də bilərsən. Danışmaq isə monoloqdur. Yəni səsin özünə xoş gəldiyi qədər danışmaq haqqına sahibsən. Görünür seçkilər yaxınlaşdıqca daha tez-tez monoloqların dinləyicisi olacağıq. İndidən başlayıblar. Bir boy oradan qalxır ki, qərbi azərbaycanlılarsız heç kim hakimiyyətə gələ bilməz. Digəri naxçıvanlılarsız, başqısı şirvanlılarsız, o biri qarabağlılarsız, biri də bakılılarsız heç kim hakimiyyətə gələ bilməz, deyibən hay-həşir salır. Elə bilirsiniz Azərbaycanın bölgələri ilə məsələ yekunlaşır? Biri gedib Pentaqonun binasını görüb deyir ki, Amerikasız heç kim hakimiyyətə gələ bilməz. Digəri Kremlin saatından heyrətlənib deyir ki, Rusiyasız hakimiyyətə gəlmək olmaz. Başqa birisi də İsfahan saqqızını çeynəyib valeh olur və deyir ki, İransız hakimiyyətə gəlmək mümkünsüzdür. Biz də durub hamısına meydan oxuyuruq ki, bu millətsiz heç kim hakimiyyətə gələ bilməyəcək. Əlbəttə, hərə öz sevdiyinə və tanıdığına güvənir.

Ağrılı cəhət orasındadır ki, bunu təkcə çayxanada, meyxanada danışmırlar. Bu Azərbaycanda təbliğat texnologiyasının ən inkişaf etmiş variantlarıdır. Prezidentlik uğrunda rəqabətdə yəqin ki, tez-tez aşağıdakı şüarlara rast gələcəksiniz. Filan bölgədə doğulmuş filankəs gəlsə naçıvanlılaın, ermənistanlıların başını kəsəcək. Demir ki, sıxışdıracaq, əziyyət verəcək, hətta güllələyəcək. Elə birbaşa bıçaq götürüb başını kəsəcək, deyir. O birinin də içindən gələn cavab heç də geri qalan deyil: Naxçıvanlılar, ermənistanlılar hakimiyyətdən getməsə ölüb qurtaracağıq. Bir-birini inkarçılığa gətirib çıxaran, bir-birinə bir məmləkətdə yaşamaq haqqını pozmağa aparan bu sərsəm təbliğat artıq Qarabağ məğlubiyyətindən zərrə qədər ibrət götürməmiş Azərbaycan cəmiyyətinin çoxluğu üzərində öz təsirini buraxmışdır.

Unutmaq olmaz ki, 1993-cü ildə hakimiyyəti ələ keçirən S. Hüseynov dar ağacından asmağa, H. Əliyev də baş kəsməyə gəlmişdi. Ancaq nə dar ağacı quruldu, nə də baş kəsildi. Çünki dünyada qloballaşma deyilən bir inkişaf baş verib. Dar ağacından asmaq istəyəni dar yerə saldılar ki, ağac tapa bilməsin. Baş kəsəni də başa saldılar ki, Fransız inqilabının məşhur gilyotinləri muzeydə eksponata çevrilib. Ən yaxşısı hirsinizi soyutmq üçün tutub həbsxanaya basın, polis dəyənəyi ilə döyün. Gördülər ki, bu kəsəyənlər illah da nəyisə kəsməyə tamarzıdırlar, nefti, mazutu nəzərə alıb çatdırdılar ki, ancaq cib kəsə bilərsiniz. Yalnız demokratik yolla və şərikli. Bunun da texnologiyasını öyrətmək üçün dünyanın ünlü şirkətlərini ezam etdilər ki, gedib yollarını öyrədin. Çünki plan təsərrüfatının içində böyümüş adamlar bu cür beynəlxalq standartlara uyğun cib kəsməyi belə tezliklə öyrənə bilməzdilər. Həm də yabançı dostlarımız nəzərdə tutdular ki, məmləkətdə ciblər kəsilmiş olsa, o cibdə para da qalmayacaq. O paralar yavaş-yavaş Nyu-Yorkda, Londonda, Parisdə xarici bankların kəsilməmiş ciblərinə axmağa başlayacaq. Necə düşünmüşdülər, elə də oldu. İndi anlaşıldımı ki, Azərbaycanda nə region, nə tayfa-klan, nə də mafiya hakimiyyəti var? Sadəcə cibkəsənlər hakimiyyəti var, vəssəlam.

Azərbaycanda tayfa və ya klan hakimiyyəti deyilən şey olmayıb. Olsaydı elə demokratiya kimi bir şey olardı. Tarixən tayfaları Ağsaqqallar Şurası idarə etmiş və tayfa başçısını o tayfanın mənsubları seçmişdi. Bu başqa tayfadırsa, başçısını niyə bizə zorla «seçdirirlər»? Tayfa-klan hakimiyyəti də uzun əsrlərdən bəri formalaşmış bir ailə şəbəkəsini, qan qohumluğu xəttini göstərməlidir. Kökü Azərbaycan xanlarına gedib çıxan tarixi ailə strukturunun ancaq parçalanmış elementlərini zamanımızda göstərmək mümkündür və bunun da indiki hakimiyyət təmsilçilərinə aid olan heç bir tərəfi yoxdur.

Buna mafiya hakimiyyəti də deyilməz. Mafiya bir zamanlar İtaliyada gizli terrorist təşkilat kimi üzə çıxmışdı və sonralar müxtəlif yollarla siyasi hakimiyyəti öz iradəsi altında tutmağa cəhd göstərməsi ilə tanınırdı. Ancaq burada əsas göstərici gizlilikdir. Bunlar isə milləti açıq-aşkar dövlət aparatı vasitəsi ilə soyurlar. Digər

tərəfdən mafiya strukturundan çıxanları dərhal məhv edirlər. Bizdə isə şəbəkədən çıxan hər kəs gəlib demokratik müxalifətçi statusuna qədər yüksələ bilir və illərlə rejimə qarşı mübarizə aparan insanlar onların yanında demokratiyadan danışmağa az qala utanırlar. Unutmaq olmaz ki, mafiyanın özünün də ədalət qanunları mövcuddur. İndiki hakimiyyət mənsubları minlərlə insanın mülkiyyətini zorakılıqla qəsb edərkən indiyədək halallıq aldığını eşitmisinizmi? Mafiyanın da bu dərəcədə allahsızlıq edə biləcəyinə mənim inanmağım gəlmir.

Və nəhayət çoxlarının iddia etdiyi kimi, Azərbaycanda region hakimiyyəti də yoxdur. Hakimiyyətin Qarabağa münasibəti ilə Naxçıvana və ya Qərbi Azərbaycana münasibətinin hansı əlahiddə fərqi var? Qarabağla Qərbi Azərbaycan işğal altında, Naxçıvan blokadada. Bu bölgədən olan insanların aclıq və səfalət içində yaşamaq əmsalı bütün bölgələrimizdəki vətəndaşlarımızın durumu ilə düz mütənasibdir. Sadəcə bu region adlarıyla qorxunc bir siyasi siyasi alver aparılmaqdadır. Hətta ziyalılar kimi qəbul olunan çevrədə belə məsələni ancaq region mahiyyəti üzrə təftiş etmə ənənəsi formalaşıb. Azərbaycanda birinci il deyil ki, regionçu hakimiyyət adı mübahisə predmeti olur. Xanlıqlar dövründən başlamış kommunist katiblər dövrünə qədər yüzlərlə faktı sadalamaq olar. Vəzirova naxçıvanlıların baxışı ilə qarabağlıların baxışının regional bucaqdan kifayət qədər fərqləndiyi xatirinizdə olar. Elə Mütəllibova Bakı kəndlərinin münasibəti ilə qərbi azərbaycanlıların münasibəti bir-birinə ciddi təzad təşkil edirdi. Elçibəy ilk dəfə olaraq bu sindromu dəyişdi və ümumazərbaycan düşüncə tərzini qəbul etdirməyə çalışdı. Ancaq onu da haqsızlıqla regionçuluqda suçlayanlar tapılırdı. Əliyevi isə az qala regionçuluğun banisi kimi tanımaqdayıq. Ancaq hələ də araşdırmamışıq ki, həqiqətən də buna regionçuluq adını vermək düzgündürmü?

Siyasi ədəbiyyatda regionçuluq sosial-mədəni forma kimi müəyyən ərazidə yaşayan insanlar arasında münasibətlərin xarakteri ilə bağlıdır. Bu xarakter özünü onların etnopsixoloji cəhətlərində və məişət həyatı ilə bağlı ortaq hisslərində göstərir. Bu ərazilər sahəsinə görə o qədər də böyük olmur, bu ərazinin mənsubları «kiçik torpağa»

sevgilərində, bağlılıqlarında mobil mütəşəkkillik göstərirlər. Siyasi regionçuluğun subyekti kimi isə siyasi region çıxış edir və dövlət hakimiyyətindən fərqli qərarlar çıxarmaq və regionu siyasi təzyiq faktoru kimi istifadə etmək əlamətlərində özünü göstərir. İqtisadi regionçuluq isə bütün dövlətlərdə rast gəlinən bir məsələdir və bölgələrin iqtisadi inkişafını təmin edən siyasətin içində yer alır. İqtisadi regionçuluq strateji əhəmiyyəti nəzərə alınaraq dövlətin bir bölgəsinin başqalarından daha imtiyazla inkişaf etdirilməsi, yaşayış səviyyəsinə görə başqa bölgələrdən daha çox inkişafı üçün münbit şərait yaradılması mənasını ifadə edir. Bizdə söhbət əsasən siyasi regionçuluqdan gedir. Müqayisə üçün götürün, Naxçıvan hansı parametrlərə görə Azərbaycanın başqa bölgələrindən daha imtiyazlı inkişaf yolu keçmişdir? Bilirsinizmi ki, son on ildə İstanbulda artıq Naxçıvan icması formalaşıb? Dolanışıq ucbatından əhalinin yarıdan çoxu öz doğma yaşayış yerini tərk edib. Hətta övladları da toylarını İstanbulda keçirirlər. Bakının bütün çayxanaları işsiz-günsüz Naxçıvan camaatı ilə doludur. Budurmu regionçuluq? Qərbi Azərbaycanlılar 15 ildir vətən torpağından didərgin salınıb. Kim harada gəldi bir ocaq tapıb barınıb. Bir dəfə dövlət səviyyəsində görmüsünüz ki, onların problemi beynəlxalq təşkilatlar qarşısında inadla qaldırılsın? Beynəlxalq arenaya çıxacaq hökumətinin, təşkilatlarının yaradıldığını eşitdinizmi? Ancaq hakimiyyət büdrəyəndə istifadə üçün nəzərdə tutulur ki, onları Azərbaycanın digər bölgələri ilə üz-üzə qoysunlar. İndi Qərbi Azərbaycanın inkişafı ilə Köçəryan, Qarabağın inkişafı ilə də Qukasyan məşğul olur. Olmayan Vətən torpağının region təəssübkeşliyi, yalnız və yalnız bu torpaqların azad olunması üçün çalışmaqdan ibarətdir. Əhalisi didərgin salınmış Naxçıvanın region təəssübkeşliyi bu bölgədə insanların adam kimi yaşamasına, çörək qazanmasına şərait yaratmaqdır. Cənub zonası nə vəziyyətdədir. Bu zonada beş-on nəfər Əlikram Hümbətovun xəstə təxəyyülünü qəbul edən insanlardan başqa əksəriyyəti zəhmətsevər Azərbaycan vətənpərvərləridir. Xarabaya çevrilmiş Lənkəranın, Masallının, Cəlilabad durumunu, bu bölgənin yoxsulluq içində Rusiya bazarlarını nicat yeri bilən və vətəndən uzaqlarda ölüm risqinə çörək pulu qazanan insanlarını niyə görməzdən gəlirik? Şimal zonasında minlərlə səfalət içində yaşayan

saf vətəndaşların durumunu niyə dilə gətirmirik? Gəncənin, Mingəçevirin vəziyyəti də danışılası deyil. Tamamilə PKK-nın əsarəti altında olan bu torpaqlarımızı, şoranlığa əsir düşmüş Kürdəmiri, şikəst insanların yetişdiyi ocağa çevrilən Qəbələni, xaraba günə salınmış Şəkini görmürsünüzmü? Hamısı məgər eyni əllə viran qoyulmayıbmı? Hansı bölgə o birindən daha çox inkişaf etdirilmiş vəziyyətdədir? Bunun adı regionçuluq deyil, antiazərbaycançılıqdır, Azərbaycanı qarış-qarış viran qoymaqdır.

Bəlkə Borçalı Türklərinə münasibət bundan yaxşıdır? İmkansızlıqdan çoxusu min illərdir babalarının yaşadığı torpaqları tərk etməyə məcbur olublar. Gürcüstana boru kəmərindən verilən imtiyazdan və ya Şevarnadze ilə dostluqdan yararlanıb sülalələrinə Gürcüstanın Şöhrət ordenlərini almaq əvəzinə bu tarixi fürsətdə orada yaşayan həmvətənlərimiz üçün ermənilərin aldığına bərabər olan federasiya subyekti statusunu qazanmaq lazım idi. Bu məsələdə Türkiyənin Gürcüstan üzərində təsirindən də yararlanmaq olardı. Etmədilər. Etmək istəmədilər. Azacıq vətənpərvərlik lazım idi ki, bu addımları atsınlar. Atmadılar. Yaxın zamanlarda Borçalı müsibətinin Qarabağ müsibətini unutduracağını məgər hiss etmirsinizmi?

Bütün bu acınacaqlı mənzərədən sonra elə bir əhval-ruhiyyə yaradırlar ki, bəzi ailəsində kişi olmağı bacarmayanlar, tayfasının, regionunun kişisi kimi çıxış etməyə başlayır. Həm də öz adlarından danışmağı unudub sanki un kisəsi kimi üst-üstə yığdıqları bütün bölgə insanlarının adından danışırlar. Hətta onların əvəzindən kimə istədilər bütün regionun səsini də peşkəş edirlər.

Bu ağır vəziyyətin yaradıcısı olan mövcud hakimiyyəti bir dini təriqət kimi də qəbul etməyin. Yəni Allahla heç bir əlaqələri olmadığı göz qabağındadır. Şeytanla da elə bir bağlılıqları yox. Çünki hətta şeytana ibadət edənlər də onu Allahın bir mələyi kimi görməyi içlərinə sindirə bilir və Allahın avtoriteti ilə hesablaşırlar. Bunlar yalnız və yalnız pula ibadət edən bir təriqət mənsublarıdır. Bunu bir zamanlar keçəcək Azərbaycanda hər kəs Cibkəsənlər təriqəti kimi xatırlayacaqdır. Bu günki kadr siyasətində kim obirindən daha bacarıqda cib kəsə bilirsə, o da qabağa çəkilir. Region mənsubiyyətindən çox gib kəsmə qabiliyyəti əsas götürülür.

Hələ seçkilər bir az qızışsın, ən çox qulaqlarımızı deşən bu şüar olacaq: Sizi MİLLİ BİRLİYƏ çağırıram! Mənsə sizi sadəcə BİLİYƏ çağırıram. Bilik, təkcə kitab, qəzet oxumaq deyil. Dünyanın gedişatını bilməkdir. Qloballaşmanı bilməkdir. Bilgi çağında yaşadığımızı anlamaqdır. Və demokratiyanı sevməkdir.

Bilmək lazım ki, Türkiyədə də regionçuluq var. Adanalılar bir məclisə toplaşanda adanakababının, qazianteplilər çiy küftənin, iğdırlılar da plovlarının bənzərsizliklərindən danışırlar. Ansaq kimsə söyləməz ki, adanalı iğdırlıdan daha keyfiyyətli insandır. Çünki biz az boy verəndə yuxarıda qosqoca dövlətin varlığını hamısı görür. Hamı bir-birinə bərabərhüquqlu vətəndaş kimi baxmağa məhkumdur. Fransada region deyəndə şərabların müqayisəsi gedir, adamların yox. Azərbaycanda isə dövlət idealizmi yerinə region idealizmi var. Əslində regionçuluq Qəbələnin şabalıdlı plovu, Naxçıvanın göyərtili plovu və Lənkəranın balıqlı plovunun fərqində özünü büruzə verməlidir. Qərbi Azərbaycanda isə plov çəkmə kimi tanınır. Yəni regionçuluq tamamilə bir plov məsələsidir. İstəyirsniz ürəyinizi soyutmaq üçün uca tribunadan çıxış edib deyin ki, çəkmə plovdan daha yaxşıdır, şabalıdlı plov göyərtili plovdan daha ləzzətlidir. Plovdan o tərəfə məsələni insanların keyfiyyət göstəricisinə çevirməyə haqqımız və əsasımız yoxdur. Vətəndaş kimi hamımızı qane edən dövlət yoxdursa, plov növlərinin müqayisəsi bəlkə də demokratik dövlət qurulana qədər başımızı xeyli qarışdırar. Həm də xeyli zərərsiz olar və münasibətlərin pozulmasına rəvac verməz.

Diqqətlə araşdırsanız, qəbul edərsiniz ki, əsl həqiqətdə Azərbaycanda regionçuluq kimi tanıdılan qorxunc kabus yoxdur. Sadəcə başqa regionu sevməzlik, bir-birinə inamsızlıq, şübhə virusu var. Bu virusa görə hamımız öz-özümüzü sorğulamalıyıq. Tarixdən başlayıb Fətəli xanı, İbrahim xanı, Kalbalı xanı, Hüseynqulu xanı sorğulamalıyıq. Onlardan üzü bu tərəfə bu şübhəçiliyə rəvac verən hər kəsi sorğulamalıyıq. Onsuz da demokratik dövlət qurana qədər bu mübahisələr, bu ittihamlar, bu şübhəçilik Azərbaycan cəmiyyətinin gündəmindən düşməyəcək. Bu mübahisələrin kəsilməsi üçün öz-özümüzü sorğulayıb içimizi boşaltdıqdan sonra ağlımızı, enerjimizi demokratik dövlət qurmağa yönəltməliyik. Azərbaycanın

nəinki bütün regionlarına, bütün xalqlarına hamımız qarşılıqlı səmimiyyət, etimad nümayiş etdirməliyik. Açıq söyləməliyik ki, bu dövlətdə çoxluğu Türklər təşkil edir və dövlət Türklərin tarixi dünyagörüşünə uyğun mahiyyətdə olmalıdır. Açıq söyləməliyik ki, Türk dili bu məmləkətdə yaşayan xalqlar arasında əsas ünsiyyət vasitəsi kimi dövlət dili statusunda olmalıdır. Bu iki məsələdən başqa ictimai-siyasi həyatın bütün sahələrində bərabərhüquqlu vətəndaşlıq prinsipi dönməz xarakter almalıdır. Azərbaycanda yaşayan bütün xalqların mədəni haqları tanınmalı, qanunla onların inkişafına təminat verilməli,  bütün regionların tərəqqisi üçün dövlət eyni münasibəti göstərməlidir. Onda görəcəksiniz ki, nə talış, nə də ləzgi qardaşımız separatçılıq istəyir, nə Qərbi Azərbaycan, nə Naxçıvan, nə Qarabağ türkləri nə də Bakı kəndləri regionçuluq davası döyür. Hamısı sadəcə insan kimi rahat və bir qarın çörəyə möhtac olmadan yaşamaq istəyir.

Bilin ki, səmimi regionçu olmaq da mümkündür: BÜTÖV AZƏRBAYCAN REGIONÇUSU. Sabah Təbrizdən, Makudan, Urmiyədən, Ərdəbildən, Zəncandan olan qardaşımızı qucaqlamağa qərbi azərbaycanlı, gəncəli, bakılı, lənkaranlı, naxçıvanlı kimi çıxmağa haqqımız yox. Bilin ki, ailəni də, tayfanı da, regionunu da ən ülvi hisslərlə, duyğularla sevmək olar, ancaq heç birini Azərbaycan bayrağından ucaya qaldırılacaq dəyərlər kimi görmək olmaz.

Bunu biləndən sonra və ümumiyyətlə BİLİKdən sonra MİLLİ BİRLİYƏ çox az məsafə qalır.